F Ə R Ə C İ B R A H İ M O Ğ L U
Q U L İ Y E V




# YENİ DÜNYA DÜZƏNİ SİYASƏTİNDƏ AZƏRBAYCANIN YERİ VƏ ROLU

**Bakı - 2001**

**Redaktoru:**

Filologiya elmləri namizədi

Arif RƏHİMOĞLU

Fərəc İbrahim oğlu Qyliyev. Yeni Dünya Düzəni siyasətində Azərbaycanın yeri və rolu.

Bakı: 2001.-154 səh.

Kitabda SSRİ-nin dağılmasından sonrakı dövr qlobal siyasətin durumu, supergüclərin bloklaşma xarakteri araşdırılmış, mövcud Yeni Dünya Düzəni siyasətində Azərbaycanın yeri və rolu həm geopolitik, həm də geostrateji baxımlardan təhlil edilmiş , bir sıra yeni elmi-nəzəri və praktik müddəalar irəli sürülmüşdür.

Geopolitika və geostrategiyaya dair Azərbaycanda ilk sistemli əsərlərdən biri olan bu kitab siyasi partiyalar, mütəxəssislər və qlobal siyasətlə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

**Bütöv Azərbaycan kitabxanası**

© Fərəc İbrahim oğlu Quliyev, 2001.

# GİRİŞ
## Yeni Dünya Düzəni - YDD

Dünya inkişaf etdikcə bəşəriyyətin təhlükəsizliyi məsələsi günü-gündən aktyallığını artırır. Nəinki mənfi amillər, hətta müsbət amillər belə ehtiyatlı yanaşma, sistemli idarəetmə tələb edir. Müsbət amil kimi bir çox ölkələrin iqtisadi inkişafını göstərmək olar ki, bu inkişaf milli ambisiyaları qüvvətləndirir və yeni iddiaları ortaya qoyur. Hegemonluq və ərazi iddialarını bu sıraya salmaq olar. Əlbəttə, söhbət müsbət meyllərdən ehtiyatlanmaqdan getmir. Məsələ burasındadır ki, hətta müsbət amillər belə fəsad verə bilirsə, idarəolunmadakı nasazlıq mənfi amillərin xaotik durum yaradacağının qaçılmazlığını ortaya qoyur. ***Demoqrafik partlayışların törədə biləcəyi nəticələr, radikal urbanizasiyalar — şəhərlərə axınlar, miqrasiyalar, kasıbçılıqla bağlı sosial təlatümlər, dinlərarası düşmənçilik, kütləvi qırğın silahlarının yayılması kimi amillərlə zəngin dünyamız nizamlı olmazsa, vahid sistemlə idarə edilməzsə, hər an pozula biləcək sabitlik bəşər təhlükəsizliyini sual altına qoyar.*** Ayrı-ayrı dövlətlər bu kimi mənfi tendensiyaların qarşısını almaq qüdrətində deyildir. Deməli, ayrı-ayrı dövlətlər geopolitik sabitliyə nail ola bilməz. Bu da dünyanın xaotik duruma düşməsinə səbəb olar. Xaos və qaydasızlıq isə bəşəriyyətin mövcudluq şərtlərini təhlükə altına ala bilər. Ayrı-ayrı varlı dövlətlər çevrədəki kasıb dövlətlərin əhatəsində xoşbəxt və təhlükəsiz yaşaya bilməz. İşsizlik və kasıblıq həddi çox yüksək olan ölkələrdən milyonlarla narazı işsizin artan templə qonşu ölkələrə axını bu ölkələrdə ciddi narahatlıq, narazılıq, sosial gərginlik, hətta sosial partlayış törədə bilər. Gəlmələrin gəlişi ilə bağlı yerli

adamların iş yerlərini daha ucuz işçi hesabına itirməsi təhlükəsi ekstremizmə, etnik toqqışmalara zəmin ola bilər. Gəlmələr özləri də həyat ədalətsizlikləri, güzəran ağırlıqlarına rəğmən və itirməli az şeyləri olduğundan istənilən toqquşmaya, inqilaba meyilli olurlar. Deməli, kasıb dövlətlər əhatəsindəki varlı dövlət də ciddi risk altında yaşamaq zorundadır.

Başqa qrup məsələlər də vardır ki, bu məsələlər bir dövlətin daxili işi, daxili problemi sayıla bilməz. Belə məsələlərin həlli bir dövlətin gücünə, imkanlarına adekvat deyildir. Həm də elə qlobal məsələlər var ki, bunun həllini bir dövlətə həvalə etmək də doğru olmaz. Dünyada narkomaniya, narkobiznes, ekoloji problemlər, AİDS (SPİD) və o tip xəstəliklərlə mübarizə, kütləvi qırğın silahlarının istehsalı, yayılması kimi problemlər bəşəriyyətin ümumi problemləridir və ümumilikdə həllini gözləyirlər. Sadalanan və oxşar məsəlalər dünyanın harasında baş qaldırır-qaldırsın, müəyyən müddət ərzində lokal təsirini itirərək, dünyanın ümumi təbii mənzərəsinə pozucu təsir edir. Ona görə də, dünyamızın idarə edilməsində bir sistemli yanaşma tələb olunur. ***Dünya bir ailə formasında yaşamalı, sivilizasiyalararası dialoq sonda vahid dünya mədəniyyətinin formalaşmasına gətirib çıxarmalıdır.*** Bu o demək deyildir ki, hansısa mədəniyyət assimilyasiya olunacaq, hansısa etnos əriyəcəkdir. Sadəcə, bu vahid mədəniyyətdə bütün rəngarənglik öz əksini tanacaq, bütün mədəniyyətlər ölməzlik qazanacaqdır. Dünya xalqlarının hər mənada konsolidasiyası bundan asılıdır. Təbii ki, təkcə mədəniyyətlərin konsolidasiyası və sonda vahidləşməsi işin tamamlanması deyildir. Ümumi siyasi strategiyanın hazırlanması, ümumi siyasi hadəfin müəyyənləşdirilməsi əsasdır. ***Bütün dövlətlər öz siyasətlərini müəyyənləşdirdikdə Yeni Dünya Düzəninə ( YDD ) uyğunlaşdırılmış proqramlarla çıxış etməlidir.*** Yeni Dünya Düzəni proqramının həyata keçirilməsi faktıki olaraq gündəmdədir. Artıq 500 ildən çoxdur ki, kontinentlər siyasi

münasibətlərində qarşılıqlı əlaqələndirmədən istifadə edirlər. ***Avrasiya isə siyasi münasibətlərin kəsişdiyi, formalaşdığı, dünya siyasətini istiqamətləndirən mərkəz kimi ozünü təsdiqləyibdir.*** Dünya siyasətinə Avrasiyanın təsir imkanlarını artıran başqa bir amil də vardır. Bu, müxtəlif yollarla, müxtəlif vaxtlarda, əsasən, Qərbi Avropa xalqlarının dünyanın digər regionlarına getməsi, məskunlaşması ilə də xeyli dərəcədə bağlıdır. Ona görə, Avropa dövlətlərinin bir çoxu xüsusi statusa malikdir. Düzdür, SSRİ dağıldıqdan sonra ABŞ birmənalı şəkildə dünya siyasətinin hakimi rolunu öz üzərinə götürmüşdür. Amma YDD prinsiplərini həyata keçirmək üçün bu mühəndis-hakimə ciddi rıçaqlar lazımdır, qurucular lazımdır.

## Azərbaycanın siyasi oriyentasiyasının YDD-də əhəmiyyəti

Dünya siyasəti əsasən Avrasiyada müəyyənləşdiyindən bu bölgə geosiyasi cəhətdən mühüm əhəmiyyət kəsb edir. ***Dünyanın siyasi və iqtisadi gücünün əhəmiyyətli hissəsi toplanmış Avropa YDD-də nə qədər əhəmiyyətə malikdirsə, artıq Asiya hissəsi də bundan az olmayan əhəmiyyət kəsb edir.*** Yeni dünya siyasəti prioritetləri, ideoloqları, mühəndisləri, qurucuları, əsas prinsipləri müəyyənləşdirmə dövrünü yaşayır. Bu müəyyənləşdirmədə ABŞ aparıcı dövlət kimi artıq müəyyən fəaliyyət istiqamətlərini təyin edib və onları reallaşdırmaqdadır. Bu müəyyənləşdirmə dövrü Azərbaycanın müstəqillik dövrünə təsadüf etdiyindən, təbii ki, ölkəmiz həm öz xarici siyasətini qurduqda YDD prinsiplərini nəzərə almalı, həm də bu siyasətdə yerini və rolunu müəyyənləşdirməlidir. ***Əslində Azərbaycan istəsə də, istəməsə də YDD siyasətinə qarışacaqdır.*** Çünki Avrasiya dünya siyasətinin mərkəzi arenası olduğundan bu bölgədə

yerləşib bitərəf qalmaq mümkün deyil. Üstəlik, Azərbaycan coğrafi cəhətdən nə tam Avropa, nə də tam Asiya dövləti deyildir. ***Avropa ilə Asiyanın qızıl körpüsü olan Azərbaycan dünya siyasətini müəyyənləşdirən dövlətlər üçün həyati əhəmiyyətli geosiyasi məkandır. Müstəqil dövlət kimi artıq Azərbaycanın YDD siyasətində kompleks, əhatəli, uzunmüddətli geostrategiyasının hazırlanması və ortaya qoyulmasının vaxtıdır.*** Çünki regionda baş verən, yaxyd baş verəcək qlobal mahiyyətli siyasi proseslərdə qeyri-fəal olmaq Azərbaycana sonsuz məhdudiyyətlər gətirə bilər. Amma Bu qlobal siyasətdə fəal olmaqla ölkənin inkişafı və təhlükəsizliyini təmin etmək mümkündür.

YDD siyasətində bütün ölkələr iştirak etməyə məhkumdur. Bu siyasətin həyata keçirilməsində həm **qoğal**, həm **kötək** üsulundan istifadə olunacaqdır. YDD siyasətində təşəbbüskar və fəal olanlar "qoğalla" qarşılanacaq, qurucu və idarəedicilərin sırasında dayanacaq, bu siyasətdə iştirak etmək istəməyən və ya ona mane olanlar isə “kötəklə” qarşılanacaq, idarəolunanlara aid ediləcəkdir. Əlbəttə, biz çalışırıq ki, Azərbaycan həm "kötək" yeməsin, həm də qurucu və idarəedənlərdən olsun. Azərbaycanın coğrafi mövqeyi onun idarəedicilərdən olmasını mümkün edir. Ölkəmiz Qərb və Şərq mədəniyyətlərinin qovuşduğu məkanda, islam və xristian dinlərinmn sərhəddində yerləşir. Ona gərə də, dinlərarası dialoqda ıştirak imkanına, vahid dünya mədəniyyətinin formalaşdırılmasıida roluna və s. görə müstəsna rolu ola bilər. Çünki bu dialoqlar baş tutmazsa, mədəniyyətlər çulğalaşmazsa, iqtisadi, siyasi inteqrasiyalar quru və dayanıqsız olacaqdır. Bir mənəvi boşluq yaraiacaqdır. Mənəvi boşluq isə dezinteqrasiyaların ən başlıca səbəblərindəndir.

Yerləşdiyi mövqe Azərbaycanın daha bir amildən istifadə edib YDD dəyərlərini Orta Asiya, bütövlükdə Asiyaya transfer etməsinə imkan verir. Bu, Türk Dövlətləri zolağında Azərbaycanın mövqeyidir. Bu mövqe Şərqin Qərbə, Qərbin Şərqə qapısı olan Azorbaycanın YDD siyasətinin həyata

keçirilməsində əhəmiyyətini daha da artırır. Dil amili ciddi amildir və bir çox ölkələr dünyaya təsir imkanlarını bu amilin hesabına qüvvətləndirə biliblər. Məsələn, Fransa Afrikadakı fransızdilli ölkələrə təsir imkanlarına görə xeyli dərəcədə dünya siyasətində mövqelərini möhkəmləndirə bilmiş, həmin regionu təsir dairəsində saxlamış, bu regionda maraqları olan dövlətlərin Fransa ilə hesablaşmağa məcbur olduğunu ortaya qoymuşdur. Düzdür, Azərbaycan aparıcı dünya dövlətləri ilə müqayisədə aşağı dərəcəli dövlətdir, amma potensialına görə orta dərəcəli dövlətə çevrilməsi qısa müddətdə mümkündür. Ona görə də Azərbaycanın dünya siyasətinə təsirini bu inkişaf imkanları ilə uzlaşdırmaq və dövri reseptlər hazırlamaq lazımdır. Bu bir neçə mərhələdə özünü göstərə bilər. ***Birinci mərhələdə*** Azərbaycan mövcudluğunu, Quzey Azərbaycanın əldə etdiyi müstəqilliyi saxlamalıdır. ***Sonrakı mərhələdə*** orta dərəcəli dövlətə çevrilməsi üçün çalışmalıdır. Bu mərhələlərdə strateji baxımdan mühüm məsələlərdə tərəf müqabilini seçməkdə yanılmamalıdır. Bəşər təhlükəsizliyi üçün ortaya qoyulmuş YDD siyasətində, Avrasiya təhlükəsizlik sisteminin yaradılmasında fəal iştirak etməlidir.

Birinci mərhələdə Azərbaycanın müstəqilliyinin qorunub saxlanması və Quzey Azərbaycanın vəziyyətinin daha da pisləşməməsi üçün hər bir Azərbaycanlı "Azərbaycan haradır, nədir, Azərbaycanlı kimdir, onun missiyası nədən ibarətdir?" kimi suallara cavab axtarıb tapmalıdır. Bu təkcə mənəvi məsələ, yaxud nəzəri suallar deyil. Bu sualların cavabı həm də geostrategiyanın əsaslarıdır. Hər bir mərhələnin uğurlu olması üçün bütün vətəndaşların fədakarlığı tələb olunur. Ölkə siyasətini müəyyənləşdirənlərin isə daha çox fədakarlığı, dəqiqliyi, uzaqgörənliyi gərəkdir.

Ölkə varlığı düşünüldükdə əsas iki məsələ – daxili siyasətin və xarici siyasətin konturları dəqiq cızılmalıdır. Biz burada əsasən Azərbaycanın olum, inkişaf, Yeni Dünya Düzəni siyasətində rolu məsələlərinə üstünlük verdiyimizdən xarici siyasətə nəzər salacağıq. ***Azərbaycan öz xarici siyasətini,***

***ümumən dövlət siyasətini formalaşdırdıqda bir çox amillərlə yanaşı, təbii ki, yerləşdiyi məkan, qonşular, onların durumu, xarici siyasət hədəfləri, Azərbaycana münasibətləri və s. məsələləri bilməlidir.*** Ələlxüsus, qonşularımızdan biri – Rusiya geostrateji fəal dövlət kimi dünya siyasətinə təsir edən ölkə olduğundan, onun bölgəyə, Azərbaycana, YDD siyasətinə münasibəti fövqəladə maraqlıdır.

Rusiya ilə Azərbaycanın münasibətləri tarixin müəyyən mərhələlərində şərt və şəraitə uyğun olaraq müxtəlif tutumlu olmuşdur. Azərbaycanın 1813-cü, 1828-ci illərdə Rusiya ilə İran arasında parçalanması, bu dövrə qədərki münasibətlər, 1920-ci ildə iki il əvvəl müstəqillyini qazanmış ölkənin – Azərbaycan Demokratik Respublikasının yenidən Rusiya tərəfindən işğal olunması onu deməyə əsas verir ki, Rusiyanın Azərbaycana münasibəti imperiya prizmasındandır.

1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini qazandı. Həmin il Rusiyanın qurduğu SSRİ adlı imperiya dağıldı. Təbii ki, tam yeni münasibətlər formalaşmağa başlayır. Postsovet məkanında təkcə Azərbaycanın deyil, bir çox yeni müstəqil dövlətlərin yaranması da, bu dövlətlərin siyasi oriyentasiya müxtəlifliyi də, qlobal dünya siyasətində birqütblüyün yaranması və s. kimi hadisələr də yeni şəraitin və deməli, yeni şərtlərin meydana çıxmasına səbəb oldu. ***Rusiya zəifləsə də, halsız vəziyyətə düşsə də, geostrateji fəal dövlət olaraq qalır. Ambisiyalı geosiyasi hədəflərindən isə nəinki əl çəkməyib, əksinə, bu hədəflər uğrunda mübarizə aparır və imkan düşdükcə revanşlara qatılır.*** Əsl forma və metodlar axtarır. Rusiyanın imperialist nəzərlərlə baxdığı Azərbaycanın və bir çox postsovet bölgə dövlətlərinin bəxti onda gətirib ki, Rusiya təkcə bu dövlətlərin müstəqil siyasətinə, ümumilikdə müstəqilliyinə qarşı deyil, bütövlükdə Yeni Dünya Düzəni siyasətinə, bu siyasəti aparan dövlətlərin siyasətinə də qarşıdır. Qərb dəyərlərinə üstünlük verən ölkələrlə deyil, əks oriyentasiyalı ölkələrlə əməkdaşlıq və müttəfiqlikdədir. Bu

məqam Azərbaycan üçün çox mühümdür. ***Azərbaycan nəinki bir qara qüvvənin qarşısında tək dayanmayacaq. Azərbaycan kimi dövlətlər məcburi birgə fəaliyyətə məhkumdurlar. Üstəlik, YDD prinsiplərini tətbiq etmək istəyən ABŞ və onun fəal iştirakı ilə formalaşmış qurumlar, Avropa təşkilatları, geosiyasi fəal dövlətlər də Azərbaycanı və onun kimi dövlətləri müdafiə etmək məcburiyyətindədirlər.*** Əlbəttə, o halda ki, Azərbaycan YDD oriyentasiyalı siyasətinə ardıcıl əməl etsin və qərarlı olsun. Bu sistemə daxil olub fəal siyasət yürütmək üçün təhlükəli məqamlarla yanaşı, yeni situasiyada münbit zəmin də vardır. SSRİ-nin dağılması, Rusiyanın kəskin zəifləməsi, diskomfort vəziyyətə düşməsi həm yeni güc mərkəzlərinin meydana çıxmasına, həm də SSRİ dağılana qədər bu dövlətin könüllü və ya könülsüz müttəfiqi olan dövlətlərin yeni ittifaqlar haqqında düşünməsinə gətirib çıxarıbdır. ABŞ da artıq Avropada YDD platsdarmasını qurduqdan sonra Asiyaya keçməyə hazırlaşır. ***Transavrasiya təhlükəsizlik sisteminin qurulması üçün keçid Azərbaycandır. Əsasən türk dövlətləri zolağının qızıl həlqəsi olan Azərbaycan siyasi oriyentasiya mənasında qeyri-müstəqilliyə yuvarlanarsa, Avropadan Asiyaya yeni dəyərlərin ötürülməsi çətinləşəcək, bu geostrateji məkanda qara dəlik əmələ gələcəkdir.*** Rusiya hələlik tam özünə gəlmədiyindən, YDD-nə ciddi mane ola bilmədiyindən və adekvat layihəsi olmadığından YDD dəyərlərinin bir platsdarmdan digərinə keçid dəyərlərində bu cür “qara dəliklərin” yaranmasında maraqlıdır və imkan düşdükcə bunu edir. Postsovet ölkələri olan Baltikyanı ölkələrdən və Şərqi Avropa ölkələrindən əlini üzən Rusiya maneələr düzümünü əsasən Qafqaz ölkələri və Asiyada yaratmağa can atır. SSRİ dağıldıqdan sonra Rusiyanın keçmiş Sovet Respublikalarını öz təsiri altında saxlaması üçün etdiyi bir neçə “diriltmə” cəhdi istədiyi effekti vermədi. Nə slavyan birliyi, nə Müstəqil Dövlətlər Birliyi (MDB) yeni adla imperiyanı zühur etdirə bilmədi. Şərqi Avropada, bundan əvvəl isə Qərbi Avropada

təsir imkanlarını itirən Rusiya bütün diqqətini cənub-şərq istiqamətinə yönəltdi. Rusiya həm qlobal, həm də regional siyasətdə ölkənin yaxın və uzaq məğlubiyyətlərini nəzərə alaraq bu addımı atırdı. ***Beynəlxalq siyasi arenada uzun müddət rəqabətdə olduğu ABŞ-a həm iqtisadi, həm siyasi, həm hərbi, həm ideoloji müstəvilərdə məğlub olmuş Rusiya ABŞ-ın ideoloq və mühəndisi olduğu YDD layihəsini hər vəchlə pozmağı və "bəlkə də qaytardılar" xülyası ilə özünə gəlib revanşa hazırlaşmağı hədəf götürür.*** Rusiya artıq dünya siyasətinin hakimlərindən olmasa da, qəti məğlubiyyətə də uğramayıb. Bundan başqa, ABŞ-ın YDD siyasətinə qarşı olan Çin, Hindistan, İran və s. kimi dövlətlərin varlığı və bu dövlətlərin əksəriyyətinin geosiyasi fəal, həm də qüdrətli olması Rusiyanı ümidləndirir. ***Əslitndə Rusiya anlayır ki, Türkiyə başda olmaqla Türk Dövlətləri zolağı birmənalı olaraq YDD oriyentasiyalı olarsa, Rusiya nəinki bu dövlətləri öz təsir dairəsindən itirəcək, həm də Rusiyanın cənubundan vurulan bu zərbə cənub-şərq istiqamətində Rusiyanın bütün təsir imkanlarını heçləşdirəcək, ən yaxın müttəfiqləri ilə Rusiya arasında ayırıcı bufer rolunu oynayacaqdır.*** 1990-93-cü illər arasında Avrasiyada baş verən qlobal siyasi təlatüm və dəyişmələr dövründə Rusiyanın Azərbaycana açıq, kobud şəkildə vurduğu zərbələr də bu əndişədən qaynaqlanırdı. Avropa Birliyi ölkələri arasında inteqrasiya artdıqca, NATO Şərqə doğru genişləndikcə həmin prosesin Şərqə bu sürətlə irəliləməsini önləmək üçün Rusiya Azərbaycanda baş tutan çevrilişə qədər hər addıma və varianta əl atdı. Eyni proseslər Gürcüstana da tətbiq edildi. Yeni dəyərlərin Şərqə ötürülməsi zəncirinə ən əhəmiyyətli həlqə – Azərbaycan dağıdıldı. Bunun nəticəsi olaraq Avropa platsdarmasından Şərqə doğru vüsət alan irəliləmə və inkişaf illərlə ləngidi. Bu dövrdə Rusiya qismən özünə gəldi. Çin xeyli qüdrətləndi. ***Bu dövrü – 1993-cü ili ABŞ rəsmiləri də, politoloq və analitikləri də itirilmiş dövr adlandırırlar.*** Doğrudur, Rusiyanın tamamilə diz çökməməsində ABŞ özü də,

iri Qərbi Avropa dövlətləri də maraqlı idilər. ABŞ-ın marağı əsasən ondan ibarət idi ki, ***əvvəla,*** Qərb dövlətləri özlərinə qarşı ciddi təhlükə görmədikləri zaman NATO kimi qurumların mövcudluq zərurəti şübhə altına alına bilərdi. Bu isə YDD prinsipini reallaşdırmaq üçün yaradılmış ən ciddi platsdarmın laxlamasına səbəb ola bilərdi.

***İkincisi, təhlükə törədə biləcək Rusiya və onun iştirak etdiyi bloklar olmadığı halda, ABŞ-ın Avropada mövcudluğunun lazımlılığı iri Avropa dövlətlərini düşündürə bilərdi.***

**Üçüncüsü,** tarixən qənaətbəxş münasibətlərdə olmayan iri Qərb dövlətləri Rusiya təhlükəsi tam aradan qalxdığı halda, aralarındakı münasibətlərə yenidən baxa bilərdi.

**Dördüncüsü,** inkişaf etmiş bu ölkələr qorxu sindromu tamamilə aradan qalxdığından iqtisadi inkişaflarına rəğmən, ambisiyalarını ortaya qoya bilərdilər. Üstəlik, Rusiyanın qeyri-müəyyən şəkildə çökməsindən sonra yarana biləcək yeni dövlətlərin oriyentasiyası, hansının nüvə silahına malik ola bilməsi ciddi şəkildə düşündürücü suallar idi.

Qərb dövlətlərinin özləri də Rusiyanın xaotik şəkildə çöküşündə maraqlı deyildilər. Rusiyanın dağılması müqabilində milyonlarla rus "mujiki" Avropa ölkələrinə axışa bilərdi. Bu miqrasiya inkişaf etmiş Qərb dövlətlərində ciddi sosial-iqtisadi, etnik təlatümlərə səbəb olardı. Miqrasiya nəticəsində Avropanı "fəth" etmiş ucuz işçi qüvvəsi yerli əhalini işsizlik problemi ilə üz-üzə qoya bilərdi ki, bu da cəmiyyətdə qeyri-sabitliyə səbəb olardı. Nəhəng hərbiyəsi, hərbi-sənaye kompleksi, hərbi kəşfiyyatı olan Rusiyanın bu qurumlarının maliyyə sıxıntısı nəticəsində və ya rus dövlətçiliyinin ifrat çökməsi müqabilində necə davrancağı, siyasi hakimiyyətə hansı qüvvələrin və hansı platforma ilə gələcəyi məlum olmadığından həm ABŞ, həm də iri Qərb dövlətləri güzəştli mövqe tutdular. Hətta iri maliyyə yardımları

ilə ola biləcək destabilizasiyanı profilaktika etdilər. ***YDD qatarının dayanması Rusiya qatarının yolunu açdı. Rusiya 1993-cü ildə yenidən Azərbaycanı əzdi. Qərbdən Şərqə, Şərqdən Qərbə qapı olan geosiyasi əhəmiyyətli ölkə "qara dəliyə" çevrildi. Bu, Transavrasiya təhlükəsizlik sistemində baş verən ciddi qəza idi. Rusiya bu addımı ilə qlobal mahiyyətli raundu uddu, həm də regional əhəmiyyətli siyasi, iqtisadi uduş əldə etmiş oldu. Xəzərin karbohidrogen ehtiyatlarının öyrənilməsi, istehsalı və ixracatı məsələlərində indiyə qədər edə bilmədiyi müdaxiləni etdi. Həm neft ehtiyatlarının bölünməsində, həm ixrac kəmərləri məsələsində, həm Xəzərin statusu məsələsində təzyiq rıçaqları əldə etdi.*** Azərbaycanın 1991-ci ildə əldə etdiyi müstəqillikdən sonra Rusiya burada bütün mövqelərini bərpa etmək istədiyini açıqca ortaya qoydu, Milli Hökumət dövründə ölkəmizdən çıxarılmış ordusunu Azərbaycana qaytarmaq, Azərbaycan – İran sərhədlərinin birgə qorunması kimi strateji məsələləri gündəliyə gətirdi. ***Rusiya YDD-nin irəliləyə bilməməsi üçün açıq-aydın Avrasiya dəhlizinə tıxac vurmaq istəyirdi.*** Və faktiki olaraq MDB çərçivəsində bütün hüquqi addımlar da atıldı. Amma 800-dən artıq sənəd qəbul olunsa da MDB anadan ölü doğulan birlik olduğundan real nəticələr vermədi. ***Eyni zamanda, Azərbaycanın sarsıdılması ABŞ və Qərb üçün də zərərsiz ötüşmədi.*** Azərbaycan Türkiyədən Orta Asiyaya YDD dəyərləri daşımaq üçün startda ikən, MDB-yə daxil olundu və əks prinsipləri diriltməklə məşğul olmağa məhkum edildi. Və bu dəyişmə hər mənada tezliklə özünü Orta Asiyada göstərdi: İran xeyli fəallaşdı, Türkmənistan İranla mavi yanacaq, dəmir yolu layihələrini gerçəkləşdirdi, qeyri müəyyənlikdə qalan Orta Asiyada uzunmüddətli rus minaları partlamağa başladı – Rusiya tərəfindən süni şəkildə yaradılmış ərazi və etnik münaqişələr baş qaldırdı. Rus əsgərinin çəkmələrinin səsi yenə də Qafqazda və Orta Asiyada eşidildi. Özü də nə az, nə çox – "sülhməramlı qüvvə" şəklində. Orta Asiyada artıq dini

zəmində də toqquşmalar ciddi xarakter aldı. Bu həm də İranın siyasi fəallığının pik nöqtəsi idi. ***Baş verənlərin hamısını ABŞ-ın susqunluğuna, Qərbin, o cümlədən Türkiyənin biganəliyinə rəğmən 1993-cü ildə Azərbaycana Rusiya tərəfindən vurulan zərbənin əks-sədası da adlandırmaq olar, Azərbaycana atılan bumeranqın YDD siyasətinə dəyməsi də. ABŞ və Qərbin itirdiyi bu ili Rusiya tapdı.*** SSRİ dağıldıqdan sonra ABŞ və Qərbin iri dövlətləri, həmçinin onların təmsil olunduğu beynəlxalq təsisatlar qarşılarına belə bir məqsəd qoydular: "Rusiyada demokratik təsisatların inkişafı və iqtisadi bərpasına hansı formadasa kömək edək ki, o, Avrasiya imperiyasına çevrilmədən və Avroatlantik sistemdə bu dövlətlərin geostrategiyalarına əngəl törətmədən mövcud olsun".

***Bu tapşırıq tam mənasında yerinə yetirilmiş sayıla bilməz. Çünki Rusiya nəfəsini dərən kimi YDD syasətinin tərkib hissəsi olan Avroatlantik sistemin – Transavrasiya təhlükəsizilk sisteminin yaradılmasına mane oldu. Bilmək lazımdır ki, Rusiyaya yardımlar edə-edə, demokratik institutlar yarada-yarada onun əsrlərlə əlində saxladığı transkontinental imperiyasının tərkibində olan ərazi və mövqelərdən beləcə asanlıqla əl çəkəcəyinə inanmaq sadəlövhlükdən başqa bir şey deyildir.*** Bəs nə etmək, hansı sistemi ortaya qoymaq, YDD prinsipini həyata keçirmək üçün hansı aralıq mərhələdən keçmək, bölgəyə nəzarəti Rusiyadan almaq və yaranan vakuumda nəyi və necə formalaşdırmaq lazımdır? ***Məncə bu vakuumu doldurmaq üçün Türk dövlətlərinin yerləşdiyi ərazi boyunca Transkontinental «Turan» Avrasiya blokunu formalaşdırmaq lazımdır. Bunun mahiyyəti nədən ibarətdir?***

# Transkontinental
# “Turan” Avrasiya Bloku - TAB

Transkontinental «Turan» Avrasiya bloku (TAB) deyərkən coğrafi mənada Türkiyə də daxil olamqla Çinə qədər bütün türk dövlətlərinin yerləşdiyi bir ərazi nəzərdə tutulur. (bax: **Xəritə 1**). Siyasi mənada Avropa billiyi bir xristian klubu olmadığı kimi, TAB da bir müsəlman və ya türk klubu deyildir. Amma Avropa birliyinin əsasında xristian və Qərb dəyərləri dayandığı kimi, bu blokun – TAB-ın da əsasında türk-islam dəyərləri dayanacaqdır. Təklifin mahiyyəti nədən ibarətdir?

Bütün Avropada YDD dəyərlərinin və prinsiplərinin yayılması, yaşaması, dominantlığı üçün Qərbi Avropada məlum dövlətlər platsdarm kimi Avropa təsisatları yaratdılar və onları dövlətüstü qurum səviyyəsinə çatdırdılar. Bu qurumlar isə Avropa dövlətləri arasında mədəni, iqtisadi, siyasi, hərbi inteqrasiyanı inkişaf etdirib, faktiki olaraq Avropa Birləşmiş Ştatları formalaşdırdı. Bir vaxtlar Çörçil: “Avropa Birləşmiş Ştatları yaranacaqdır”-dedikdə utopik görünən bu

fikir artıq günümüzün reallığıdır.




**Шәрти ишарәләр:**

- ТАБ өзәјинин сәрһәдләри.

- Су һөвзәләри.

Хәритә 1

***TAB da qısa zamanda Asiya Birləşmiş Ştatlarına çevrilmək perspektivinə malikdir. ABŞ YDD siyasətini ortaya qoyan, onu müdafiə edən, yayan, dominant ideyaya çevirən birinci platsdarm, Avropa Birliyi, bütövlükdə təsisatları ilə birgə Avropa ikinci platsdarm olduğu kimi, TAB üçüncü platsdarm olacaqdır.*** (bax: Xəritə 2) ***Bu nəinki mümkündür, hətta zəruridir. Bu ölkələrin tək-tək Avropaya reinteqrasiyasına çalışmaqdansa, bölgədə bloklaşmış ölkələrin yeni platsdarm şəklində Avropa ilə bağlanması***




Хәритә 2

***həm əlverişli, həm də asandır.*** Çünki bu ölkələrdə dil birliyinə, din birliyinə malik olmaqla prosesin bir hissəsini keçmiş vəziyyətdə sayıla bilər. Etiraf olunmalıdır ki, bu, mühüm amildir. Əgər bu gün Türkiyə kimi Avropalaşmış, Avropanın geostrateji bir dövləti NATO-nun cənub qalasına – Avropa Birliyinə daxil olmaqda çətinliklə qarşılaşırsa, Qafqaz və Orta Asiya respublikalarının ayrı-ayrılıqda Avropa

təsisatlarına arzuolunan müddətdə və şəkildə inteqrasiyası elə də asan olmayacaqdır. Həm də bu dövlətlər ittifaq şəklində deyil, tək-tək qaldıqca onların YDD oriyentasiyalı fəaliyyətinə əks mövqedə dayanan Rusiya, İran, Çin kimi dövlətlər hər vəchlə mane olacaqdır. 1996-cı ildə Yeltsin, 1999-cu ildə Rusiya prezidenti Putin Çində oldular. Hər iki görüşdə dünyada hegemonluq tendensiyası müzakirə edildi. Bu müzakirələr Rusiya və Çinin ittifaq şəklində YDD lideri ABŞ-a qarşı olduğunu düşünməyə əsas verdi. 1996-cı ilin dekabrında isə Çinin baş naziri Li Pen Rusiyada olarkən tam açıq şəkildə YDD-nin əleyhinə olduqlarını bildirdi. Rusiya və Çin bu görüşdə bəyan etdi ki, onlar bu dövlətin dominantlıq etdiyi beynəlxalq sistemin əleyhinədirlər, əleyhdarlar alyansını dəstəkləyir və gücləndirilməsini istəyirlər. Rusiya rəsmiləri və analitikləri Çinin bu mövqeyini alqışladılar və qlobal münasibətlərin müəyyənləşməsində, ABŞ-ın NATO-nu genişləndirməsi müqabilində doğru addım saydılar. ***Deməli Rusiyanın demokratikləşməsi və tədricən iqtisadi dirçəlişi zəminində onu Avropa təsisatlarına bağlamaq üçün düşünülmüş ABŞ – Avropa planı fiaskoya uğradı. Məlum oldu ki, Azərbaycan nahaq yerə Rusiyaya güzəştə gedilmişdir.*** Əslində isə Azərbaycan elə ciddi bir geosiyasi əhəmiyyətli dövlətdir ki, onun da iştirakı və aktiv fəaliyyəti ilə yaranacaq TAB Yeni Dünya Düzəninə və bu siyasəti aparan ABŞ – Qərb birliyinə qarşı duran Əks Alyansa zərbə olacaqdır.

Rusiya xarici siyasət idarəsi Azərbaycanın və Türk Dövlətləri zolağının əhəmiyyətini anlayır. Yevgeni Primakovun təklifi ilə yeni "antihegemon" koalisiyasının yaradılmasında bu amil nəzərə alınıb. İranı bu koalisiyaya daxil etməklə həm onun böyük islam dövləti olaraq regionda hərbi gücü, həm də əsas etibarilə Azərbaycan və Orta Asiyaya təsir imkanları nəzərdə tutulub. Din faktoruna görə Çin və Rusiyadan fərqli olaraq, İranın bölgəyə təsir imkanları genişdir. ***Ona görə də həm Rusiya, həm də Çin İranın güclənməsi üçünhər şey etməyə hazırdır. İrana atom enerjisi əldə etmək üçün,***

***silahlanmaq üçün hər iki dövlətin ciddi köməyi bununla bağlıdır. Bu Əks Alyansın planları baş tutarsa, ABŞ-ın Avrasiyada təsir imkanları xeyli zəifləyəcəkdir.***

İranın belə qiymətli olması onun bölgəyə təsiri ilə bağlıdır (söhbət əsasən dini təmayüllü təsirdən gedir). Üstəlik Orta Asiya dövlətlərinin YDD siyasətinə tezliklə və ittifaqda qoşulmasının qarşısı alınsa, İran bölgəyə artıq göstərməyə başladığı təsirini artıracaq. ***Azərbaycanın da iştirak etdiyi TAB-ın formalaşdırılması isə həm bölgə dövlətlərinin Əks Alyansa (ƏA) meyllənməsinin qarşısını alar, həm də yarana biləcək bölgə sabitsizliyini profilaktika edər. Azərbaycanın TAB tərkibində fəaliyyəti nəinki bu zolağın ƏA təsirinə keçməsinə mane olan amildir, hətta İranın özünün birbaşa zəifləməsinə və ən yaxşı halda, yaxın xaricdən öz sərhədləri daxilinə çəkilməsinə səbəb olar.***

## Konfederativ İran, yoxsa Bütöv Azərbaycan ?

Bu, Güney Azərbaycan məsələsi kimi gündəmdə olan, əslində isə Azərbaycanın mövcud ədalətsiz status-kvo məsələsidir. 1813 və 1828-ci illərdə Azərbaycan Rusiya – İran arasında parçalandı. İndiki İranın əsas ərazi və əhalisi Azərbaycana aid olduğundan müstəqillik qazanmış Quzey Azərbaycanın İrana təsir imkanları çox böyükdür. Bu məsələnin mühümlüyünü anlayan İran 1991-ci ildə müstəqilliyini qazanmış Quzey Azərbaycan Respublikasına qarşı daim sərt siyasət yeritmiş, Azərbaycana düşmən dövlətlərə dəstək vermiş, Azərbaycanla müharibə aparan Ermənistana hər cür yardım etmişdir. Bu yardım paketinə həm iqtisadi, həm siyasi, həm hərbi, həm də mənəvi yardımlar aiddir. İranın üzdəki din təəssübkeşliyi də Azərbaycana münasibətdə tamamən arxa plana keçirilmişdir. İran Quzey

Azərbaycanda istənilən qeyri-sabitlik amilini və hadisəsini dəstəkləmiş, hətta 1993-cü ildə baş verən çevrilişə öz səfiri vasitəsilə açıq dəstək vermişdir. Neft yataqları, neft kəməri, Xəzər dənizinin statusu məsələlərində daima Azərbaycana təzyiq göstərmişdir. ***İranın prinsipi ümumiyyətlə müstəqil Azərbaycan dövlətinin mövcud olmamasına çalışmaqdır. Ən azından isə bu hədəfi reallaşdıra bilməzsə, Azərbaycanı asılı, gücsüz, zəifləmiş vəziyyətdə saxlamaqdır. Güclü Quzey Azərbaycanın mövcudluğu qlobal siyasətdə İranın öz müttəfiqlərindən ayrı düşməsi deməkdir, Azərbaycanın «Turan» Avrasiya bloku tərkibində olması isə bütövlükdə həm İrana, həm də Əks Alyansa ciddi zərbədir.*** Quzey Azərbaycanın ən azından mövcudluğu belə İranı kifayət qədər narahat edir. İran əsarətində – Güney Azərbaycanda yaşayan 32 milyon Azərbaycan türkü Quzey Azərbaycanın mövcudluğundan qaynaqlanan Bütöv Azərbaycan Dövləti məvhumunu gündəmə gətirə bilər. ***Əslində Azərbaycanın bütövləşməsindən təkcə Əks Alyans, özəlliklə İran deyil, həm də Yeni Dünya Düzəni Alyansı və ABŞ da narahatlıq hissi keçirir.***

***Bəri başdan bildirirəm ki, Yeni Dünya Düzəni Alyansının narahatlığı əsassızdır və ciddi arqumentlərə söykənmir.*** ABŞ-ın və Yeni Dünya Düzəni Alyansındakı iri Qərb dövlətlərinin əsas arqumenti budur ki, İran dağılarsa, yeni yaranacaq dövlətlərin oriyentasiyası necə olacaq, bölgədə etnik münaqişələr olacaqmı, olacaqsa, əhatə dairəsi nə qədər olacaq, müharibələr ortaya çıxmayacaqmı, Türkiyədəki kürd separatizminə təsiri nə qədər olacaq, körfəz dövlətlərində sabitsizlik yaranacaqmı, ABŞ-ın Yaxın Şərq müttəfiqlərinə hansı zərbələr dəyə bilər, dünya karbohidrogen ehtiyatlarının əsas hissəsini toplamış bu bölgədə dünya enerji siyasəti zərbə alacaqmı? və s. Amma siyasət dinamik prosesdir, mövcud durum dəyişməyə məhkumdursa, onu niyə gec partlayan mina kimi saxlamalısan? Hadisələri qənaətbəxş nəticəli sonluğa doğru idarə etməklə indiki, necə deyərlər “tükdən asılı”

sabitliyi daha ciddi idarəolunan, ədalətli status-kvoya söykənən, uzunmüddətli sabitliyə çevirmək olar. Problemi həll etmək əvəzinə, onu görməməzliyə vurmaq isə dəvəquşu yanaşmasıdır. ***Azərbaycanın bütövləşməsi qeyri-sabitlik yox, ciddi sabitlik faktoru olacaqdır. Həm də təkcə Azərbaycan yerləşən bölgədə deyil, bütün Yaxın və Orta Şərqdə.***

Bütöv Azərbaycanın yaranması ilə, ***əvvəla***, bütün dünyada terrorist, pozucu fəaliyyətlərinə görə tanınan İran imperiyası çökəcək.

***İkincisi***, bu imperiyanın əhatə etdiyi bütöv bir ərazidə bəşər təşlükəsizliyinə xidmət edən siyasətə – Yeni Dünya Düzəni Alyansına oriyentasiyalı bir Azərbaycan Dövləti meydana çıxacaqdır.

Qərbi, ABŞ-ı düşündürən suallardan biri yeni yaranacaq dövlətlərin (Azərbaycandan savayı) siyasi gücüdür. Tarix boyu imperiya tərkibindən çıxmış dövlətlər bu imperiyanın dağılmasında maraqlı olan dövlətlərlə xoş münasibətlərdə olub. Ona görə də, İran imperiyası dağıldıqdan sonra ortaya çıxa biləcək dövlətlərin hətta oriyentasiyası belə məlumdur. Bu istiqamət ən azı Əks Alyansa doğru olmayacaqdır. ***İran kimi Rusiya və Çindən silah alan, özü də nüvə reaktorları qurub, nüvə silahı komponentlərinə yiyələnən bir dövlətin törətdiyi potensial təhlükə yeni yaranası dövlətlərin qeyri-müəyyənliyindən doğacaq təhlükədən az deyil.*** İran bir silah bazarı kimi Rusiyanın əlindən çıxarsa, onun hərbi-sənaye kompleksinə, bütövlükdə maliyyə imkanlarına zəiflədici təsir göstərəcəkdir. ***Sabahkı Bütöv Azərbaycan isə NATO və başqa Avropa təşkilatlarına inteqrasiya olunacağından onun hərbi qüdrəti təbii ki, NATO bloku ölkələrinin silahları hesabına yaradılacaqdır. Azərbaycanın hərbi qüdrəti dedikdə də kimsə bundan ehtiyatlanmamalıdır. Bizcə, demokratiya yalnız təhlükəsizliyi təmin olunmuş dövlət və cəmiyyətdə inkişaf edə bilər. Üstəlik, yaradılmasını təklif etdiyim "Turan" Avrasiya Bloku ölkələri də NATO tipli bir***

***qurum yarada bilər ki, onlar da sonradan NATO+"Turan" Avrasiya Bloku Müdafiə Qüvvələri (MQ) şəklində birləşə bilər. Və "Turan" Avrasiya Bloku Müdafiə Qüvvələri silahlarını NATO ölkələrindən alacaqdır. Yəni İranın yerində bir bütöv Azərbaycanın olması Yeni Dünya Düzəni Alyansının Əks Alyansın əlindən həm bir ciddi geosiyasi dövləti, həm də bir silah bazarını alması, özününküləşdirməsi deməkdir.***

***Azərbaycanın əhəmiyyəti təkcə Qafqazda və "Turan" Avrasiya Bloku tərkibində Orta Asiyada qiymətli deyil, həm də Yaxın Şərq və Kəngər (Bəsrə, Fars) körfəzi regionunda mühümdür.*** Bu regionlar isə özlüyündə ABŞ üçün də, Yeni Dünya Düzəni siyasətinin həyata keçməsi üçün də gərəklidir. Yaxın Şərqdəki ABŞ müttəfiqləri təbii ki, yeni siyasəti reallaşdıracaq subyektlərdir. Bu subyektlərin təhlükəsizliyi isə zərurətdir. ABŞ-ın bölgədə ən yaxın müttəfiqlərindən olan İsrail daima İran təhlükəsindən ehtiyat edib. ***İran artıq uzaq məsafəli raketlərə malik olduğundan Buşəhrdə nüvə reaktorları qurduğundan İsrail üçün də, digər ABŞ müttəfiqləri üçün də ciddi təhlükəyə çevrilib. ABŞ xeyli maliyyə vəsaiti xərcləyərək həm bu təhlükənin zərərini minimuma endirmək üçün Kəngər körfəzində hərbi qüvvələr saxlayır, həm də İsrailin havadan müdafiə sistemini yenidən qurmaq üçün külli miqdarda vəsait xərcləyir. Azərbaycanın bütövləşməsi bütün bu təhlükəli məqamları da, təhlükəsizlik tədbirləri görmək üçün maliyyə ayırmalarını da aradan qaldırar. Bu, ABŞ üçün də, onun Yaxın Şərq müttəfiqləri üçün də çox ciddi büdcə qənaəti olmaqla yanaşı, Yaxın Şərqdə Yeni Dünya Düzəni siyasətini irəli aparmaq üçün, yeni platsdarm yaratmaq üçün zəmin hazırlanması prosesi kimi də qiymətləndirilə bilər.***

Yeni Dünya siyasəti təkcə siyasi konsolidasiya olmayıb, təbii ki, bazar münasibətlərində, ticarətdə, iqtisadiyyatda

modifikasiyalarla müşahidə olunur və bu hal davam edəcəkdir. ***Bütöv Azərbaycanın formalaşması yeni bazarın meydana çıxması olacaqdır. Aqrar-sənaye ölkəsi olan Azərbaycan Qərb texnologiyasına ehtiyaclıdır. Burada Qərb texnologiyasının satılması həm Yeni Dünya Düzəni Alyansı ölkələrinin bazar əldə edib qazanması, həm də texnoloji birliyin yaradılması – iqtisadi inteqrasiya üçün ciddi addımın atılması demək olacaqdır.*** 50 milyonluq Azərbaycan türkü, əsasən, türk-islam ənənələrinə söykəndiyindən həm bütünləşmiş Azərbaycan şəklində, həm də Quzey Azərbaycan Respublikası kimi mövcud olduğu vəziyyətdə Türk dövlətləri zolağında əhəmiyyətini artırır. ***İslam dini faktoruna görə İranı irəli çıxaran Rusiya və Çin Orta Asiyada nəzarəti öz əllərinə keçirmək istəyirlər. Əslində Rusiya da, Çin də islam dinindən çirkin məqsədləri üçün istıfadə edir, bu zolaqda yerləşən müsəlman-türk sivilizasiyanı sonu görünməyən münaqişə və məhdudiyyətlərlə üz-üzə qoymaq istəyirlər.*** Bunun üçün "münbit" zəmin on illərdir Rusiya həm Orta Asiyada, həm də Qafqazlarda yaradıb. Bu zəmin Rusiyanın müxtəlif imperiya adı altında bölgələrə ayağı dəyəndən, regionu işğal altına alandan yaradılıb. Süni sərhədlərin müəyyənləşdirilməsi, zorla ərazi mübadilələri, kütləvi sürgünlər, indi etnik və ərazi münaqişələrinin əsasına çevrilmişdir. 1990-cı illərdə Türkmənistanda, Qırğızıstanda, Özbəkistanda, Qazaxıstanda, Tacikstanda baş verən hadisələr də, 2000-ci ildə İslam ordusu adı ilə Orta Asiya respublikalarında destabilizasiya yaradılması da onu göstərir ki, bölgədə sabitlik kövrəkdir və daima pozulma təhlükəsi var.

Qazaxıstanın problemi bir az fərqlidir. On səkkiz milyonluq Qazaxıstan əhalisinin 35%-ni ruslar təşkil edir. Qazaxıstanın şimal ərazilərində, əsasən, rus kolonistləri dominantlıq edir, hətta zaman-zaman bu əraziləri Qazaxıstandan ayırmaq şüarlarını da səsləndirirlər.

Özbəkistanda da 25 milyonlyq əhalinin 75% türk

olmasına baxmayaraq, problemlərdən xali deyildir. Şərqin mədəni və tarixi mərkəzlərindən olan Səmərqənd və Buxara Moskva tərəfindən taciklərlə məskynlaşdırılmışdır. Özbəklərin isə Qərbi Tacikistanda məskynlaşması vəziyyəti daha da mürəkkəbləşdirir. Bundan əlavə, özbək və taciklərin Qırğızıstanın Fərqanə vadisində yerləşməsi və artıq burada toqquşmaların olması ona dəlalət edir ki, bu regionda din və dil baxımından eyni sivilizasiyanı təmsil edən ölkələr bir-biri ilə müxtəlif süni probdemlər səbəbinə ziddiyyətli münasibətlərdədirlər. Göründüyü kimi, zəncirvari problemlər düyünü bu ölkələrdən birinin digərini inkişaf etmiş dominant bölgə ölkəsi kimi görməsinə mane olur. ***Bu ölkələr, əsasən, Özbəkistan bütün çətinliklərə rəğmən, milli, dini baxımlardan Avropa sivilizasiyasından fərqli olmalarına baxmayaraq, siyasi baxımdan Avropaya inteqrasiyada maraqlıdır. Bu istəyin qarşısının ƏA tərəfindən alınmaması üçün Orta Asiya ölkələrinin təklənməməsi lazımdır. Əks halda sadalanan etnik və ərazi iddialarının tüğyan etdiyi Orta Asiya respublikalarının tək-tək yeni sistemə — YDD-nə xidməti və tutaq ki, hansısa mərhələdə Avropa təsisatlarına inteqrasiyası problemlidir. Amma birinci mərhələdə regional bloklaşma, ikinci mərhələdə blok şəklində inteqrasiya ağrısz olar.*** Çünki birinci mərhələdə müttəfiqləşmiş ölkələr mövcud problemləri ya çözər, ya keçmişin arxivinə verər, yaxyd arxa plana keçirər, ikinci mərhələdə problemsiz platsdarm şəklində Qərb blokuna söykənər. ***Bu variantın birinci mərhələsinin həyata keçirilməsində Azərbaycan mühümm əhəmiyyət kəsb edir. Belə ki, Türkiyə Azərbaycan vasitəsi ilə bu geosiyasi əhəmiyyətli ölkələrə dəstək verə bilər və verməlidir. Bu dəstək Türkiyənin şəxsində Avropa təsisatları, NATO və ABŞ-ın dəstəyi olmalıdır.*** Zahirən belə görünə bilər ki, bu qədər ziddiyyətli bir bölgədə Azərbaycan və Türkiyə Türk Dövlətlərinin konsolidasiyasına necə nail ola bilər? ***Düstur belə olacaq: Türkiyə, Azərbaycan + ABŞ + Orta Asiya***

***ölkələri***. Eyni çətinlik bir vaxt Avropada da yaşanıb və ABŞ-ın hakimliyi və barışdırıcılığı ilə Avropanın nəhəng dövlətləri belə ciddi ziddiyyət və düşmənçiliyi kənara ataraq möhkəm Avropa Evi qurublar.

## Azərbaycan və digər TAB ölkələri himayə olunmalıdır

Avropa həmişə əlalxüsus ikinci dünya müharibəsindən

sonra ciddi ziddiyyətlər üzərində qurulan münasibətlər sisteminə malik olmuşdur. Əsas ziddiyyətlər nəhəng dövlətlər olan Fransa və Almaniya arasındadır. Almaniyanın ikinci dünya müharibəsindən sonra vəziyyəti ilə yanaşı, imici də çox pis idi. Almaniyaya olan inamsızlıq, Almaniya ilə Avropa dövlətləri arasındakı münasibət Avropada əməkdaşlığa mane olan çox ciddi amil idi. Müharibədən sonra Almaniyanın bir gedişi yeni tarixi bir kontekstin əsası oldu. Almaniya bəyan və etiraf etdi ki, Avropanın qərbində Avropa əməkdaşlığının əsasini qoymaq, Avropa ittifaqına nail olmaq üçün Fransa ilə Almaniyanın barışması zəruridir. Bu, Almaniya tərəfindən həm də Fransanın Avropada liderilyini qəbul etmək idi. Fransa bu yanaşmanı birmənalı şəkildə alqışladı. Həm də ona görə ki, Sovet təhlükəsi real və çox yaxın idi. ABŞ-a sədaqətli qərbi Almaniyanın mövqeyi Fransa üçün də, ümumiyyətlə, qərb dövlətləri üçün də çox əhəmiyyətli idi. Əlbəttə, bu mövqeyi Almaniya ABŞ-ın təsiri ilə ortaya qoydu. Çox ciddi amil olan Fransa – Almaniya əməkdaşlığı dəyişikliklərin başlanğıcı oldu. Almaniya ABŞ-ın istəyinə zidd gedə bilməzdi. Almaniya xarici təzyiqlərdən ancaq ABŞ-ın vasitəsi ilə qorunurdu. Və bu himayə altında da Birləşmiş Almaniyaya qədər irəliləmə oldu. ABŞ-ın dəstəyi və zəmanəti ilə mərkəzi Avropada qonşulara təhlükə törətməyən, lider dövlətlərdən birinə çevrilən Almaniya pozucu imicini qurucu imici ilə əvizlədi. İndi Almaniya mərkəzi Avropaya imperializm dövründəki “Mittel-Avropa” kimi deyil, dostluq münasibətlərində olan inkişaf etmiş ölkələrin birliyi kimi yanaşırdı və özünə rəğbət yaradırdı. Almaniya inkişaf etdikcə Avropa təsisatlarına, beynəlxalq təşkilatlara da əhəmiyyətli maliyyə yardımı edirdi. Almaniya Avropa İttifaqı büdcəsinin 28,9%-ni, NATO büdcəsinin 22,8%-ni, BMT büdcəsinin 8,93%-ni ödəyirdi. Bundan başqa, Avropanın inkişaf etməkdə olan dövlətlörinə də xeyli investisiyalar qoydu, ticarət əlaqələrini genişləndirdi. 90-cı illərdə artıq Almaniya - Polşa ticarət dövriyyəsi fantastik rəqəmlərlə ifadə olundu. Polşa ticarət tərəfdaşı kimi birinci

yerin SSRİ-dən Almaniyaya keçməsinə nail oldu. Təsəvvür edin ki, Almaniya — Polşa münasibətləri Avropada ən ziddiyyətli münasibətlərdən olub. Amma ABŞ Almaniya - Polşa münasibətlərinin yaxşılaşması zərurətini dərk edərək barışdırıcılıq missiyasını həyata keçirdi. Özü də çox uğurla. ABŞ-ın təsir və təkidi ilə bu ölkələr arasındakı sərhəd məsələsi həll edildi. Birləşmiş Almaniya Oder - Neys boyu sərhədi tanımaqla bütün şübhə və ziddiyətlərə son qoydu. ABŞ-ın bu nailiyyəti Avropa platsdarmasının genişlənməsinə ciddi təməl idi. Sərqi Avropaya, keçmiş SSRİ respublikalarına yol məhz Polşadan gedirdi. Baltik respublikalarına, Ukraina və Belorusiyaya təsir imkanları oradı. Avropadakı platsdarm artıq xeyli möhkəmləndi. Artıq Fransa – Almaniya – Polşa məsləhətləşmələrini ehtiva edən “Veymar üçbucağı” yaranmışdı. 180 milyon əhalini əhatə edən Fransa – Almaniya – Polşa “geosiyasi oxu” şərqə doğru çevrildi. ***ABŞ eyni missiyanı artıq Asiyada yerinə yetirməyə məhkumdur. Bu onun Yeni Dünya Düzənindəki missiyasından irəli gəlir. Orta Asiyaya keçid üçün mini-platsdarm kimi Azərbaycan çox əhəmiyyətli geosiyasi məkandır. ABŞ Azərbaycanın imkanlarını gərəyincə qiymətləndirərsə, ən azı Almaniyaya etdiyi qədər ona kömək etməlidir. Əlbəttə, Azərbaycan da bu kontekstdə öz geopolitik prioritetlərini müəyyənləşdirməlidir.*** Almaniya Avropada ən zəif vaxtlarında belə YDD siyasətində АВШ-ın sədaqətli müttəfiqi olmaqla yanaşı, özünün milli maraqlarını da arxa plana keçirmirdi. Hətta 1949-cu ildə kansler Adenaurun təklifi ilə Almaniya konstitysiyasına belə bir bənd salındı: "Almaniyanın Şərq hissəsi olan ADR müvəqqəti olaraq əsas hissədən ayrı düşmüşdür". Yəni bir milli hədəf göstərildi. Bölünmə adlı tarixi ədatətsizliyi nə vaxtsa aradan qaldırmaq zəryrəti gələcək alman nəsillərinə hədəf verildi. Və 50 il sonra bu möhtəşəm qələbə əldə olundu, Almaniya birləşdi.

Azərbaycan da YDD siyasətinin fəal iştirakçısı olmaqla yanaşı, milli maraqların ödənməsini təmin etməlidir. Biz

Azərbaycanın bütövləşməsinin dünya siyasətində əhəmiyyətinə əvvəldə toxunmuşuq. İndi mövcud Quzey Azərbaycanın YDD-də rolu və ABŞ-ın köməyinə toxynmaq istəyirik. ***İlk növbədə, Azərbaycan xarici müdaxilələrdən qorunmalıdır. Bunun üçün Azərbaycanda ABŞ-ın hərbi mövcudluğuna belə ehtiyac yoxdur. Hərbi sahədə əməkdaşlıq haqda müqavilələr, NATO-da təmsilçilik kimi qoruyucu tədbirlərlə yanaşı, ən əsası Azərbaycanın da iştirak etdiyi "Turan" Avrasiya Blokunda NATO tipli bir hərbi quruluşun yaradılması həm Azərbaycanın, həm də digər "Turan" Avrasiya Bloku ölkələrinin ciddi təhlükəsizlik tədbiri olar. Əlbəttə, bu qurum sonra NATO + "Turan" Avrasiya Bloku müdafiə qüvvələri şəklində Avrasiya təhlükəsizlik sistemi qarantına çevrilə bilər.*** Azərbaycan ciddi şəkildə müdafiə olunmazsa, Rusiya buradakı strateji məqsədləri üçün imkanlar qazanar. Həmin məqsədlər regionda maksimal siyasi və iqtisadi təsir imkanlarını hər hansı ad altında bərpa etməkdən ibarətdir. Bunun üçün Moskvaya birinci növbədə Azərbaycan və Qazaxıstanı geosiyasi subyekt kimi ram etmək lazımdır. Çünki Rusiyanın siyasi əks hücumunun uğuru NATO və Yeni Dünya Düzəninin irəliləməsinin qarşısını almaq üçün coğrafi baryer yaratmaqdadır. ***Orta Asiyaya gedən yolda Azərbaycan adlı əngəl yaratmağa nail olan Rusiya ikinci mərhələni asanlıqla uda bilər.*** Azərbaycan Rusiya üçün ona görə prioritet təşkil edir ki, Azərbaycanın təsir altına salınması Qərblə Orta Asiyanın əlaqəsinin kəsilməsi, daha dəqiqi Orta Asiyanın Qərbdən qoparılmasıdır. Ən əsası isə Azərbaycanı Türk Dövlətləri arasında lider olan Türkiyədən ayırmaq, dolayısı ilə Türk Dövlətlərini təkləmək, konsolidasiyasına mane olmaqdır. Bunlar baş tutarsa, sonradan Rusiyanın Tyrkmənistan, Özbəkistan, Qırğızıstan kimi respublikaları təsiri altına salması asan olar. (bax:**Xəritə 3**). İlk növbədə, Azərbaycanı ram etməyi hədəf alan Rusiya İranın köməyindən də, Türkmənistanın köməyindən də istifadə etməyə çalışır və

müəyyən məqamlarda buna nail olur. İran Xəzər dənizinin statusu, onun dibinin bölünməsi, Türkmənistan neft yataqlarına münasibət məsələlərində münaqişəyə meyl etməklə Rusiyanın təzyiqlərini qüvvətləndirir. Qazaxıstanda Rusiyanın işi o qədər də çətin deyildir. Bu ölkənin Şimal ərazilərinin ruslarla məskunlaşması Rusiyanın kozırlarındandır.




Хәритә 3

***Amma Azərbaycanın möhkəmlənməsi təmin olunarsa və***

***YDD prinsiplərinin Orta Asiyaya ötürülməsi əngəllənməzsə, Avrasiya təhlükəsizlik oxunun şərq ucu Qazaxıstanda da özünü inamlı apara bilər.*** Belə ki, TAB-ın yaranması ilə Qazaxıstanın təklənməsinə son qouular, həm də türk zolağının inkişafı Çinin qərbindəki çoxmilyonlu Uyğur türklərinin proseslərə fəal müdaxiləsinə səbəb ola bilər. ***Göründüyü kimi, Azərbaycanla bağlı siyasətin səhv qurulması uzaq strateji məqsədlərə belə mənfi təsir edər. Həm də təkcə siyasi deyil, iqtisadi mənada da. Quzey Azərbaycan ərazi və əhalicə böyük olmasa da, nəhəng enerji ehtiyatları ilə ciddi əhəmiyyətə malikdir. Bu "açar" həm Xəzər dənizi hövzəsinin, həm də Orta Asiya enerji ehtiyatları anbarının yeganə açarıdır. Əgər Azərbaycan birmənalı şəkildə Rusiyanın təsiri altına düşsə, onda həm bu bölgənin, həm də Orta Asiyanın maddi və enerji ehtiyatlarından birdəfəlik əli yzmək və ƏA-ın ixtiyarına keçməsi ilə razılaşmaq məcburiyyəti yaranacaq. Üstəlik, Orta Asiya respublikalarının mövcudluğu, müstəqilliyi də sual altına düşəcəkdir. Azrbaycanın Rusiyanın təsirinə dyşməsi təbii ki, əhəmiyyətli neft ehtiyatlarının da Rusiyanın əlinə keçməsi deməkdir. Neft siyasətində Qərb bazarı ilə bağlı Azərbaycanın oyundan çıxarıdlması avtomatik olaraq zəngin enerji ehtiyatlarına malik Orta Asiyanın da Qərb bazarları tərəfindən itirilməsi olacaqdır. Bir sözlə, Ykrayna Rusiyanın qərbində nədirsə, Azərbaycan Rusiyanın cənubunda odur. Ona görə Azərbaycana ABŞ-ın və iri Qərb dövlətlərinin münasibəti Avropa evi quruculuğunda Almaniyaya olan münasibət kimi həssas, qayğıkeş, davamlı olmalıdır. Unudulmasın ki, Fransa – Almaniya – Polşa – Ykrayna zolağından sonra davam edəsi Türkiyə – Azərbaycan – Orta Asiya zolağının taleyi Azərbaycanda həll olunacaq.*** (bax: **xəritə 4**) Azərbaycanın güclənməsindən ehtiyat edilməməlidir. Azərbaycan birinci dərəcəli dövlət deyildir və dominantlıq iddiası da yoxdur. Sadəcə, ***Azərbaycan başa düşür ki, onun varlığı və***

***toxunulmazlığı, təhlükəsizliyi YDD siyasətindən çox asılıdır və ona görə də, bu prinsiplərin Şərqə yayılmasında, bütün dünyada bərqərar olmasında maraqlıdır və öz imkanlarını bəşəriyyətin xeyrinə istifadəyə verir.*** Ola bilər ki, Azərbaycanın zəif durumu səbəbinə ABŞ və Qərb dövlətləri YDD prinsiplərinin Türkiyə vasitəsilə Şərqdə yayılmasına, həyata vəsiqə almasına üstünlük versin.




**Шәрти ишарәләр:**

- ФАПУ + ТАБ золағы

Франса - Алманија - Полша - Украјна - Түркијә- Азәрбајҹан - Түркмәнистан - Таҹикистан - Гырғызыстан - Газахыстан - Өзбәкистан өлкәләриндән ибарәт тәһлүкәсизлик золағы.

Хәритә 4

Türkiyə onsuz da Bu layihənin həyata keçməsində əsas sübyektdir. Lakin etiraf edək ki, coğrafi mənada uzaq olan Orta Asiyaya onun təsir imkanları Azərbaycan qədər deyildir. Bundan başqa, təkbaşına hər hansı dövlət, eləcə də Türkiyə bu mürəkkəb regionda kifayət qədər güclü olan Əks Alyansla rəqabət apara bilməyəcəkdir. Həm də Türkiyənin Orta Asiyada hərbi mövcydauğu yoxdyr. Türkiyə daha çox Qara dəniz və buradan Aralıq dənizinə çıxmaqla regional nəzarət, Rusiya ilə Qafqazlarda balans üçün əhəmiyyətlidir. ***Coğrafi mənada uzaqda olan Orta Asiyaya Türkiyənin effektli təsiri Azərbaycanın da iştirak etdiyi blok halında ola bilər.*** Bu blok özünün müdafiəsi və inkişafı, konsolidasiyası üçün Avropa Evi təcrübəsindən, NATO təcrübəsindən istifadə edə bilər.

Azərbaycanın Qərbdən, ABŞ-dan istədikləridə çox deyildir. Sadəcə olaraq, Azərbaycanı protektorata çevirməyən bir ABŞ “çətirinin" yenicə müstəqillik qazanmış ölkənin özünə gəlməsinə, iqtisadi dirçəlməsinə kömək etməsini arzulayır. Təhlükəsizliyi təmin edilmiş olarsa, Azərbaycan bir neçə istiqamətdə siyasətini qura bilər - iqtisadi dirçəliş, beynəlxalq konfliktlərə qoşulmadan yüngül silahlanma (təhlükəsizliyi təmin olunmayan ölkənin, cəmiyyətin demokratikləşməsi mümkün deyil), hərbi müdafiəni Qərb təsisatları və ABŞ-dan almaq, Azərbaycan diplomatiyasının öz fəaliyyətini YDD siyasətinə uyğunlaşdırması. ***Bu ara mərhələdə Azərbaycanın əlindən tutulsa, Azərbaycan öz ayaqları üstə duracaq və TAB-da birləşdirici rol oynayacaqdır. Və ABŞ bir vaxt Avropada ziddiyyətləri həll etdiyi kimi, Qafqaz və Orta Asiyada da mövcud ziddiyyətləri Azərbaycan vasitəsilə həll edəcəkdir.*** Əslində Orta Asiya resnyblikaları aralarindakı bir çox anlaşılmazlıqlara baxmayaraq, konsolidasiyaya meyllidirlər. Orta Asiya respublikalarında Moskva tərəfindən yayılan süni ziddiyyətlərə və avtoritarizmdən doğan ambisioz ziddiyyətlərə baxmayaraq, bu ölkələr mövcudluqlarının birgə fəaliyyətlə bağlı olduğunu anlayırlar. 90-cı illərin əvvəlində

Qazaxıstan, Özbəkistan, Türkmənistan müstəqilliklərini qorumaq naminə birgə fəaliyyətin zəruriliyini qeyd etdilər və bildirdilər ki, inididən sonra xarici siyasət kurslarını koordinasiya olunmuş şəkildə quracaqlar. Hətta bir az da irəli gedərək Özbəkistan Ukrayna ilə, Türkmənistan Gürcüstan ilə hərbi əməkdaşlıq haqda saziş imzaladılar. 1996-cı ildə isə Qazaxıstan prezidenti Nazarbayev və Gürcüstan prezidenti Şevarnadze birlikdə bəyan etdilər ki, müstəqilliklərinə xələl gəlsə, bu ölkələr MDB-ni tərk edəcəklər. Yəni Orta Asiya respublikalarının Rusiyaya münasibəti formalaşıbdır. Və əslində Rusofobiya onları bir çox məqamlarda bir araya gətirir. Türk Dövlətləri Türkiyədə bu ölkələr üçün hərbi zabitlər hazırlanması təklifini də məmnuniyyət hissi ilə qarşıladılar. İndi on minlərlə tələbə Türkiyədə təhsil atır. Türk Dövlətlərinin zirvə toilantısında bu dövlətlər arasında nəqliyyat əlaqələri, ticarət, ümumi təhsil sistemi, ümumiyyətlə vahid mədəniyyətin daha da püxtələşməsi haqda razılıqlar əldə olunub.

Türk Dövlətlərinin Mədəniyyət Nazirləri Daimi Şurası Beynəlxalq Türksoy mükafatını təsis etmişdir. Bu mükafat Türk Dünyasının mədəniyyət və incəsənətinin xüsusi xidmətləri olan, incəsənətin müxtəlif janırlarında beynəlxalq, regional və milli səviyyədə yüksək orjinal sənət əsərləri yaradan, elmi nəzəri tədqiqatlar aparan ayrı-ayrı şəxslərə, müəllif quruplarına və təşkilatlara verilir. Bu, konsolidasiyanın bariz nümunəsidir.

Bundan əlavə, regional iqqisadi layihələrin həyata keçirilməsi də bu regionun ölkələrinin yaxınlaşmasını şərtləndirir. Burada da Azərbaycanın əhəmiyyəti önə çıxır. Azərbaycanda külli miqdarda enerji ehtiyatının olması Avropanı artıq bu ölkə ilə mühüm iqtisadi layihələr həyata keçirməyə istiqamətləndirib. ABŞ-ın da fəal iştirak etdiyi bu layihələrin ciddi sabitlik amili və təhlükəsizlik şərti olması aydındır. ***Orta Asiya respyblikalarının bu layihələrdə iştirakı təmin edilməklə münasibətləri xeyli istilətdirmək,***

***süni problemləri aradan qaldırmaq olar. Həmin layihələrin həyata keçirilməsində və ümumiyyətlə, çeşidli istiqamətlər üzrə fəaliyyət zəif olduqca ƏA təşəbbüsü götürə bilər və artıq bir neçə belə hadisə baş verib.*** Məsələn, Türkmənistan mavi yanacaq xəttinin İrandan keçməsi, birlikdə nəhəng dəmir yolu çəkilişi buna misal ola bilər. ***Orta Asiya və ümumiyyətlə, "Turan" Avrasiya Bloku ABŞ-ın və Qərbin ögey münasibətini görsə, proseslər Əks Alyansın xeyrinə cərəyan edə bilər. çünki bura olduqca həssas regiondur. Qərb və ABŞ əgər bu regionda köməkliklərini ortaya qoymasalar və ya geciksələr, bu ölkələrdə Yeni Dünya Düzəninə, demokratik dəyərlərə, bu prinsipi müdafiə edən, yayan dövlətlərə inamsızlıq baş verər. Və ortaya atılan ideyaların dekorativ pərdə olduğu qənaətinə gəlinər. İkincisi,*** bu dövlətlərin müstəqilliklərinin saxlanması hərbi, siyasi, iqtisadi qüdrətlərinə və birliklərinə xeyli bağlı olduğundan onlar bu sahələr üzrə ciddi himayə görməlidirlər. ***Üçüncüsü,*** bu dövlətlərin heç biri ayrılıqda və hətta birlikdə ABŞ-ın qərarlı, enerjili, çevik müdafiəsi olmadan Avrasiya təhlükəsizlik sistemini arzuolunan səviyyədə yarada bilməyəcəkdir. Ona görə də, ABŞ müəyyənləşdirməlidir ki, hansı fiqurlar geosiyasi məkan olan Avropada açar rolunu oynayır və hansı missiya kimə tapşırılmalıdır ki, regionda uzunmüddətli stabillik yaransın, region üçüncü Yeni Dünya Düzəni platsdarmına çevrlisin. ***Göründüyü kimi, Azərbaycana və digər "Turan" Avrasiya Bloku ölkələrinə ABŞ və Qərbin iqtisadi, siyasi kömək göstərməsi keçici xarakter daşımamalı, Avrasiya strategiyasının komponenti olmalıdır.***

***Əlbəttə, Cənubi Qafqaz və Orta Asiya siyasətində Türkiyə amilinə də ciddi diqqət yetirilməlidir. Türkiyəyə ögey münasibət bildirmək olmaz.*** Avropa Birliyinə qəbulla bağlı Türkiyəni yersiz incitmə, 2000-ci il ABŞ Konqresində 1915-23-cü illərdə “erməni soyqırımı” adlı cəfəng qanunvericilik təşəbbüsü onsuz da bu ölkənin haqlı

narazılığına və incikliyinə səbəb olub. Türkiyənin silahlı qüvvələrinin baş qərargah rəisi Kıvrıkoğlu ABŞ-a planlaşdırılmış səfərini təxirə saldı. Türkiyə ABŞ-a bildirdi ki, İncirlik hərbi bazasını ABŞ təyyarələrinin üzünə bağlaya bilər. Bunun ardınca, İraqa qarşı tətbiq olunan embarqolardan biri — Türkiyə üzərindən İraq təyyarələrinin uçması və ümumiyyətlə, hava dəhlizinin açılması məsələsi də gündəmə gəldi. ***Yəni ABŞ həyati əhəmiyyət kəsb edən müttəfiqləri ilə, o cümlədən Türkiyə ilə münasibətlərində ciddi və məsuliyyətli olmalıdır. Əks Alyansın aparıcı dövlətlərindən birinin – Rusiyanın forpostu sayılan Ermənistanın cəfəng iddiasına görə Türkiyə kimi müttəfiqi incik salmaq, onun mənafelərini qurban vermək ağıllı siyasət sayıla bilməz. Bu cür yanlışlar Azərbaycanın da, Türkiyənin də, digər müsəlman Orta Asiya dövlətlərinin də daxilində sabitsizliyə səbəb ola bilər. Çağdaş dünya tələblərinə uyğun aparılan siyasət və Qərb dövlətləri, ABŞ, onların yaydıqları prinsiplər şübhə hədəfləri ola bilərlər.*** Bütün bu dövlətlərin, o cümlədən Türkiyənin daxilində Qərb oriyentasiyalı siyasətə qarşı olan qüvvələr mövcuddur və təbii ki, onlar Əks Alyans dövlətləri tərəfindən dəstəklənir. Və istənilən oxşar situasiya – ABŞ-ın son davranışına oxşar situasiya ciddi neqativ sonluqlarla nəticələnə bilər. ***Türkiyədə ciddi təşkilatlanmış İran meylli qüvvələr belə durumlarda fəallaşa və sosial dəstək də qazana bilərlər. Zəifləməyə səbəb olan daxili qeyri-sabitlik bütünlükdə bölgə sabitsizliyinə, o cümlədən ən azı Avropa evinin cənub-şərq qapısının itirməsinə səbəb ola bilər. Bu cür qeyri-sabit və zəifləmiş Türkiyənin mövcudluğunda bütün Əks Alyans ölkələri sözsüz ki, maraqlıdır. Və belə bir prosesin getməsi üçün hər zaman fəaliyyət göstəriblər. Kürd separatizminin ideoloq və ilhamvericisi Rusiya ilk imkan düşən kimi bu kartı yenidən güclü şəkildə işlədə bilər. Bakı-Ceyhən neft kəməri ilə bağlı Rusiyanın xarici siyasət idarəsinin rəsmisi bildirmişdir ki, Bakı-Ceyhan əsas neft kəməri Rusiya***

***ərazisindən keçməlidir. Yəni uzaq hədəflərə çatmaq üçün Rusiya PKK amilindən hər zaman istifadə edib və etməkdə israrlıdır. Hamı üçün anlaşılandır ki, Türkiyənin Yeni Dünya Düzəni prinsipindən nəinki kənarldaşması, hətta fəaliyyətini zəiflətməsi belə hansı neqativ nəticələrə səbəb ola bilər.*** Həm də qeyd etdiyimiz kimi, pozucu ƏA dövləti olan Rusiyanın forpostu Ermənistanın ədalətsizliyə söykənən maraqları naminə. Çünki Ermənistanın "1919-23-cü illər erməni soyqırımı" iddiasının arxasında ərazi iddiası və təzminat davası durur. Faktiki olaraq 1921-ci ildən sonra Türkiyə və Ermənistan ərazilərində müharibə getməmişdir. Ermənistan 1923-cü il rəqəmini qanun layihəsinə salmaqla, həmin ildə qurulmuş Atatürk Cumhuriyyətini məsuliyyət altına qoymaq istəyir. Çünki 1923-cü ildən əvvəlki Osmanlı Dövləti üçün 1923-cü ildə qurulan Türkiyə Respyblikası məsyliyyət daşımayacaqdır. Ermənistan özünün müstəqil siyasətinə malik olmadığından, bölgədəki pozucu fəaliyyətinin birbaşa Rusiya tərəfindən idarə olunduğunu demək mümkündür. Çünki Ermənistanın dövlət siyasəti əslində Rusiyanın ara siyasətindən başqa bir şey deyildir. ***Baxın, Rusiya xarici siyasət idarəsi Bakı-Ceyhan xəttinin "təhlükəli" Türkiyə ərazilərindən keçmsinə etiraz etdiyi vaxt Ermənistan silahlı qüvvələri neft kəmərinin bu istiqamətdə keçəcəyi Azərbaycanın qərb ərazilərini sürəkli atəşə tutur.*** Bununla ortaya arqument qoymaq istəyirlər ki, Bakı-Ceyhan əsas neft kəmərinin ƏNK-nin keçəcəyi bölgələr qeyri-sabit, münaqişəli bölgələrdir. Bu pozuculuğun arxasında uzaq hədəflər dayanır. Çünki neft kəməri təkcə iqtisadi məsələ olmayıb, daha çox siyasi məsələdir. Bu kəmərin istiqaməti Azərbaycanın gəlcək siyasi istiqamətinə ciddi təsir edəcək faktordur. Qədim "İpək yolunun" modern bərpasında avtomobil, hava, dəmir yolları, mavi yanacaq, neft kəmərləri "İpək yolu" boyu nəzərdə tutulan konsolidasiyanın əsaslarındandır. Bunu Rusiya yaxşı anlayır və hər vəchlə bu layihəyə mane olmağa cəhd edir. ***Əslində Bakı-Novorossiysk***

***neft kəməri Xəzər hövzəsində istehsal olunan və olunacaq karbohidrogen ehtiyatlarını daşımaq gücündə deyildir. Qeyri-sabit bölgə arqumentinə gəldikdə isə Rusiyanın cənubu cəhənnəmi xatırladır. Çeçenistanda gedən müharibə, Dağıstandakı qeyri-müəyyənlik, Rusiya tərkibinə zorla daxil edilmiş federasiya suböyektlərindəki durum Rusiyanın sabitliyinin hansı səviyyədə olduğunu ortaya qoyur. Əslində Rusiyanın özünün taleyi ciddi sual altındadır.*** ABŞ rəsmilərindən birisi gələcək Rusiyanı üç subyektdən ibarət konfederasiya kimi gördüyünü və bu quruluşdakı Rusiya ilə əməkdaşlığın tərəfdarı olduğunu bildirmişdi. Həmin Rusiya Sibir Respublikası, Uzaq Şərq Respublikası, Rusiyanın Avropa hissəsinin Konfederativ birliyini nəzərdə tutur. Bu fikir şəxsin subyektiv fikrinə oxşamır. Məsələ Rusiyaya da aydındır. ***Rusiya öz daxili vəziyyətini anlayır və deməli, problemlərin həllini qlobal rəqabətdəki qələbəsində axtarır. Ona görə də, Türkiyə, Azərbaycan, Orta Asiya Respublikaları blokunun Rusiyanın cənub-şərq istiqamətindəki paz təsirini profilaktika etmək istəyir. Və regionun açarını – Azərbaycanı ələ keçirmək, öz təsir dairəsində saxlamaq istəyir.*** Bunun üçün o, siyasi mərhələdən birini - Milli hökuməti devirmək planını 1993-cü ildə həyata keçirib. Nəticədə, Rusiyanın iştirakı olan stukturlarda Azərbaycanın "könüllü" iştirakını təmin edib.

İkincisi Rusiyanın mədəni təsir imkanlarıdır ki, bunu da sistemli şəkildə həyata keçirir. 1995-ci ildə Rusiya priezidenti Yeltsin Rusiyanın MDB-yə münasibətdə siyasətinə aid rəsmi sənəd təqdim etdi. ***Sənəddə deyilirdi: "MDB-yə münasibətdə Rusiya siysətinin başlıca vəzifələri MDB dövlətlərinin iqtisadi, siyasi inteqrasiyasını yaratmaqdır". Sənəddə göstərilir ki, dünyada aparıcı olacaq bu Birlikdə Rusiya dominant rola malikdir.*** Bundan başqa, vahid hərbi komandanlıq, MDB-nin "xarici sərhədləri"nin birgə qorunması, Rusiya ordusununu MDB daxili münaqişələrdə sülhməramlı iştirakı, MDB-nin ümumi xarici siyasəti,

dövlətüstü qurumların yaradılması və onların Moskvada yerləşməsi nəzərdə tutulur.

Üçüncüsü mədəni müdaxilədir ki, yuxarıda göstərdiyimiz sənəddə deyilir: Yaxın "xaric ölkələrində" Rusiya televiziya və radio verilişləri proqramları yayımlanmalı, Rusiya mətbuatının bu ölkələrdə yayılması təşkil olunmalı, Rusiyada MDB dövlətləri üçün milli kadrlar hazırlanmalıdır və s. Göründüyü kimi, Rusiya açıq şəkildə nə istədiyini ortaya qoyur və imkan düşdükcə həyata keçirir. ***Təhlillərdən də görünür ki, Rusiyanın hədəfi təkcə Azərbaycan deyil, həm də geosiyasi məkanı ələ keçirməklə Yeni Dünya Düzəninə zərbə vurmaqdır. Ona görə də, problem təkcə Azərbaycana aid olmadığından, Azərbaycan da təkbaşına müdafiə olunmamalı, taleyin hökmünə buraxılmamalıdır. Həm də bu zəruri dəstək və himayə təkcə Azərbaycana deyil, bütün "Turan" Avrasiya Bloku ölkələrinə şamil edilməlidir. Əlbəttə, istək və tələbimiz ABŞ və Qərbin Rusiyaya müharibə elan etməsi deyildir. ABŞ və Qərb "Turan" Avrasiya Bloku ölkələrinin ayaq üstə durmasını təmin edəcəksə, "Turan" Avrasiya Blokunun arzuolunan səviyyədə formalaşmasına ciddi və operativ yardım edəcəksə, Rusiya imperiyası ambisiyalarının mənasızığını, yeni bloka və onun üzvlərinə təsirin qeyri-mümkünlüyünü anlayaraq həm bu dövlətlər, həm də Qərb və Amerika ilə dinc əməkdaşlığa üstünlük vermək məcburiyyətində qalacaqdır. Bu isə hamı üçün əlverişlidir. Belə ki:***

1) Rusiya Xəzər-Orta Asiya regionunun zəngin bazarlarına dinc müdaxilə edə biləcək, enerji və mineral ehtiyatların işlənməsindən xeyli qazanc götürəcəkdir. Yersiz hərbi xərclərini azatmaqla sosial-iqtisadi vəziyyətini yaxşılaşdıracaqdır. Orta Asiya və Gürcüstandakı hərbi qüvvələrini geri aparmaqla həm yersiz itkilərə, rus analarının etirazlarına son qoyacaq, həm də fantastik rəqəmlərlə ifadə olunan hərbi xərclərə qənaət edəcəkdir və s.




**Шәрти ишарәләр:**

- "Туран" Аврасија Блоку (ТАБ).

- Русијанын чәнубундакы Түрк золагы. (Әсасән түрк етносу мәскунлашан әрази)

**Хәритә 5**

2) ABŞ və Qərb Əks Alyans ölkəsi kimi Rusiyanın zərərsizləşdirilməsindən sonra digər Əks Alyans ölkələri ilə daha sərbəst məşğul ola biləcəklər. Əslində Rusiyanın zərərsizləşməsi Yeni Dünya Düzəni prinsiplərinin nəhəng əraziyə malik bu ölkədə ilk addımı olacaqdır. Bundan sonra Çin, Hindistan, İran kimi ölkələrin təhlükəsizləşdirilməsi xeyli asan olacaqdır. Xammal qaynağı olan Rusiya Qərbin sərfəli bazarına çevriləcək və bir aqrar ölkə kimi dünya ərzaq proqramında ciddi rol oynayacaqdır və s.

3) "Turan" Avrasiya Bloku ölkələri həm öz

müstəqilliklərinin dönməzliyinə, həm də iqtisadi dirçəlişə nail olacaqlar. Bundan əlavə, çox mühüm əhəmiyyət kəsb edən bir amil pozitiv inkişaf mərhələsinə daxil olacaqdır. "Turan" Avrasiya Bloku boyu Rusiyanın cənubunda bir türk zolağı vardır. (bax: **Xəritə 5** ) Bu zolaq "Turan" Avrasiya Bloku konsolidasiyasından bəhrələnərək hər mənada inkişaf edəcəkdir. İlkin dövrdə həm də Rusiya və "Turan" Avrasiya Bloku arasında bufer rolunu oynayacaq, sonrakı inkişaf mərhələsində isə həm şimal cinahdan, həm də şimal-qərb cinahdan Çinin zərərsizləşdirilməsində mühüm önəm daşıyacaqdır. ***ABŞ rəsmi dairəldərinin ötəri səsləndirdiyi üç komponentdən ibarət Rusiyanın yaranmasında bu zolaq – Yeni Türk Zolağı (YTZ) aparıcı rola malik olacaqdır. Yeni Türk Zolağının mütəşəkkil, təşkilatlanmış hala düşməsi "Turan" Avrasiya Blokunun baş tutmasına bağlıdır.***

# Yeni Platsdarm – TAB

Avrasiya dünyanın mərkəzidir. Haertland "dünyanın qəlbi" olan bu regiona kim nəzarət edəcəksə, dünyaya da o nəzarət edəcəkdir. Bu fikir daima aparıcı siyasi koordinat olmuşdur. Tarixən bu tezis hegemonluq iddiasında olan dövlətləri həmin bölgə üstündə müharibələr aparmağa, böyük dağıntı və sarsıntılara sövq etmişdir. ***Çağdaş dünya artıq bu bölgədən imperiya arzularını gerçəkləşdirmək naminə yox, bəşəriyyətin sabit inkişdf və təhlükəsizliyi naminə istifadə etməlidir.*** Bu bölgədəki dövlətlər imperialist müdaxilələrə gücləri çatdığı səviyyədə direniş göstərmək məcburiyyətində

qalırdılar. Yeni Dünya Düzənində isə region dövlətləri bu siyasəti gətirənlərə dirəniş deyil, yardım göstərəcəklər. Regionu əhatə edəcək siyasətin uğuru buradakı dövlətlərin oriyentasiyasına və Yeni Dünya Düzəni siyasətində iştirak fəallığına bağlıdır. ***Avropadan sonra növbəti Yeni Dünya Düzəni platsdarmı kimi, əsasən, özəyində Türkiyə, Azərbaycan, Orta Asiya Respublikaları olan Transkontinental "Turan" Avrasiya Blokunu (TAB) yaratmağı təklif edirəm.*** Belə bir blok formalaşmazsa, təklikdə bu dövlətlər heç bir ciddi nəticəyə nail ola bilməyəcəkdir.

"Turan" Avrasiya Blokunun əhatə etdiyi regionla Avropa iki fərqli mədəniyyətə malikdir. Bu fərqləri istəsək də, istəməsək də qəbul etmək zorundayıq. İş burasındadır ki, bu fərqlər həm də siyasi fərqlər formasında təzahür edir. Avropa və "Turan" Avrasiya Blokunun əhatə etdiyi regionda bir-birindən fərqli iki dünyaduyumu, fərqli məqsədlər, tərz və anlayışlar mövcüddur. Ona görə bu kökdən qaynaqlanan siyasi fərqlər də "Turan" Avrasiya Bloku ölkələrinin Avropa siyasi təsisatlarına zəruri inteqrasiyasında çətinliklər yaradır. Amma "Turan" Avrasiya Bloku ölkələri öz aralarında asan konsolidasiya olunub, siyasi təsisat formalaşdırdıqdan – "Turan" Avrasiya Bloku yaratdıqdan sonra dövlətlərüstü siyasi quruma malik olacaqlar. Bu təsisat isə siyasi hədəfli – Yeni Dünya Düzəni hədəfli olduğundan bir çox yerli sivilizasiyaya məxsus xüsusi keyfiyyətləri kənara qoyub, ümumi siyasi oriyentasiyalı prioritet götürəcək. Eyni konsolidasiya prosesi Avropa dövlətləri arasında da gedib. Burada da bir çox xüsusi keyfiyyətlər ümumi prinsip naminə kənara qoyulub və dövlətlərüstü Avropa təsisatları formalaşıb. Avropa təsisatlarının də hədəfi Yeni Dünya Düzənidir. ***Eyni hədəfli, artıq mahiyyətcə eyni siyasi modelləşmiş II platsdarm olan Avropa və III platsdarm kimi nəzərdə tutulan "Turan" Avrasiya Blokunun inteqrasiyası çox problemsiz və anlaşıqlı baş tutacaqdır.***

"Turan" Avrasiya Bloku sistemli yanaşma tələb edir. Blokun formalaşdırılması üçün əsas mərhələlər kimi bunları göstərmək olar:

1. ***Regional iqtisadi əməkdaşlıq.*** Bu əmkdaşlıq forması beynəlxalq təcrübədən qaynaqlanacaq. OPEC, NAFTA, Ümumdünya Bankı (ÜDB), Ümumdünya Əmək Təşkilatı (ÜƏT), Ümumdünya Valyuta Fondu (ÜVF) və s. burada mühüm rol oynaya bilər.

2. ***Xarici siyasətin koordinasiya olunması.*** Sonradan bu prosesi inkişaf etdirib "Turan" Avrasiya Bloku + ABŞ +AB şəklinə çevirmək olar.

3. ***Regional kollektiv təhlüəsizlik sisteminin yaradılması.*** Yaranması nəzərdə tutulan "Turan" Avrasiya Bloku müdafiə qüvvələri (TAB MQ) də ikinci mərhələdə fəaliyyətini **NATO+"Turan" Avrasiya Bloku Müdafiə Qüvvələri** şəklində qura bilər.

Mədəniyyətin çulğalaşması və inkişafını, ekoloji problemlərin həllini, səhiyyə, sosial sorunlar və s. digər köməkçi məsələlərin həllini koordinasiya edən regional təşkilatların da yaradılması mümkündür.

***"Turan" Avrasiya Blokunun göstəri lən özəyi formalaşdırıldıqdan sonra buraya Gürcüstan, Əfqanıstan, Pakistan kimi dövlətlər də qoşula bilər.*** Buna meyl vardır. **ÖGUAM** birliyinin yaradılması ciddi təzahürdür. ***Hətta hansısa mərhələdə İran özü demokratikləşərsə və bir konfederativ şəkil alarsa, onun da Əks Alyans blokundan Yeni Dünya Düzəni bloku olan "Turan" Avrasiya Blokuna transfer olunması mümkündür.*** Əlbəttə, İranla bağlı məsələnin xeyli müzakirə və çözülməsinə ehtiyac vardır. Amma perspektivdə bütün dövlətlərin yeni dünya siyasətində iştirakı təmin olunacaqdır. Ya könüllü, ya könülsüz. ***Biz Rusiya, Çin, Hindistan, İran kimi Əks Alyans dövlətlərinin Yeni Dünya Düzəni siyasətində aparıcı Qərb dövlətləri, ABŞ,***

***"Turan" Avrasiya Bloku dövlətləri və blokları ilə dinc əməkdaşlığının tərəfdarıyıq. Amma nəzərdən qaçırmaq olmsaz ki, bu dövlətlər Yeni Dünya Düzəni quranların qat-qat güclü olduğunu və onlarla qarşıdurmanın perspektivsizliyini tam mənasında görməsələr və qəbul etməsələr, belə əməkdaşlığa getməyəcək və pozucu fəaliyyətlərini davam etdirəcəklər.*** Ona görə də, regional Yeni Dünya Düzəni platsdarmı olan "Turan" Avrasiya Blokunun formalaşdırılması çox zəruridir. Əlbəttə, Yeni Dünya Düzəni özbaşına yaranan və inkişaf edən proses deyildir və hər kəsə də aydındır ki, bu siyasətin mühəndisi, hakimi ABŞ-dır. ABŞ "Turan" Avrasiya Blokunun formalaşmasında xeyli uduş əldə edəcəkdir. Bunlardan ikisi xüsusən mühümdür:

***1. Yeni Dünya Düzəni quruculuğunda Avropa platsdarmı yeganə platsdarm kimi qalarsa, Rusiya təhlükəsi aradan çıxdıqdan sonra Avropa dövlətləri burada ABŞ-ın aparıcılığına getdikcə qısqanclıqla yanaşa bilərlər.*** İri Qərb dövdlətləri tərəfindən buna bir neçə dəfə işarə olunub. Məsələn, Fransa zaman-zaman ABŞ-a üstüörtülü təzyiq kimi Rusiya ilə münasibətlərində yeniləşmələr edib. Almaniya İrana münasibətdə ABŞ-ın arzulamadığı mövqedən çıxış edib və s. Yəni Avropanın iri dövlətləri və onların iştirakçısı olduğu Avropa təsisatları ABŞ-ın onlara Avrasiyada yeganə söykənc yeri kimi baxmasından hərdən sui-istifadə edirlər. "Turan" Avrasiya Blokunun formalaşması, ikinci ciddi platsdarmın ortaya çıxması belə ambisioz mövqeləri xeyli məhdudlaşdıracaqdır.

***2. Qərblə Şərq arasında "Turan" Avrasiya Blokunun formalaşacağını nəzərdə tutduğumuz bölgə bir "qara dəlik" kimi qalarsa, yaxud Əks Alyans dövlətlərinin nəzarətinə keçərsə, bu, Qərbin və ABŞ-ın regiondan geri çəkilməsinə, ABŞ-ın isə hətta Avropada mövqelərinin xeyli zəifləməsinə səbəb ola bilər.*** Bu özünü bir dəfə 1993-cü ildə göstəribdir. Azərbaycanı Rusiyanın siyasi oyunlarında

meydanda tək qoyan Qərb dövlətləri və ABŞ özlərinin etiraf etdiyi kimi, bu ili və sonrakı bir neçə ili itirilmiş müddət elan etdilər. Azərbaycan dartıcı qüvvə olduğu halda ona ögey münasibət və barmaqarası baxmaq Avrasiya damarında “tıxac” yaratdı.

Münaqişələrlə, toqquşan mənafelərlə zəngin "Turan" Avrasiya Bloku bölgəsinə nəzarət uğrunda mübarizədə kim-kimi məsələsi həll olunur. Çünki əslində ABŞ-ın xeyrinə olan tərəzinin ağır gözü qəflətən yerini dəyişə bilər. Bu ağırlıq əsasən Avropa hesabınadır. Əks Alyans dövlətləri, Çin heç də çox geridə deyildir. ABŞ-ın yüngülcə gecikməsi Çinin bir çox məqamlarda ona çatmasına, hətta onu üstələməsinə belə səbəb ola bilər. Biz bu məsələyə toxunacağıq. Sadəcə, bildirmək istəyirik ki, ***ABŞ "Turan" Avrasiya Bloku bölgəsində uduzmaqla nəinki Avropadan, bütünlüklə dünya siyasətinin hakimliyindən belə gedə bilər.***

# TAB sivilizasiyalararası dialoq vasitəsi kimi

"Turan" Avrasiya Bloku ideyasının opponentləri Avrasiya dövlətlərinin tək-tək, sıra ilə Avropa məkanına, Avropa strukturlarına inteqrasiyasını müdafiə edə bilərlər. Əvvəla, bu proses baş tutacağı halda belə uzun zamana ehtiyaclıdır. Üstəlik, əvvəldə də toxunduğumuz kimi, dövlətlərarası münaqişə və anlaşılmazlıqlar sıralamanın özünü belə çətinləşdirir. Və bu dövlətlər Avropa standartlarına cavab verəcək səviyyədə deyillər. "Turan" Avrasiya Blokunun baş

tutması isə region dövlətlərinin inkişaf səviyyəsinin təxminən eyni olması səbəbi ilə xeyli asandır. TAB-da Türkiyənin də iştirakı nəzərdə tutulur. Bu dövlət TAB dövlətləri arasında ən inknşaf etmişidir. Bununla yanaşı, onilliklərdir ərizə verməsinə baxmayaraq Türkiyə yeni eranın əvvəlində belə Avropa Birliyinə üzv qəbul edilməyib. Faktiki olaraq Türkiyə öz imkanlarını Avropada reallaşdıra bilmir. Bu, Türkiyənin haqlı narazılığına səbəb olur. ***Türkiyə həm də "Turan" Avrasiya Blokunda təmsil olunmaqla, üçüncü Yeni Dünya Düzəni platsdarmını ikinci Yeni Dünya Düzəni platsdarması (Avropa) ilə qovuşduracaq dövlət statusu alacaqsa, inciklik və problemlər keçmişin arxivinə veriləcəkdir.*** Türkiyə də daxil olmaqla regiondakı "Turan" Avrasiya Bloku əhatəsi dövlətlərin Avropaya inteqrasiyasının çətinliyinin səbəbləri vardır. ***Və bu ölkələr hətta tək-tək Avropa təsisatlarına qoşulsalar da, yaranacaq platsdarm geniş olsa da, dərin olmayacaq. Amma "Turan" Avrasiya Bloku platsdarmı dərin olacaq. Bunun əsasında eyni sivilizasiyaya, eyni dilə, eyni dinə bağlılıq durur. "Turan" Avrasiya Bloku mənəvi boşluğu olmayan bütöv bir platsdarm olacaqdır. Bu isə sivilizasiyalararası dialoq üçün legitim mandatlı olmaq deməkdir. Həm dinlərarası, həm etnoslararası dialoqlar iki səlahiyyətli subyekt tərəfindən – AB və "Turan" Avrasiya Bloku tərəfindən ABŞ-ın iştirakı ilə aparılacaqdır.*** Din amilindən sui-istifadə etmək istəyən dövlətlər qeyri-legitim olduğundan din amilindən bəşəriyyətin təhlükəsizliyinə zərbə vurmaq üçün istifadə edə bilməyəcəkdirlər. İslam dini ən son və bütün dinlərdən bəhrələnən ən mükəmməl din olaraq bəşəriyyətin əmin-amanlığına xidmət edir. İnsan münasibətlərində ilk söz olan "Salalamün-əleyküm" ifadəsi belə "başımızın üstündə sülh olsun" mənasındadır. Ona görə, islam faktoryndan qorxmaq yox, ondan sivilizasiyanın inkişafı, yaxınlaşması, birləşməsi, dünya mədəniyyətinin vahidləşməsi üçün istifadə etmək lazımdır. Sülh, barışıq, ədalət, elm, inkişaf islamın əsas

istiqamətləridir. Bu cümləni diplomatiya dilinə çevirəndə "təhlükəsizlik, dialoq, ədalətli statys-kvo, texniki tərəqqi, təkamül islamın əsas oriyentasiyalarındandır" kimi səslənir. Yeni dünya bunu istəmirmi?! ***Dinlərarası dialoqun baş tutması konsolidasiyanın əsasıdır.*** Avropa snvilizasiyasının mənbəyi xristian ənənələridir. Avropa Romanın varisidir və əlbəttə, burada Bizans və rus ortadoksal kilsəsinin də təsiri vardır. Buna görə, Avronanın öz həyat norması və qanunları , spesifik dövlətçilik ənənəsi,| digər özəl münasibət sistemləri vardır. ***Belə bir ailəyə başqa sivilizasiyadan olan ölkənin təklikdə konsolidasiyası ağrılıdır. "Turan" Avrasiya Blokunu əhatə edən regionun sivilizasiyası, əsasən, islam ənənələrinə və türk mədəniyyətinə söykənir. Bu zolaq dövlətlərinin konsolidasiyasında Avropa ilə olan konsolidasiyadakı çətinliklər yoxdur. Üstəlik, blok formalaşdıqdan sonra sivilizasiyalar və dinlərarası dialoqun ciddi bəşəri siyasi maraqlar naminə baş tutması çox qısa zaman çəkəcəkdir.***

İslam dinini bölücü faktor kimi önə çəkənlər yanılırlar. İslam bir çox ölkələrin daxili siyasətində də, ölkələrarası münasibətdə də, regional səviyyədə də birləşdirici amildir.

Azərbaycanda müxtəlif etnosların yaşamasına baxmayaraq, əhalinin əsas hissəsi müsəlmandır. ***İslam Azərbaycan mədəniyyətinin formalaşmasında iki ən çiddi sütunudan biridir. Digəri türkçülükdür.*** Azərbaycanda təkcə 20-ci əsrdə dəfələrlə milli zəmində separatizmə,
bölücülüyə can atsalar da, xarici düşmənlər niyyətlərinə nail ola bilməmişlər. Nə Quzey Azərbaycanın Rusiya ilə sərhəd bölgələrində Moskvanın xeyir-duası və hər cür köməyi ilə yaranıb fəaliyyət göstərən "Sadval" cəmiyyəti, nə də 1993-cü ildə Talış Muğan Respublikası adı ilə Quzey Azərbaycan Respublikasının güney bölgələrindəki separatçılıq uğur qazana bilməmişdir. ***Tarixi Azərbaycan ərazisi olan Dərbəndətrafı regionda yaşayan ləzgilərin bazasında formalaşdırılan "Sadval"ın Azərbaycana ərazi iddialarının***

***fiaskoya uğraması səbəblərindən biri də məhz islam faktorudur. Rusiya dəridən-qabıqdan çıxsa da, özünün cənub bölgəsində nəzarəti əlindən verməkdədir. Çeçenistanda baş verən hadisələr, Dağıstandakı qeyri-müəyyən vəziyyət bunu göstərir.*** Yəni islam bəşəriyyətin inkişafı, birlik və bərabərlik siyasətini aparanları müdafiə, ədalətsizlik edənləri isə məhkum edən dindir.

Vaxtilə Rusiya Əfqanıstana hücum edəndə də islami cihad bütün ölkədə , hətta regionun siyasi həyatında dominant faktora çevrildi. Bu illərdə Əfqanıstan milli dövlət kimi tanınsa da, əslində 22 milyonlyq əhali etnik münaqişələrlə, siyasi münasibətlərlə parça-parça olundu. Din amili rus imperiazizmi üzərində qələbənin əsas şərti oldu.

***İslam faktorunu Orta Asiyada da birləşdirici amilə çevirmək mümkündür. Üstəlik, islam amilinə Qərb və ABŞ-ın da anlaqla yanaşmasını siyasi situasiyalar da tələb edir. Təkcə bir amili qeyd edək ki, Rusiya əhalisinin 13%-ni müsəlmanlar təşkil edir. Çinin 1884-cü ildə işğal edib tərkibinə qatdığı Doğu Türküstan (Uyğurstan) ərazisində (1 milyon 400000 kv.km.) 26 milyon müsəlman türk yaşayır. İran ərazisində 30 milyondan artıq müsəlman Azərbaycan türkü yaşayır.*** Bütün bunlar son dərəcə həyati əhəmiyyətli məsələlərdir.

Mən təkcə ƏA ölkələrindən üçünün tərkibinə nəzər saldım. ***İran əhalisinin yarıdan çoxu müsəlman Azərbaycan türklərindən ibarət olduğundan ABŞ və Qərbin iri dövlətləri Azərbaycana xüsusi diqqət yetirməlidirlər. Çox vaxt "İran bölünərsə oriyentasiyası məlum olmayan müsəlman dövlətlər peyda olar" arqumentini ortaya qoyanlar bilməlidirlər ki, onda ortaya 40 milyonluq oriyentasiyası məlum olan Azərbaycan çıxacaq. Avrasiyanın 70 milyonluq Türkiyə və 40 milyonluq Azərbaycan türk-islam dövlətləri həm Türk dövlətləri regionunda, həm də müsəlman aləmində əhəmiyyətli söz sahibi olacaqlar. Siyasi mövqeyinə gəldikdə isə bu iki***

***dövlət də öz xarici siyasi prioritetlərini müəyyən və bəyan ediblər. Azərbaycan da, Türkiyə də bəşər təhlükəsizliyi və birgəyaşayışını özündə ehtiva edən Yeni Dünya Düzəni daşıyıcılarıdır. Deməli, Qərb və ABŞ Azərbaycana və Türkiyəyə xüsusi önəm verməklə, Vahid Dünya Evi qurulmasında ən mühüm amil olan dinlərarası, sivilizasiyalararası dialoqun uğurla baş tutmasına nail ola bilər.*** Bu nəzərdən qaçırılmamalıdır!

TAB-ın formataşmasında əhəmiyyət kəsb edən digər amil ***dil*** və ***mədəniyyət****dir.* Avrasiyanın nəhəng bir ərazisində məskunlaşan türk etnosu müxtəlif dövlətlər qursa da, vahid mədəniyyətə və onun tərkib hissəsi olan vahid dilə malikdir. ***Mədəni konsolidasiyaya ehtiyac yoxdur, o vardır, vahid və ayrılmazdır.*** Tarixin müxtəlif dövrlərində türklər imperiyalar da qurub, imperiyaların tərkibində də olub, ciddi məkan dəyişikliyi də olyb, hətta din dəyişikliyi də. Ancaq mədəniyyət və dil dəyişilməyib. Rusiya ərazisində bir çox türk tayfaları, Moldaviyada qaqauzlar xristian dininə sitayiş edirlər. Amma əski Türk mədəniy-
yətini və dillərini qoruyublar. Son zamanlar Türk respublikalarının latın qrafikasına keçməsi həm mədəni əlaqələrin daha da yaxınlaşması və asanlaşmasına, həm də modern keyfiyyətlərlə sintezinə səbəb olmaqdadır. Türk respyblikalarının zirvə toplantılarında konsolidasiya istiqamətli qərarlar da optimist olmağa imkan verir. TAB-ın dərinə konsolidasiyası üçün dil mühüm faktordur.

# TAB Yeni Dünya Düzəni qurucularına rəqib ola bilməz

Hətta arzulasa belə "Turan" Avrasiya Blokunun Yeni Dünya Düzəni qurucularına rəqib olması mümkün deyil. Bəzi Qərb politoloq və analitikləri, həm də bəzi ABŞ nümayəndələri Avrasiyada bloklaşmadan ehtiyat etdiklərini ortaya qoyurlar. Düşünürlər ki, hansısa məqamda bu blok potensial rəqibə çevrilə bilər. Amma bu inamsızlıq və ehtiyatlılıq gərəksizdir. ***Əvvəla***, Qərb, xüsusən ABŞ Avropadan üç istiqamətdə təsir imkanlarını periferiyalara ötürür: Уzaq Şərq, Yaxın Şərq və Orta Asiya istiqamətlərində. Burada manevr və siyasi improvizə imkanları genişdir. ***İkincisi***, Yeni Dünya Düzəni təmsilçiləri "ağ"larla oynayır və təklif paketləri də birvariantlı deyildir. ***Üçüncüsü***, ABŞ və Yeni Dünya Düzəni təmsilçiləri koordinator və hakim rolunda çıxış etdiyindən hər kəs onlardan asılıdır və bu nəhəng subyektlərin iştirakı olmadan heç bir layihə baş tuta bilməz. ***Dördüncüsü***, blok yaradacaq dövlətlər əsasən aşağı və orta dərəcəli olduğundan nəinki dünya hegemonluğu, hətta regional hegemonluq ambisiyalarına belə yoluxa bilməzlər. ***Beşincisi***, blok dövlətləri Yeni Dünya Düzəni kimi ciddi hədəf, ABŞ kimi hakim olmadan aralarındakı münasibətləri belə arzuolunan səviyyədə qura bilməzlər. ***Altıncısı***, ABŞ və Avropanın nəhəngləri bu dövlətlərin daxili durumuna ciddi təsir imkanları qazanıblar. ***Yeddincisi***, ABŞ və digər Yeni Dünya Düzəni quruculari geostrateji baxımdan dinamik və sabit oriyentasiyalı dövlətləri hər mənada çeşidləyiblər. Və ən əsası, Yeni Dünya Düzənində iştirak etmək təşəbbüsü blok üzvlərinə və o cümlədən, Azərbaycana məxsusdur. Prinsipcə qəbul olunmuş siyasətin fəal iştirakçısı olmaq iki əsas amilə görə Azərbaycanın prioritet xarici siyasətidir. ***Birincisi***, Azərbaycan əldə etdiyi müstəqilliyi saxlayıb, inkişaf etdirmək istəyir. ***İkincisi***,

Azərbaycan dünya aləminin ləyaqətli, həm də idarə olunmağa məcbur edilən yox, idarəedən üzvü olur. ***Beləliklə, "Turan" Avrasiya Bloku üzvü ölkələr hegemonluq iddiası olmayan, stabil, orta dərəcəli, orta güclü ölkələr olmaqla üçüncü platsdarmın təməlini qoymaq üçün ABŞ və Qərb baxımından qənaətbəxş, sərfəli müttəfiqlərdir.***

Sadalanan yeddi amil əsasında Azərbaycana nəzər salaq. ***Birinci amil, ABŞ və Qərbin üç istiqamətdə təsir imkanlarını perıferiyalara ötürməsidir ki, istiqamətlərdən biri Azərbaycandan keçir.*** Bu istiqamətdə Azərbaycanı digər dövlət əvəz edə bilməyəcəkdir. İnkişaf səviyyəsinə görə Azərbaycandan irəlidə olan Türkiyəni çıxmaqla digər dövlətlər bütövlükdə Azərbaycanla rəqabət imkanlı deyillər. Türkiyə coğrafi mənada mövqe geriliyinə malikdir. Üstəlik, SSRİ dövründə regiondan sərt şəkildə təcrid olunduğundan ilişkilər xeyli zəifdir və Güney Qafqaz dövlətləri və xalqları çətinliklə Türkiyənin regiondakı irəliləməsinə adaptasiya olunurlar. Azərbayчan müharibəyə məruz qalaraq Rusiyanın çeşidli zərbələri ilə zəifləmiş duruma düşsə də, regionda, əsasən,
Qafqaqzlarda lider kimi qəbyl olunur. Rusiyanın cənubunda yaşayan xalqlar belə Azərbaycanı Qafqazın lideri kimi qəbul edirler. Hələ 1992-ci ildə Azərbaycanda Qafqaz xalqlarının bir toplantısında çeçen,inquş, noqay, kumuk, tatar nümayəndələri bütün hərəkətlərini Azərbaycanda baş verən proseslərə uyğunlaşdırılmış şəkildə etdiklərini bildirirdilər. ***Yenə həmin il qeyri-rəsmi səfərlə Bakıya gələn Çeçenistan prezidenti Dudayev və Gürcüstan pretdenti Qamsaxurdiya, iştirakımla olan sohbətdə Azərbaycan prezidenti Əbülfəz Elçibəyə Qafqaz evi yaradaraq onun sədri olmasını təklıf etdilər. Bə hər ikisi Azərbaycanı bölgədə özlərinin - Çeçenistan və Gürcüstanın, ümumiyyətlə Qafqazın həyati mənafeyi naminə lider dövlət kimi gördüklərini və Azərbaycanın müstəqilliyinin saxlanması üçün hər cür köməyə hazır oldyqlarını bildirdilər.*** Azərbaycanla Çeçenistanın dostluğunun təməlində yüzillərlə eyni

imperiyaya qarşı mübarizə aparması dayanır. “Düşmənimin düşməni dostumdur" prinsipi də, din amili də burada ciddi faktor sayılır. Rus imperiyasına qarşı Şeyx Şamil hərəkatının ilk liderlərindən bir neçəsi Azərbaycan türkü olmuş, ümumiyyətlə, Bu hərəkatda Azərbaycanlılar kütləvi iştirak və qəhrəmanlıq nümayiş etdirmişlər. Bu tarixi qaynaqlar mövcud münasibətlərdə öz əhəmiyyətini saxlamamış deyildir. Üstəlik, Çeçenistanın müstəqilliyini qəti qazandıqdan sonra təcrid vəziyyətdən çıxması, iqtisadi-ticarət əlaqələri yaratması, qlobal iqtisadi layihələrdə iştirakı üçün Azərbaycana çox böyük ehtiyacı vardır. Bundan əlavə Azərbaycan müstəqilliyini itirəcəyi təqdirdə Çeçenistanın öz müstəqilliyini saxlaya bilməsi mümkün deyildir. Qafqaz respyblikaparından Gürcüstan iqtisadiyyatda zəif, ictimai-siyasi mənada qeyri-sabit, bir neçə yerə bölünmüş, üzərində rus ordusu duran ölkə olduğundan güvənilən vəziyyətdə deyildir. Ermənistan isə birmənalı şəkildə Rusiyanın forpostu rolunu oynayır, hətta 1999-2000-ci illərdə Çeçenistana qarşı döyüşlərdə Ermənistanın silahlı qüvvələrinin hissələri açıq-açığına iştirak etdilər. ***Bu mənada Çeçenistan başda olmaqla, Qafqaz xalqları Azərbaycanı Qafqazda lider dəvlət kimi qəbul edirlər.*** Əlbəttə, burada iqtisadi, coğrafi, əhali, din amili də ciddiyə alınıb. Digər dölət - Gürcüstan da bir neçə məsələyə görə Azərbaycanı lider kimi qəbul edir. Əvvəla, Gürcüstan əhalisinin 600000 (altı yüz minə) qədərini Azərbaycan türkləri təşkil edir. Və bu dövlətin həm inkişafında, həm stabilliyində bu faktor çox ciddidir. Nəzərə alsaq ki, Gürcüstan çoxlu etnik münaqişələrin baş alıb getdiyi bölgədir, bu faktor doğru qiymətini alar. Abxaz məsələsi, Osetiya məsələsi, acar məsələsi, ermənilərin Axalkalaki iddiaları Gürcüstanı ən azı məcburən Azərbaycanla yaxşı münasibətlərə sövq edir.

Digər ciddi amil Gürcüstan iqtisadiyyatının Azərbaycansız inkişaf perspektivinin olmamasıdır. Karbohidrogen ehtiyatları olmayan Gürcüstan enerji tələbatını da Azərbaycanın hesabına ödəmək məcburiyyətindədir. Qlobal

layihələrə - ipək yolu, neft kəməri kimi iri layihələrə ancaq Azərbaycanın köməkliyi ilə qoşula bilməsi bu ölkənin həm Yeni Dynya Dyzənində iştirakını təmin edir, həm də təhlükəsizliyinin təminatında komponent təşkil edir. Göründüyü kimi, Gürcüstanın Azərbaycanda həyati mənafeləri var və ona söykənc yeri kimi baxır, onu lider ölkə kimi qəbul edir.

Ermənistan Azərbaycanın kim olduğunu anlayır və buna görə milli mənafelərinə zidd də olsa, Rusiyanın qısqırtması ilə daim Azərbaycanı zəiflətməyə çalışır. ***1918-20-ci illərdə Şərqdə ilk Demokratik Respublika olan Azərbaycan Xalq Cumhuriyyəti Rusiya tərəfindən yerli bolşeviklərin köməyi ilə işqal edildikdən sonra Azərbaycanın Zəngəzur ərazisi Ermənistana verildi və Ermənistanın İrana birbaşa çıxışı, dolayısı ilə Rusiyanın İrana Qafqazlardan birbaşa çıxışı yaradıldı. Həm də bünunla Türkiyə ilə Azərbaycanın əsas hissəsi arasında, yəni Avropa ilə Azərbaycan arasında çoğrafi əlaqə kəsildi. Naxçıvan Muxtar Respublika şəklində Azərbaycanın tərkibində qalsa da, coğrafi əlaqə pozuldu. Zəngəzurun əsrin əvvəllərində Ermənistana verilməsi Rusiyanın regional, hətta dünya miqyaslı geosiyasi oyununda çox ciddi qələbəsi sayıla bilər.*** Rusiya bu xətlə indinin özündə də Kəngər korfəzina çıxış əldə edib. Azərbaycanın önəmini bilən bütün Əks Alyans ölkələri Ermənistan-Azərbaycan ziddiyyətlərini nəzərə alaraq, Ermənistana əllərindən gələn hər bir köməkliyi göstərirlər. ***İran və Rusiya Ermənistanın qonşusu kimi bu köməkliyi daha intensiv, daha sistemli edir.*** ƏA ölkəsi uzaq Çin də Ermənistana "Tayfun" raket sistemini sataraq Ermənistan-Azərbaycan müharibəsində təcavüzkarı müdafiə edir. Bu, Çinin Ermənistandan çox Azərbaycana önəm verməsi, YDD-nin irəlilədiyi Avrasiya dəhlizindəki yerini qiymətləndirməsidir. ***Çin Azərbaycanın bölgədəki aparıcı mövqeyi ilə hesablaşır və buna görə, Azərbaycanı məğlub, zəıf dovlət kimi görmək istəyir.*** Deməli, "Tayfun" raket

sisteminin Ermənistana satılması bir sadə ticarət məsələsi deyil. Türkiyəyə qarşı məxsysi antipatiyası olan Çinin bu davranışı o qədər də təəccüblü olmadı. İşğal etdiyi Doğu Türküstanda (Uyğurstanda) əhalinin artımının qarşısını atmaq üçün "doğum kontroly" qanunu qəbul edən, bu ərazidə 14 nüvə sınağı keçirən, bu səbəbdən minlərlə türkün ölümünə, şikəstliyinə bais olan bir ölkənin Azərbaycana da münasibəti təəccüb doğurmamldır. ***Bu amil yəni İran, Rysiya və Çinin Azərbaycanla müharibə vəziyyətində olan bir dövlətə - Ermənistana münasibəti əslində ƏA dövlətlərinin Azərbaycanın əhəmiyyətini anlamaları və bölgə lideri kimi qəbul etmələri deməkdir. Əslində, Ermənistan qurban dövlət kimi kullanılır.***

***Ermənistanın iqtisadi inkişafı birbaşa Azərbaycanla yaxşı münasibətlərindən asılıdır. Bunu ermənilər də başa düşür, amma bütün Ermənistan siyasəti Rusiyanın ara siyasəti olduğundan taleləri öz əllərində deyildir. NATO-nun genişlənməsi əleyhinə bəyanat verən, Bakı-Ceyhan ƏNK-nin çəkilməsinə əngəl olmağa çalışan, YDD prinsiplərindən olan silahların azaldılması qaydasını nozaraq sürətlə silahlanan, birgəyaşayış qaydalarını pozaraq yüz minlərlə qeyri-erməni indiki Ermənistan ərazisindən zorla qovan, işğal etdiyi Azərbaycan ərazilərində nüvə tullantıları basdıran, bəşəriyyət əleyhinə neçə-neçə cinayətlar törədən Ermənistan nəinki Rusiyanın, bütün ƏA-ın forpostudur və YDD-nin qurucuları bunu nəzərdən qaçırmamalıdırlar. Deməli, Ermənistanın Azərbaycana təcavüzü təkcə bu iki dövlət arasındakı məsələ kimi deyil, iki alyans - YDD və ƏA arasındakı münasibət kimi qiymətləndirilməlidir.***

***İkinci amil kimi qeyd etdik ki, YDD təmsilçiləri, o cümlədən ABŞ "ağ"larla oynayır, təklif paketləri də birvariantlı deyildir.*** On illərdir YDD siyasətini həyata keçirmək üçün ABŞ-ın rəhbərliyi ilə hazırlıq işləri görülür. Bu illər ərzində dəfələrlə taktikatlar dəyişilsə də, hədəf

dəyişməyib. Hər dəfə də oyun qaydalarını ABŞ və müttəfiqləri müəyyənləşdirib. Azərbaycanın da tərkibində olduğu SSRİ silahlanma yarışına dəvət olunub, iqtisadiyyatına ölümcül zərbə vuruldu. SSRİ-nin çöküşünün əsas səbəblərindən biri bu oldu. Tam təzadlı bir gediş - SSRİ çökür, Rusiya iqqisadiyyatının dirçəlməsi üçün, demokratik təsisatların yaradılması üçün Rusiyaya yardımlar ayrılır. Və bütün postsovet məkanı Rusiyanın əlindən alınmaqla dirçəldilir. Düzdür, buna nə qədər nail olunub, o başqa məsələdir, amma kurs budur. Azərbaycan da bu taktikada prioritet verilənlərdən oldu. Xeyli investisiya qoyuluşu, qlobal layihələrdə aparıcı mövqelərə çıxarılması əslində bu siyasətin tərkib hissəsidir yəni istənilən halda oyun qaydalarını YDD qurucuları, o cümlədən ABŞ| təklif edir. Və bu siyasətdə Azərbaycanın iştirak imkanları geniişir.

***Üçüncü amilə görə ABŞ və YDD-nin digər təşəbbüsçüləri və quruculari hakim, koordinator rolunda çıxış etdiyindən hərkəs hansısa formada ondan asılıdır və bu nəhəng subyektlərin, xüsusən ABŞ-ın iştirakı və razılığı olmadan nəhəng layihələrin taleyi sual altında olur.*** Azərbaycan da ən nəhənk layihələrdə TRASEKA, neftlə, neft kəmərləri ilə bağlı proyektlərdə bu dövlətlərin aparıcı iştirakına imkan yaradıb. Deyilə bilər ki, ƏA dövlətləri də ciddi iqtisadi layihələr həyata keçirirlər və bunlarda YDD qurucularının və ABŞ-ın iştirakı da yoxdyr. Düzdür, amma bu bir həddə kimi mümkün olur. Çinin və müəyyən qədər Yaponiyanın 1990-cı illərin axırlarında nəzərdə tutulduğundan artıq inkişaf sürəti götürməsi, məncə, YDD qurucularının planlarına daxil olmadığından bu ölkələrdə və hətta regionda dəhşətli maliyyə böhranı yarandı. Məhz ABŞ və müttəfiqləri müəyyən tədbirlərlə böhranı dayandırdı. Bu bir təsadüf deyildi.

***Dördüncü amil irəli sürür ki, TAB-da iştirakı nəzərdə tutulan dövlətlər əsasən aşağı və orta dərəcəli olduğundan nəinki dünya hegemonluğu, hətta regional hegemonluq***

***naminə rəqabətə gedə bilməzlər.***

Azərbaycan da faktiki olaraq inkişaf səviyyəsinə görə aşağı dərəcəli, potensialına görə perspektivdə orta dərəcəli dövlətdir. Doğrudur, bu heç də Azərbaycanın hələ uzun müddət bu vəziyyətdə qalacağına, daima və ya uzun müddət zəif durumda olacağına dəlalət etmir. Məsələn, İngiltərənin və ya ABŞ-ın iqtisadi inkişaf mərhələsində 50 ilə keçdiyi yolu Uzaq Şərq ölkələri Koreya, Çin 10-15 ilə keçiblər. Azərbaycanın da potensialına görə demək mümkündür ki, qısa zaman kəsiyində ciddi irəliləyiş imkanları var. Ancaq bu güclənmə o səviyyədə ola bilməz ki, hegemonlyq iddiası ortaya çıxsın. ***1996-cı ildə Rusiya mətbuatında bu dövlətin analitikləri belə bir fikir yazmışdılar: "ABŞ Avrasiyada yeni beynəlxalq dovlətlərarası münasibətləri elə qurmağa çalışır ki, nəticədə, burada bir aparıcı dövlət yox, çoxlu orta dərəcəli, stabil, kıfayət qədər güclü, amma ABŞ-la müqayisədə zəyif dövlətlər meydana çıxsın." Məncə bu fikir tam qərəzliklə deyilən fikir deyildir.*** Və TAB-da nəzərdə tutulan dövlətlər də, Azərbaycan da bu kateqoriyaya aiddir. Qərb analitiklərinin bu cür dövləpərin bloklarından ehtiyyatlanmasına ehtiyac yoxdur.

***Beşinci amil o idi ki, blok dövlətləri YDD kimi ciddi hədəf, ABŞ kimi hakim olmadan aralarındakı münasibətləri belə arzuolunan səviyyədə qura bilməzlər.*** Azərbaycan iqtisadi münasibətlərdə tərəfdarlarına külli miqdarda xeyir verəcəyi halda, bəzən tərəfdaşlar dezinteqrasiyaya səbəb ola biləcək addımlar atır və sonrakı vasitəçiliklə proseslər axarına salınır. Məsələn, Bakı-Ceyhan neft kəmərinin çəkilişindən Gürcüstan xeyli vəsait əldə etmək şansına nail olduğu halda, qəflətən anormal davrandı. Rusiyanın yüngülcə təzyiqindən ehtiyatlanan, həm də bəhrələnən Gürcüstan öz dövlət maraqlarından çıxış edərək kəmərin bu dövtətin ərazisindən keçəcəyi təqdirdə bir neçə tələbi olacağını izhar etdi. Buraya tarif məsələləri, kəmər keçəcək ərazilərdə torpaq sahiblərinə əlverişli təzminat

verilməsi, ekoloji təhlükəsizlik və s. məsələlər aid idi. Problem ABŞ və Türkiyənin müdaxiləsindən sonra həll olundu. Doğrudur, Azərbaycan Gürcüstanın xeyrinə güzəştə getdi. Amma bütövlükdə məsələ Rusiyanın planına uyğun inkişaf etmədi. Və ya Türkmənistan Transxəzər yanacaq xətdində iştirakdan imtina etmişdi. ABŞ-ın təsiri , müdaxiləsi ilə sonradan layihədə iştiraka razılıq verdi. Bu kimi örnəklər onu göstərir ki, ABŞ-ın və Qərbin iri dövlətərinin TAB dövlətlərinə, onların arasındakı münasibətlərə təsir imkanları kifayət qədərdir. Bu sığorta amili də nə TAB-da təmsil olynması nəzərdə tutulan ölkələrin, nə də Azərbaycanın hegemonluğa iddialı olmayacağını göstərir.

***Altıncı amil nəzərdə tutur ki, ABŞ və Qərb nəhəngləri TAB dövlətlərinin, o sıradan Azərbaycanın daxili durumuna ciddi təsir imkanları qazanıblar.*** Əvvəla ABŞ-ın Azərbaycanın iqtisadiyyatına qoyduğu külli miqdarda investisiya, nəhəng iqtisadi layihələrdə ABŞ-ın iştirakı, ayırdığı kreditlər buna əsas yaradır. Üstəlik, bölgə sabitsizliyi, yenicə müstəqillik qazanmış Azərbaycanın kövrək vəziyyəti və güclü himayəyə ehtiyacı digər əsasdır. ƏA dəvlöti olan Rusiyanın əsarətindən qurtulan ölkənin Rusofobus simptomu, Qərb və ABŞ-a, YDD siyasətinə təbii oriyentasiyası başqa bir əsasdır. Üstəlik, Azərbaycan siyasi elitasının əsas simaları ABŞ siyasilərini yamsılamaq rolunu tutduğundan həm bu ölkənin və Qərbin demokratik dəyərlərinə, həm də ABŞ-a ciddi rəğbət bəsləyirlər. Bu da ABŞ və Qərbin Azərbaycanın daxili durumuna təsir imkanlarını artırır. Əlbəttə, bu sıranı artırmaq da olar. Bütün bunlar Qərb analitiklərinin TAB-ın və o cümlədən, Azərbaycanın hegemonluq rəqabətinə gedə biləcəyi şübhəsinə düşməsinin yersiz olduğunu göstərir.

***Yeddinci amilə görə, ABŞ və digər YDD qurucuları geostrateji baxımdan dinamik və sabit oriyentasiyalı dövlətləri hər mənada çeşidləyiblər.*** Artıq hansı dövlətin hansı vəzifələri icra edəcəyi də müəyyəndir. Mütəmadi olaraq aparılan araşdırmalar nəticəsində hansı dünya dövlətlərinin

silah qaçaqmalçılığı etdiyi, nüvə silahı komponentləri satdığı və ya aldığı, narkobizneslə hansı dövlətin yüksək səviyyədə məşğul olması, terrorist dövlətlər, korrypsiyaya uğramış dövlətlər, çirkli pulların yuyulduğu dövlətlər, etnik, dini, irqi ayrı-seçkiliyə meylli dövlətlər və s. ortaya çıxarılır. Göstərilən fəaliyyət növləri YDD prinsiplərinə ziddiyyət təşkil edir. Azərbaycan azacıq istisna ilə bu mənfi yüklərin heç birini tam şəkildə özündə daşımır. Azərbaycan İranla sərhəd olan Astara gömrük məntəqəsində Rusiyanın İrana keçirmək istədiyi nüvə texnologiyasını həbs etdi və ABŞ ekspertlərini baxışa dəvət etdi. NATO Yuqoslaviyaya hərbi zərbələr endirdiyi vaxt Ermənistandan Yuqoslaviyaya könüllülər getdiyi halda, Azərbaycan gizli olaraq serblərə göndərilən qırıcı təyyirələri Bakı hava limanında həbs etdi. Ermənistan milyardlarla dollar qiymətinə modern silahları Rusiyadan alaraq işğal etdiyi Azərbaycan ərazisində gizlətdiyi halda, Azərbaycan silah kvotasına ciddi nəzarət edir. Azərbaycan beynəlxalq narkobizneslə mübarizə tədbirlərinə qoşulduğu halda, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində kütləvi narkoistehsalla məşğuldyr. Azərbaycan Xəzər və onun ətrafında SSRİ dövründə basdırılmış nüvə tullantılarını zərərsizləşdirdiyi halda, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində nüvə tullantıları basdırır. Azərbaycan dini və etnik tolerantlığa əməl edərkən, Ermənistan monoetnik respublika yaradır və yüz minlərlə qeyri-ermənini zorla deportasiya edir. Mən eyni regionda yerləşən, qonşu və postsovet məkanı olan iki dövlətin-Azərbaycan və Ermənistanın müqayisəsini verməklə nəzərə çatdırmaq istəyirəm ki, adi bir müşahidə əsasında hansı dövlətin Yeni Dünya Düzəni qyrmaqda maraqlı, hansı dövlətin YDD prinsiplərini ardıcıl pozmaqla ƏA-a xidmət etdiyi məlum olarsa, ABŞ kimi, Qərbin iri dövlətləri kimi hər cür araşdırma və kəşfiyyat idarələrinə malik dövlətlər mütləq kimin kim olduğunu gözəl bilir və ***hesab edirəm ki, bu dövlətlər gələcək strategiyalarında Azərbaycana daha da dostcasına və***

*etibarlı strateji müttəfiq münasibətində olacaqlar.*

## Maraqların toqquşduğu ölkə – Azərbaycan

TAB ölkələrinin yerləşdiyi ərazi sanki nüvə maddəsidir, xammaldır. Ondan istəsən bəşəriyyətin inkişafı naminə istifadə edərsən. Bu xammal pis əllərdə, pis məqsədlə istifadə olunarsa, nüvə silahı mahiyyətində olar. Etnik və ərazi konflikləri, nəhəng dövlətlərin maraq toqquşmaları, özünəməxsus mentalitetli sivilizasiya regionun mənzərəsində qabarıq çalarlardır. Bura istifadə olunmadığı müddətdə "qara dəlikdir". Amma bu boşluq əhəmiyyətsiz boşluq deyil, güc boşluğudur. Uzaq Şərq, Yaxın Şərq, Kəngər körfəzi və Hind okeanına qədər, Sibirlərə, Qafqazlara canlı bağlılığı olan bu region dünya siyasətində əvəzsizdir. Yuxarıdakı mənzərə qorxunc görünsə də, o da məlumdur ki, dünyanın daha qarışıq regionları mövcud olmuşdur və indi həmin xarabalıqlar abadlıqlarla əvəz edilmişdir. Bu dəyişikliyin kökündə insan amili dayanır, insan zəkası dayanır, bəşəriyyətə xidmət siyasəti

dayanır. Güclü və ədalətli qonşu amili, güclü və ədalətli düzən quran dövlətlər dayanır. ***Yaxın Şərq cəhənnəminin odu söndürülərsə, iki dəfə dünya müharibələrinə səbəb olan Balkanların ayaq üstə durması gerçəyə çevrilərsə, "Turan" Avrasiya Bloku ölkələrinin əhatə etdiyi bu bölgədə amin-amanlıq bərqərar olacaq, dünyanın qurtarışında bu region heç kimin yerinə yetirə bilmədiyi missiyanı yerinə yetirəcəkdir.***

Bu bölgə təkcə sivilizasiya, din, dil münaqişələri ilə digər regionlardan fərqlənmir, həm də özünün zəngin təbiəti, mədəniyyəti, yeraltı, yerüstü sərvətləri, coğrafi önəmi ilə fərqlənir. Zəngin Şərqə aparan nəqliyyat şəbəkələri qədimdə "İpək yolu" adı ilə məşhur olmuş, günümüzdə də geosiyasi əhəmiyyətini saxlamaqdadır. Bu bölgə bütün növ qiymətli metal və neft-qaz yataqları ilə zəngindir. Dünyanın enerjiyə olan ehtiyacı yüksələn xətlə dəyişdiyi zaman bu karbohidrogen ehtiyatları ilə zəngin bölgənin əhəmiyyəti daha da artırır. Təkcə ABŞ və Qərb ölkələrinin deyil, Asiyanın artıq inkişaf vüsəti götürmüş dövlətlərinin də neft və qaza tələbatı günbəgün artmaqdadır. Deməli, bura diqqət daha da artacaq, geosiyasi oyunlar öz kuliminasiya nöqtəsinə çatacaq. Küveyt, Meksika, Şimal dənizlərindəki karbohidrogen ehtiyatları ilə müqayisə olunan Xəzər dənizi hövzəsi Orta Asiya enerji ehtiyatları bölgəsini nəhəng dövlətlərin həyati mənafe zonasına çevirir. Belə mühüm bir regionun dünya siyasətindəki oriyentasiyası sözsüz ki, həlledicidir. Təklif etdiyim konsolidasiya forması və Azərbaycanın potensial xidməti, Yeni Dünya Düzəni siyasətində rolu yubanmadan dəstək görməlidir.

"Turan" Avrasiya Bloku yerləşən bölgədə geosiyasi maraqları olan dövlətlərin maraqlarını təmin etmək üçün nüfuz istiqamətlərinə nəzər salaq: (bax: **Xəritə 6** )

1. Rusiyanın təzyiq, geosiyasi təsir oxu Azərbaycandan keçərək Orta Asiyaya və Qazaxıstandan keçərək cənub-şərqə

istiqamətlənib.

2. Türkiyənin bölgəyə geosiyasi nüfuz xətti də Orta Asiyaya istiqamətlənib və bu xətt Azərbaycandan başlayır.




Хәритә 6

3. İranın nüfuz etmə xəttinin istiqaməti də iki yöndədir. Şimali-şərq istiqamətində olan xətt Türkmənistan, Tacikistan

və Əfqanıstana; şimala istiqamətlənən xətt isə Azərbaycandan keçərək Rusiyanın cənubundakı müsəlmanlarla məskunlaşmış zəngin əyalətlərə istiqamətlənib.

***Göründüyü kimi, hər üç dövlətin təsir imkanlarını əldə saxlamaq və ya təsir imkanı qazanmaq üçün bölgəyə daxil olma qapısı Azərbaycandır. Bununla Azərbaycanın regionda qlobal mahiyətli siyasətin həyata keçirilməsində hansı geosiyasi əhəmiyyətə malik olması bir daha göz önünə gəlir.***

Birinci dövlətin-Rusiyanın nəyə görə cənub və cənub-şərq bölgəsinə iki istiqamət seçdiyinə nəzər salaq. Zahirən belə görünə bilər ki, Rusiyanın Qazaxıstanın özünə və buradan regiona təsiri daha sərfəlidir. Çünki Qazaxıstanın şimal ərazilərində, əsasən, ruslar yaşayırlar. Rusiya ilə sərhəd olması və əhalinin əsas tərkib hissəsinin ruslardan ibarət olması bu işin görülməsinin az qala yarısıdır. Amma prioritet nədənsə Azərbaycan istiqamətindədir. Səbəblər çoxdur. Ən əsası isə odur ki, ***Azərbaycan birmənalı olaraq Rusiyanın təsir dairəsindən uzaqlaşacaqsa, onda Qərb və ABŞ Türkiyə vasitəsilə Azərbaycan-Orta Asiya oxunu şərqə yönəldəcəkdir. Rusiya Qazaxıstan vasitəsilə cənub-şərqdə əldə etdiyi mövqelərini qərb cinahından ciddi təhlükəyə məruz qoyacaqdır. Belə bir vəziyyətdə isə pressinqlə əldə olunan Qazaxıstan da, Qazaxıstandan keçməklə cənub-şərqdə əldə olunan mövqelər də Rusiyanın əlindən qısa müddətdən sonra çıxacaqdır. Belə bir siyasi diskomfort vəziyyətə düşmək istəməyən Rusiya cənuba və cənub-şərqə yönəlmiş siyasətində daha çox Azərbaycana prioritet verir.*** Rusiyanın Azərbaycana münasibətdə nəzərdə tutduğu üç variant da ona əlverişlidir:

1. ***Rusiya Azərbaycanın ABŞ və Qərbin təsirinə düşməsinə, Qərb oriyentasiyalı siyasət yürütməsinə imkan vermir, Azərbaycanın ən azından neytrallığına nail olur.*** Belə halda Avropa təsisatlarının, Yeni Dünya Düzəninin cənub

və cənub-şərqə irəliləməsini dayandırır, heç olmazsa, ləngidir.

2. ***Rusiya Azərbaycanın zorla öz təsiri altına düşməsini təmin edir.*** Belə olarsa, Avrasiya dəhlizinə zorla tıxac pərçim olunur. Üstəlik, geniş iqtisadi imkanlı ölkədən bəhrələnir. Bununla həm özünün (Rusiyanın) cənub rayonlarında sabitlik üçün əlavə rıçaq əldə edir. Sonrakı mərhələdə isə, Azərbaycanın daxili vəziyyətini və xarici siyasətini dəyişdirmək üçün çalışmaq olar və bunun üçün xeyli improvizə variantları vardır. 1993-cü ilin axırlarında Rusiya tərəfdarı olan Azərbaycan siyasilərindən biri belə məzmunlu bəyənat verdi: "***Biz, Federativ Azərbaycanı idarə etməyə hazırıq."*** məsələ aydındır. Azərbaycanda Rusiyanın xeyir-duası ilə Qarabağ münaqişəsi yaradılır, Talış Muğan Respublikasının yaradılmasına cəhd edilir, Qırmızı Kürdüstan respublikası ideyası dövriyyəyə buraxılır və eyni vaxtda, yuxarıdakı bəyənat səslənir. Yəni Rusiyanın çoxvariantlı pozuculuq paketi Demokl qılıncı kimi başımızın üzərindədir. (bax: **Xəritə 7**)

3. ***Azərbaycanın könüllü olaraq Rusiyanın protektoratına çevrilməsi və ya onunla strateji müttəfiqliyə getməsidir.*** Əlbəttə, bu variant daha az ağlabatandır. Və ancaq 2-ci variantda qeyd etdiyimiz rusiyapərəst qüvvələrin Azərbaycanda hakimiyyəti ələ keçirməsi, milli-demokratik qüvvələrin tamamilə sıradan çıxarılması halında ehtimal kimi mümkün ola bilər. Belə Azərbaycan Rusiya üçün çox əlverişlidir. Bununla Rusiya nəinki problemini Azərbaycanda, hətta bütün Orta Asiya və cənub-şərqdə həll etmiş olar. Rusiya həmişə bu variantı gündəlikdə saxlayıb, saxlayır və saxlayacaqdır. Azərbaycan bunu heç vaxt yaddan çıxarmamalıdır. ***Deməli, Rusiya Qazaxıstana prioritet verərək cənub, cənub-qərb və cənub-şərqə çıxmaqla dayanıqlı təsir imkanına malik olmur və Azərbaycana da təsir edə bilmir, Yeni Dünya Düzəninin regiona gəlişini önləyə bilmir. Amma Rusiya Azərbaycana***

***prioritet vermәklә hәm Qazaxıstan mәsәlәsini avtomatik olaraq hәll etmiş olur, hәm cәnub, hәm cәnub-qәrb vә cәnub-şәrqdә tәsir dairәlәrini dayanıqlı edir, hәm dә Yeni Dünya Düzәninin regiona gәlişini önlәyir.***




Хәритә 7

İkinci dövlәtin – Türkiyәnin bölgәyә tәsir üçün götürdüyü istiqamәt Azәrbaycandan keçmәklә Orta Asiyaya yönәlib. Bu xәtt hәm dә bir özәlliyә malikdir. Çünki Fransa-Almaniya-Polşa-Ukrayna xәttinin davamıdır. Yәni bu davamiyyәt bir tәrәfdәn Avropa ilә Qafqazlar vә Orta Asiyanı bütövlәşdirmәk missiyasını daşıyırsa, digәr tәrәfdәn Ukraynanın özünün mövqelәrinin möhkәmlәnmәsinә, tәhlükәsizliyinin zәmanәtli

olmasına yardım edir. ***Ukraynanın möhkəmlənməsi isə Rusiyanın Şərqi Avropada ciddi zəifləməsidir. Ukraynasız Rusiya heç bir imperiya ambisiyasına baş vura bilməz.*** Ukraynasız Rusiyanın bu yöndə bir neçə cəhdi olsa da, əhəmiyyətsiz oldu. Əvvəl Belorusla bir slavyan birliyi, sonra Orta Asiya respublikaları ilə dərin inteqrasiya layihələri heç bir effekt vermədi. U***kraynanın cənub-şərqdən alacağı cinah dəstəyi onun mövqelərinə və bütövlükdə, Avropaya ciddi kömək olacaqdır. Əlbəttə, bu kömək təkcə Türkiyə vasitəsilə deyil, "Turan" Avrasiya Bloku vasitəsilə olacaqdır. Türkiyənin bu zolaq boyu çıxışı isə Azərbaycandandır. İkinci bir dəhliz yoxdur. Bu, coğrafi mənada da ciddi mahiyyətli bir önəm daşıyan Azərbaycanı yenə diqqət mərkəzinə çəkir. Yenə çox şey burada həll olunur.*** Türkiyənin bölgəyə təsir imkanları həm də iqtisadi inteqrasiyanın səviyyəsi ilə ölçülür. Xəzər hövzəsi və Orta Asiya resurslarına çıxış, onların işlənməsi, daşınması Azərbaycanın iştirakı olmadan, sadəcə, mümkün deyildir. Bu həm Türkiyənin özünün qədim “İpək yolu” layihələrində iştirakı və xeyir götürməsi, enerji istehsalçısı kimi tələbatının ödənilməsinə, həm transport dövlət kimi qazanması, həm də geosiyasi əhəmiyyətini artırmasına xidmət edəcəkdir. Üstəlik, Fransa-Almaniya-Polşa-Ukrayna zolağının bu inteqrasiyaya qoşulması ilə əsasən Almaniya və Polşa üçün həyati əhəmiyyətli olan Ukraynanın təhlükəsizliyinə və Rusiyadan iqtisadi asılılığının olmamasına xidmət edəcəkdir. Depo Azərbaycan olacaqdır. ***Həm Avrasiya xəttində ötürücü, həm də karbohidrogen istehsalçısı və ixracatçısı kimi Azərbaycanın enerji ehtiyatlarının Ukraynaya daxil olması ilə Ukrayna Rusiya enerji ehtiyatlarının asılılığından qurtulacaqdır. Ukraynanın isə belə möhkəmlənməsi Qara dənizdə Ukrayna-Türkiyə tandeminin Rusiyanı udmasına, Rusiyanın Qara dənizdə və bölgədə təsir imkanlarının azaldılmasına gətirib çıxaracaqdır.*** Ukrayna 1999-cu ildə taxıl yığımı ilə bağlı yanacağa olan ehtiyacını böhran

vəziyyətində Azərbaycandan göndərilən yanacaq hesabına həll etdi. Seytnot vəziyyətini Rusiya bilərəkdən yaratmışdı. ***Göründüyü kimi Ukraynanın ayaq üstə durması və geosiyasi oyunlarda əhəmiyyətli fiqura çevrilməsi xeyli dərəcədə Azərbaycana bağlıdır. Həmçinin Türkiyənin həm yerləşdiyi bölgədə geosiyasi çəkisi, həm də Qafqazlar və Orta Asiyaya təsiri Azərbaycandan əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycanın katalizatorluğuilə Fransa-Almaniya-Polşa-Ukrayna zolağının axırıncı üzvü-Ukrayna və Türkiyə-Azərbaycan-Orta Asiya respublikaları zolağının birinci üzvü olan Türkiyənin regionda belə möhkəmlənməsi bu iki təhlükəsizlik zolağının bağlanacağı həlqənin-Ykrayna-Türkiyə həlqəsinin davamlılığının, möhkəmliyini və etibarlılığını təmin edir. Bu iki zolağın birləşməsi nəhəng Avrasiya təhlükəsizlik zolağını ortaya çıxarır. Ərazisində 230 milyon əhalinin yaşadığı birinci zolaqla, ərazisində 138 milyon əhali yaşayan ikinci zolaq birləşdikdən sonra faktiki olaraq Yeni Dünya Düzəni siyasətini dayandırmaq, hətta ləngitmək belə mümkün deyildir. Üstəlik, perspektivdə ikinci zolağa Gürcüstan, Əfqanıstan, Pakistanın da qoşulması mümkündür.*** Bu nəhəng zolağın yaranmasının əhəmiyyəti bir də ondadır ki, Əks Alyans dövlətləri olan Rusiya, Çin, Hindistan, İran kimi dövlətlər belə nəhəng birliklə qarşıdurmaya getmənin mənasız olduğunu anlayacaq və əməkdaşlığa getməyə məcbur olacaqlar. ***Mənim təklifim də qarşıdurmaya, silahlı toqquşmaya, hansısa dövləti çökdürməyə, məhv etməyə getmədən, sadəcə, Yeni Dünya Düzəni tərəfdarlarını gücləndirməklə Əks Alyans dövlətlərini əməkdaşlığa cəlb etmək, bəşəriyyətin təhlükəsizliyini və inkişafını təmin etməkdir. Hesab edirəm ki, Fransa-Almaniya-Polşa-Ukrayna zolağı+ABŞ+"Turan" Avrasiya Bloku zolağı halındakı düstur Əks Alyans dövlətlərinin də demokratik konsolidasiyası və sosial modernləşməsinə səbəb olacaqdır.*** Bu isə Yeni Dünya Düzəni siyasətinin baş tutması deməkdir.

***Üçüncü***, İranın nüfuz xəttidir. Bu da iki istiqamətdə olan xəttdir ki, birinci xətt Türkmənistan, Tacikistan və Əfqanıstana; ikinci xətt isə Quzey Azərbaycandan keçərək Rusiyanın cənubundakı müsəlmanlarla məskunlaşmış zəngin əyalətlərə istiqamətlənib. İranın Türkmənistan, Tacikistan və Əfqanıstana çıxışı nəticə etibarilə necə olur - olsun, bu nəticənin sonrakı taleyi İranın şimala istiqamətlənən təsir xəttinin taleyindən asılı olacaqdır. ***iranın taleyində Azərbaycanın rolu başqa dövlətlərdən xeyli fərqlidir. İran-Azərbaycan münasibətlərində bir pozulmuş status-kvo məsələsi var.*** Azərbaycan 1813, 1828-ci illərdə Rusiya və İran tərəfindən parçalandıqdan sonra iki əsrdir ki, həm Güney, həm də Quzey Azərbaycanda qalxan-enən xətlə bir azadlıq mübarizəsi gedib, zaman-zaman həm Güney, həm Quzey Azərbaycanda Milli Azadlıq Hərəkatı baş verib, hətta bəzən qalib gələrək, bir müddət müstəqil dövlət kimi fəaliyyət də göstəriblər. ***1991-ci ildə Rusiya imperiyasının tərkibindən çıxaraq öz müstəqilliyini əldə etmiş Quzey Azərbaycan dünya dövlətləri sırasına Azərbaycan Resnubliası adı ilə qatıldı. Amma bu hələ o demək deyil ki, Azərbaycan tarixi ədalətsizliyi tam bərpa etdi. 1828-ci il bölünməsindən sonra Qyzeydə qalmış ərazinin heç də hamısı üzərində Azərbaycan dövlətçiliyi bərpa olunmadı. Rusiyanın zorla Aərbaycandan ayırdığı qərb hissələrn üzərində bir forpost Erməiistan yaradıldı, sonradan Zəngəzurun bir hissəsi bu yeni yaranmış dövlətə - Ermənistana verildi. Zaman-zaman 1988-ci ilə qədər Bu ərazilərdən yerli xalq - Azərbaycan türkləri qovuldu.*** Həm də paralel olaraq Quzey Azərbaycanın yeni yaranması Ermənistanla sərhəd bölğələrindən ərazilər müxtəlif adlar altında Ermənistana verildi. Quzey Arzərbaycanın bir hissəsi də Gürcüstana verildi. Dərbənd və ətrafı Rusiyanın tərkibinə qatıldı. Amma prinsip etibarilə Rusyanın işğalındakı olmuş Azərbaycan ərazilərinin bir hissəsində Azərbaycan dövlətçiliyi bərpa olundu və Azərbaycan Respublikası adı ilə dünya dövlətləri sırasına girdi.

***Mən, 1991-ci il 18 oktyabrda Azərbaycan Respyblikasının Müstəqillik Aktının qəbul olunduğu gün Respublika Ali Sovetinin (parlamentin) deputatı kimi təklif etdim ki, dövlətin adı Şimali Azərbaycan Respublikası kimi göstərilsin.*** Çox təəssüf ki, o vaxt nə mövcud parlament, nə hadisələrə real təsir imkanı olan milli - demokratik müxalifət düşərgəsi, nə hökumət, nə də ümumiyyətlə ictimaiyyət bu fikri tam həzm etməmişdi və müdafiə etmədi. Amma tarixi təcrübələr göstərir ki, belə məsələlər səthi dekorativ xarakter daşımır. Əslində bu cür adlandırma, ölkənin müstəqillik qazanmış hissəsindən kənarda qalan bir cənub hissəsinin də olduğunu təsdiq və təsbit edirdi. Almaniya II Dünya müharibəsində məğlub oldu və əraziləri iri dövlətlər arasında bölündü. Sonradan Almaniyanın Qərb hissəsində bir Almaniya Federativ Respublikası yaradıldı. O vaxt Almaniya kansleri Adenaurun təşəbbüsü ilə Almaniya Konstitusiyasına bir maddə salındı və burada göstərildi ki, Almaniyanın Şərq hissəsi müvəttəti olaraq əsas hissəsindən ayrılıb. Bu fikri konstitusiyaya salmaq, xeyli xarici təzyiqlərə sinə gərmək hesabına başa gəldi. Amma Almaniyanın o vaxtkı liderləri bununla Almaniyanın gələcək nəsillərinə bir milli hədəf verdilər və üstündən 50 il keçdikdən sonra bu hədəf fəth olyndy. Alman xalqı, Alman dövləti birləşdi. Bizlər 1991-ci ildə etdiyimiz təkliflə oxşar perspektiv nəzərdə tuturduq. Bu həm Azərbaycan xalqının milli hədəfinin konstitusiyada, dövlətin adında rəsmiləşdirilməsi idi, həm də Azərbaycanı tanıyacaq dövlətləri o andan etibarən haradır Güney Azərbaycan, nə baş vermişdir orada, Azərbaycan üçün ədalətli Status-kvo nə cürdür? kimi suallar düşündürəcəkdi. Konstitusiyaya təklifim qəbyl olunsa idi, bu həm də чox ciddi prestij olacaqdı. Bundan sonra Azərbaycanın bütövlüyü uğrunda mübarizə dünya tərəfindən sürpriz kimi qarşılanmayacaq, müdafiə olynacaqdı. Doğrudur, Azərbaycan Respublikasının artıq mövcudluğu belə İran üçün ciddi narahatlıq doğuran faktdır. Bu narahatlıq həm də İran rejiminin mahiyyətindən qaynaqlanır. Yəni İran rejimi

demokratik olardısa, onda bu qədər ciddi narahatlığa da ehtiyac qalmazdı. Güney Azərbaycan ərazisindəki xalqımızın adi insan haqları tanınsa və hörmət edilsəydi, xalqın mədəni muxtariyyəti tanınsaydı, İranın özünün ciddi narahatlığı əsassız olacaqdı. Amma faktlar başqa şeydir. ***Güney Azərbaycanda yaşayan Azərbaycan türklərinə ikinci növ insanlar kimi baxılır***. Onların hətta öz dillərində məktəbdə oxumaq haqqı belə yoxdursa, buna nə ad vermək olar. Otuz milyondan artıq insana bu cür münasibət necə normal sayıla bilər. ***Azərbaycan Respublikası İranla düşmən olmaq fikrində deyildir. Əgər İran rejimi demokratikləşərsə, Güneydə yaşayan soydaşlarımızış milli və insani haqları tanınar və hörmət olunarsa, onda İranla Azərbaycan arasındakı münasibətlər normal məcraya salına bilər.*** Məsələn, birinci mərhələdə Güney Azərbaycana mədəni muxtariyyət vermək, ikinci mərhələdə bir demokratik, konfederatv dövlət yaratmaq olar. Quzey Azərbaycan bu konfederasiya ilə çox ciddi, normal, təkamülə söykənən bir münasibətlər sistemi qurar. Konsolidasiyanı dərinləşdirərək mədəni, siyasi, ticari, iqtisadi əlaqələri bütövləşdirmək səviyyəsinə qədər inkişaf etdirmək olar. Bu İran üçün də çox sərfəli variant olar və dünyadan təcrid olunmuş vəziyyətdən, dünya ailəsinə tam konsolidasiya olunmuş, Yeni Dünya Düzəni siyasətini həyata keçirən, inkişaf etmiş, təhlükəsizliyi təmin olunmuş şəkil alar. ***Əslində Qərb də, ABŞ da İranın belə bir demokratik konfederasiya şəklində Yeni Dünya Düzənində iştirakına və dosta çevrilməsinə maraqlıdır. İranın belə bir modernləşməyə məruz qalmasını nasaz atom silahının sökülüb, onun komponentlərindən iqtisadi xeyir verən Atom Elektrik Stansiyası yaradılmasına bənzətmək olar. Bu proqramın reallaşması üçün güclü Quzey Azərbaycan Respublikasının mövcudluğu əvəz olunmaz, əsas şərtdir. Təbii ki, bu proqram gerçəkləşərsə, Yeni Dünya Düzəni asanlıqla Yaxın və Orta Şərqdə reallaşacaqdır. Onsuz da İran demokratikləşməyə, imperiyadan normal dövlətə***

***çevrilməyə məhkumdur-bütün imperiyalar kimi. Amma təklıf olunan yol təhlükəsiz, qansız, təkamül yoludur. İranın dövlət strukturlarında belə oxşar prinsipləri müdafiə edən islahatçı siyasi elita vardır. Amma mühavizəkar, imperiya ambisiyalı siyasət İranda nə qədər ki dominant olacaqdır, İran Azərbaycan məsələsində arzuladığımızdan fərqli mövqe tutacaqdır. İmperiyanı saxlamaq, hətta böyütmək iddiasında olan İran siyasi elitası bu imperiyanın mövcudluğuna Quzey Azərbaycanın təhlükə olduğu qənaətindədir.*** Onlar Quzey Azərbaycanın on yeddi şəhərinin İrana məxsys olduğunu bəyan etməyə qədər irali getmiş, bir qrup adamın guya İrana birləşmək haqda müraciətlərini yaymışlar. 1993-cü ildə Milli hökumətin devrilməsi ilə nəticələnən qiyamı İranın Bakıdakı səfirliyi rəsmən himayə etmiş həmin il Talış-Muğan Respyblikası yaratmaq iddialı separatçı hərəkatı dəstəkləmişdir. Azərbaycanla müharibə aparan Ermənistana maddi, mənəvi, hərbiköməklik göstərmiş, Azərbaycanı zəiflətmək üçün özünün gömrük və başqa siyasətlərində sərt dəyişikliklər etmişdir. Azərbaycana qarşı siyasi təzyiqlərə Rusiya ilə eyni mövqedən çıxış etmişdir. Həm Xəzərin statusu, həm neft yataqları, neftin istehsal və daşınması məsələlərində bu, tam çılpaqlığı ilə özünü göstərmişdir. ***İran Azərbaycanın müstəqilliyinin olmamasında, olacağı təqdirdə çox zəif olmasında maraqlıdır. İlk növbədə, Quzey Azərbaycanın durumu İranda daxili duruma ciddi təsir edir. İkincisi, güclü Azərbaycanın Güney Azərbaycandakı 30 milyon soydaşının taleyinə biganə qalmayacağı, 30 milyonun insani, milli haqları tanınmazsa, Azərbaycanın bütünləşməsi üçün stimul yaranacağı nəzərdə tutulur.***

Digər məsələ regional siyasətlə bağlıdır ki, bu da İranın taleyüklü məsələlərindəndir. Zəif Azərbaycanın xarici təsirə, o cümlədən İranın təsirinə düşməsi üçün ciddi səy lazım olmaycaq. ***Azərbaycanı təsir dairəsinə sala bilərsə, İranın Rusiyanın cənub bölgələrində işi çox asanlıqla gedər. İran***

***Rusiya ilə strateji müttəfiq olmasına baxmayaraq, Rusiyanın qeyri-müəyyənliyinə hazır olmağı lazım bilir. Hər ehtimala qarşı, Rusiya çökərsə və yeni dövlətlərə çevrilərsə, İran Rusiyanın cənbunda buyer zona yaratmaq arzulayır. Əlbəttə, bu zona dövlətlərinin kiçik, İran meylli islam dövlətləri olması şərti ilə. Yenə hər şey Azərbaycanla bağlıdır. Çünki bu təsir xətti Azərbaycandan keçir.*** Rusiya əhalisinin 13%-i müsəlman olduğundan hətta Rusiya çökməsə belə, İranın Azərbaycandan keçməklə təsirini Rusiyaya ötürməsi çox önəmlidir. Göründüyü kimi, İranın şimal istiqamətli təsir oxununun hədəfə dəyməsi də birbaşa Azərbaycanla bağlıdır. Buna görə, İran öz xarici siyasətində Azərbaycana prioritet verir. ***İran Azərbaycanı öz təsiri altına salarsa və saxlayarsa, çox ciddi qlobal siyasi uduşlar əldə edəcəkdir. Əvvəla, Qərbin demokratik dəyərlərinin Azərbaycan vasitəsilə Qafqazlarda, Rusiyanın cənub bölgələrində, Orta Asiyada yayılması önlənər. İkincisi, Avrasiya dəhlizi ilə (İranın) şimal-şərqinə Yeni Dünya Düzəni siyasətinin yayılmasına maneçilik yaradılar, Azərbaycan, əvvəldə də qeyd etdiyimiz kimi, Avrasiya dəhlizində tıxaca çevrilər. Ciddi iqtisadi dividentlər götürməyə çalişan İran hökuməti dəfələrlə Azərbaycana neftin İran ərazisindən daşınması variantlarını təklıf edib. (bax: Xəritə 8)***




Хәритә 8

Həmin variantlardan biri budur ki, Azərbaycan öz neftini Ənzəlidə İrana verir və əvəzində Kəngər körfəzində eyni miqdarda neft alır. İqtisadi baxımdan sərfəli olan bu variantda

İran həm özünün şimal ərazilərinə ölkəsinin ucqarlarından neft daşımaqdan azad olur, həm də keyfiyyətli Azərbaycan neftini ucuz qiymətə alıb özünün şimal ərazilərindəki neft emal edən zavodlarında komponentlərə ayıraraq ölkədaxili tələbatını ödəyir, həmçinin xarici bazara çıxarır. Bu variant əslində Azərbaycan üçün də sərfəli görünür. Azərbaycan ucuz yolla neftini Kəngər körfəzinə-yeni bazarlara çıxarır.

İkinci variant İrandan keçməklə Kəngər körfəzinə qədər kəmər çəkilişi variantıdır. Bu variant da iqtisadi cəhətdən sərfəlidir və Bakı-Ceyhan xəttindən xeyli ucuz başa gəlir. Göründüyü kimi, İran Azərbaycanı öz təsir dairəsinə keçirsə, Azərbaycanda və bölgədə ciddi möhkəmlənmək imkanları vardır. Bu istiqamətdə möhkəmlənən İran rahatlıqla şimal-şərq istiqamətli təsir imkanlarını reallaşdıra və dayanıqlı edə bilər. Türkmənistan, Tacikistan və Əfqanıstanda münbit zəminin olması həm bu ölkələrin coğrafi mənada Avropadan aralı düşməsi, həm də fərqli sivilizasiyaya malik olmasıdır. Üstəlik, yaxın tarixdə Türkmənistan və Tacikistanın Rusiya tərkibində olması, otuzuncu illərin axırına qədər bu respublikalar da daxil, Orta Asiya resiyblikalarının Qırmızı işğalçılara - bolşeviklərə qarşı milli-azadlıq mübarizəsi aparması unudulmayıb və bu mübarizə həm də islama qarşı olanlar əleyhinə bir cihad kimi də özünü tanıdıb. Yəni xristian Rusiyanın bölgədəki vəhşiliyi, sürgün və repressiyalar kütləvi güllələmələr, dini ocaqların dağıdılması, din azadlığının 1990-cı illərə qədər qadağan olynması Rusiya timsalında Qərbə qarşı bir antipatiya, inamsızlıq yaradıb. Rusiyanın 1980-ci illərdə Əfqanıstana hücumuda eyni effektin yaranmasına səbəbdir. Və bu din amili də həm adlarını çəkdiyimiz Orta Asiya ölkələrində, ham də digər müsəlman ölkələrində İranın Qərb dövlətlərilə rəqabət imkanını artırır. Əlbəttə, siyasi maarifçiliyi yüksək olan təbəqələr Qərbin və Əks Alyansın istək və fəaliyyətinin arxasında nə durduğunu anlayırlar. Amma məsələ burasindadır ki, cəmiyyətin maarifçi təbəqələri bu ölkələrdə müxtəlif səbəblərdən azlıq təşkil edir. Üstəlik,

keçmiş Sovet Respublikaları olan Orta Asiya ölkələrində, eləcə də Əfqanıstanda müəyyən qədər ziyalı elita Rusiya tərəfindən birbaşa və ya Rusiya məktəbinin təsiri ilə formalaşdırılıb ki, bunlar da Qərb sisteminə ya bağlı deyil, ya da dərindən bələd deyil. Bu amil də İranın xeyrinə işləyir. Həm də Qərbin regiona gecikməsi SSRİ dağıldıqdan sonra vakuum xarakterli durumda olan bölgədə İranın sistemli təsir imkanları, rıçaqları formalaşdırmasına şərait yaradır. ***Orta Asiya ölkələrindən, eləcə də, Qafqazdan və Azərbaycandan on minlərlə gənc təhsil almaq üçün İrana gedir və ya aparılır. Bu insanlar təkcə mütəxəssis kimi deyil, həm də İranmeylli vətəndaş, gələcək siyasi elitanı formalaşdıracaq şəxslər kimi qayıdırlar.*** Ticarətin, iqtisadi əlaqələrin də coğrafi əngəl olmadığından artırılması başqa bir təsir amilidir. Əfqanıstan kimi ölkələrə isə Qərbin yad, ögey, bəzən ifrat qərəzli münasibəti bu ölkələrin İran və ümumiyyətlə, Əks Alyans ölkələrinə meyl etməsinə səbəb olur. İranın bölgəyə təsir imkanlarının səthi də olsa, nəzərdən keçirib gördük ki, İran, əsasən, aşağıdakılardan bəhrələnir:

1. Ticarət və iqtisadi inteqrasiya;
2. Maariflənmədəki zəiflik;
3. SSRİ dağıldıqdan sonra yaranmış vakuum;
4. Din amili;
5. Sivilizasiya fərqi;
6. Beynəlxalq təsisatların ögey münasibəti.

Bu tam olmayan təsnifatdan da görünür ki, ***Yeni Dünya Düzəninin regiona gəlişi üçün təklıf etdiyimiz "Turan" Avrasiya Bloku forması alternativsizdir.*** "Turan" Avrasiya Bloku formalaşarsa, burada eyni sivilizasiyaya malik blokun Avropa Evi ilə sivilizasiyalararası dialoqu mümkün, asan və nəticəli olacaq. Əks halda, yuxarıda göstərdiyimiz çeşidli səbəblərdən tək-tək ölkələrinin hazır Avropa ilə inteqrasiyası və bütövləşməsi mümkün olmayacaq. Eyni fikri din aqda da

deмək olar. ***Müsəlman dövlət olan Azərbaycanın fəal vasitəçilik və iştirakı, Türkiyənin iştirak və himayəsi ilə eyni dinli bu ölkələrin "Turan" Avrasiya Blokunu formalaşdırmaq olduqca asandır və sonrakı mərhələdə əsasən islam ölkələrindən ibarət "Turan" Avrasiya Bloku, əsasən xristian Avropa Evi ilə dinlərarası dialoq yarada və istənilən nəticəni ortaya qoya bilər.*** Hər iki din bəşəriyyətin əmin-amanlığını, inkişaf və təhlükəsizliyini özündə ehtiva etdiyindən bu dialoqun arzuolunan sonluqla bitəcəyi məlumdur. Bloklararası danışıq həm də ona görə asan və başadüşüləndir ki, burada tərəflərin birinin digərindən istənilən müstəvidə xeyli fərqi yoxdur və tənsay (paritet) əsaslıdır. Əlbəttə, təxmini anlamda. Üstəlik, dinlərarası dialoqun xoş sonluğu ona görə qaçılmazdır ki, hər iki dinin fəlsəfəsində olduğu kimi, Yeni Dünya Düzəni siyasətinin fəlsəfi əsasında da bəşəriyyətin bir ailə olaraq birlik və bərabərlik içərisində, təhlükəsiz, ədalətli, zor işlətmədən, inkişafı əsas götürən yaşam tərzi durur.

"Turan" Avrasiya Bloku formalaşdıqdan sonra digər məsələlər də həllini tapacaqdır. Ticarət və iqtisadiyyatda Qərbin çəkisinin artması qısa zamanda mümkün olacaqdır. Ə***vvəla***, Xəzər hövzəsi və Orta Asiya resursları deposunun açarı olan Azərbaycan birmənalı olaraq oriyentasiyasını müəyyən edib. ***İkincisi,*** regiona yeni dəyərlərin ötürülməsi missiyasında inamlı, sədaqətli və hazırdır. ***Üçüncüsü***, Qərbin Azərbaycanla bağlı iri iqtisadi layihələrində Orta Asiya və Qafqaz ölkələrinin iştirak etməsinə Azərbaycan müsbət yanaşır. ***Dördüncüsü***, Qərbin təsir rıçağı olmayan, İranınsa istifadə etdiyi hər iki rıçaq Azərbaycanda var – dilbirliyi, eyni sivilizasiyaya aid olma.

Regiondakı ticarət və iqtisadiyyatda ABŞ və Qərbin çəkisinin artmasını əsaslandıran digər amil bu ölkələrin İrandan xeyli varlı olması, blok fəaliyyəti, investisiya qoyma imkanlarının geniş olmasıdır. ***Tərəflərin gücünün kəskin***

***fərqi, ancaq bir amildən asılı qalır: Azərbaycan tərəzinin hansı gözündə olacaqdır? Azərbaycan seçimini edibdir.! Azərbaycanı qorumaq və dost ailəsində təhlükəsiz saxlamaq isə Yeni Dünya Düzəni siyasətinin gerçəkləşməsini istəyənlərin öhdəsindədir.***

***Buradan belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycanın fəal iştirakı ilə regiondakı qlobal problemlər həll edilə bilər. Həm də SSRİ dağıldıqdan sonrakı vakuum doldurula, maarifləndirmə və s. məsələlər qısa müddətdən sonra Azərbaycanın Qərb dəyərlərini və Yeni Dünya Düzəni prinsiplərini regiona ötürməsindən sonra həll edilə bilər.*** İran bütün bu sadalanınları bildiyindən, şimal-şərq təsir xəttinin taleyinin də Azərbaycandan asılı olduğunu anlayır və ona görə də, siyasətdə prioriteti Azərbaycana verir.

## YDD-nin Yzaq Şərqdə bərqərar olması TAB-a bağlıdır

Amerikada YDD-nin ***birinci platsdarmı*** yarandıqdan sonra ABŞ Avropada ***özək platsdarmı*** yaratdı. YDD-nin dünyada hakim olması üçün Asiyada da onun prinsiplərinin həyata keçməsi lazımdır. ***Üçüncü platsdarm kimi təklif etdiyimiz TAB formalaşarsa, əhatə etdiyi Qafqazlar və Orta Asiyada bu prinsiplər dönməz xarakter alacaq.*** TAB həm də Uzaq Sərqdə YDD-nin həyata keçməsi üçün dayaq məntəqəsi olacaqdır. Yəni bu platsdarm əhatə etdiyi ərazilərdən savayı, Uzaq Sərqi də xoşməramlı xidmətə məcbur edəcəkdir. ***Əslində ABŞ YDD mühəndisi kimi tələsmədən Uzaq Şərq regionuna təsirini daha çox Qərbdən deyil, Şərqdən-Yaponiya və Cənubi Koreyaya prioritet verərək qurur. Bu yanaşma ciddi effekt verəcək səviyyədə və dayanıqlı deyil.*** Əvvəla, ABŞ Yaponiyaya güvəndiyi qədər də ehtiyat edir. Hətta bəzi analitiklər iddia edirlər ki, ABŞ yapon militarizmindən ehtiyat edir və bu amil üçüncü dövlətlər tərəfindən ABŞ-Yaponiya münasibətlərinin korlanması üçün stimul ola bilər. Digər tərəfdən, Yaponiya özü dünya hegomoniyasi iddiasında olmuş və bu iddianı tamamən unutmamış dövlətdir. Bir də ki, bu dövlət özü güvənilesi vəziyyətdə, daha doğrusu, gücdə deyildir və olsa-olsa, ABŞ-ın hərbi bazası funksiyasını daşıyır. Yaponiya ABŞ-a söykənc yeri deyil, ABŞ-ın himayəsinə ehtiyacı olan bir dövlətdir. İkinci köməkçi faktor kimi Şərq ölkəsi Cənubi Koreya sayıla bilər. Bu ölkələr – Cənubi və Şimali Koreya birləşmə ərəfəsində olduğundan hələ vahid dövlətin oriyentasiyası haqda da ciddi bir fikir söyləmək mümkün deyil. Ümumiyyətlə, Уzaq Şərqdə geosiyasi üstünlük Əks Alyans dövlətlərinin, əsasən, Çinin tərəfindədir. Çin özünü regionda çox inamlı hiss etdiyindən regional hegemonluğunu dönməz təsbit etdiyi qənaətindədir və dünya hegemonluğu haqda açıq mətnlə çıxış etməkdən belə çəkinmir. Onlar dinc yolla ABŞ-ın şəxsində YDD iddiaçılarını regionda məğlub edib, dünya hegemonluğuna addımlamağı nəzərdə tuturlar. 1994-cü

ildə Den Syaopin belə bir bəyanatla çıxış etdi: "Strategiyamız budur. Birincisi, hegemonluq və güc siyasətinə qarşı dayanıb, sülhü müdafiə etmək; ikincisi, yeni iqtisadi və siyasi beynəlxalq qayda yaratmaq." ***Buradan aydın görünür ki, Əks Alyans dövlətlərindən ən nəhəngi Çin nəinki Yeni Dünya Düzəni prinsiplərini qəbul etmək istəmir, hətta öz həyat tərzi, iqtisadi sistem və yanaşmasını, Əks Alyans dövlətləri siyasətini dünya siyasətinə çevirmək istəyir.***

Region özünəməxsusluğu ilə yanaşı, həm də həddən artıq ciddi silahlanmış nəhəng hərbi potensiala malikdir. 1995-ci il araşdırmaları göstərir ki, həmin il ən çox silah idxalı bu regionda olmuşdur. Bu regionda 3000000 (üç milyon) ordusu olan Çin, 1000000(bir milyon) ordusu olan Hindistan, 580000(beş yüz səksən min) ordusu olan Pakistan, bir milyondan artıq ordusu olan Şimali Koreya, 630000 (altı yüz otuz min) ordusu olan Cənubi Koreya kimi nəhənglər yerləşir və sürətlə silahlanır. Üstəlik, son illər regionun iqtisadi inkişafı elə vüsət almışdır ki, hətta inkişaf etmiş Qərb dövlətlərini belə bir çox göstəricilərdə geri qoymuşdur. Bu iqqisadi İnkişaf həmin ölkələrdə milli ambisiyaların da dirçəlməsinə səbəb olmuşdur. Kitabın əvvəlində gostərdiyimiz kimi, bəzən bu cür iqtisadi inkişaf özü də regional destabilizasiya faktoryna çevrilir. Əlbəttə, belə dövlətlərin siyasəti dünyanın xoşməramlı siyasətilə uzlaşdırılmayanda. Çinin son illərdə keçirdiyi iqtisadi inkişaf yolu həm də onun modern silahlarla silahlanmasına da səbəb olmuşdur. Necə deyərlər, bu dövlət özünü start vəziyyətinə hazırlamışdır. Uzaq Şərqdə elə bir ciddi rəqib görməyən Çin qərb cinahının boş olduğunu, SSRİ dağıldıqdan sonra Rusiyanın zəyif düşdüyünü görür və irəli addımlamağa hazırlaşır. ***ABŞ və Qərbin TAB nəzərdə tutulan regiona gəlişinə itirdiyi vaxtı Çin qazanır. Yerləşdiyi bölgədə Çin kifayət qədər ciddi platsdarm formalaşdıra bilmişdir. Çinin region ölkələrinə təsiri təkcə nəhəng ərazi, hərb, əhali potensialı ilə qorxutmağa bağlı deyil. Bu dövlət region dövlətlərinə ciddi maliyyə təsirinə malikdir.*** Cənub-

Şərqi Asiyanın beş yüz aparıcı kompaniyasında Çin iş adamlarının payı 540 milyard dollara bərabərdir. Təsdiq olunmuşdur ki, xaricdə yaşayan Çinlilər İndoneziya iqtisadiyyatının 90%-nə, Tailand iqtisadiyyatının 75-%-nə, Malayziya iqtisadiyyatının 60%-nə nəzarət edirlər. Tayvan, Hon-Konq, Sinqapur iqtisadiyyatına isə demək olar ki, tamamilə nəzarət edirlər. Bu göstəricilər o dərəcədə analitikləri narahat edir ki, hətta adı çəkilən ölkələrdə Çinin "əldəqayırma hökumətlər" qurmasına narahat olurlar. Regionda Çinin hərtərəfli təsir dairələri qurması bölgə dövlətlərinin istər-istəməz onun apardığı siyasəti dəstəkləməsinə gətirib çıxarır. Məsələn, Tailand Baş Naziri 1997-ci ildə Pekinə səfər edərkən bəyan etdi ki, ***Tailand Böyük Çinlə strateji ittıfaq tərəfdarıdır və Çini dünya siyasətini müəyyən edən dövlət kimi qəbul edir.*** Tailand Çinlə ASEAN arasında körpü rolu oynamağı da Çinə təklif etdi. Sinqapur isə Çinlə bir bütün olduğunu bəyan etdi. Göründüyü kimi, Çin çox geniş fəaliyyət göstərə bilib və o da ciddi bir platsdarm üzərindən starta hazırlaşır. ***ABŞ və Qərb dövlətləri YDD özək platsdarması olan Avropada, Çin Uzaq Şərq platsdarmasında dayanıb. Son sözü TAB regionunu qazanan deyəcəkdir.*** Etiraf etmək lazımdır ki, Avropa təsisatlarına oxşar bütün təsisatlar Uzaq Şərqdə qurulub. Məsələn, Cənub-Şərq dövlətlərinin Assosiasiyası-ASEAN, Asiya Regional Forumu-ARF, Asiya, Sakit okean ölkələrinin iqtisadi əməkdaşlıq qrupu-APEK kimi təsisatlar formalaşmışdır. ***Çox da əmin şəkildə təkcə Avropa strukturlarına güvənməyə dəyməz. ƏA ölkələrinin, o cümlədən liderlərdən olan Çinin ciddi müqavimət və irəliləmə imkanları var.*** Artıq Asiya dünyanın iqtisadi ağırlıq mərkəzinə çevrilmişdir. Bu inkişaf da ambisiyalara rəvac verən faktorlardandır. ***Heç bir zəmanət yoxdur ki, YDD tərəfdarları çevik tədbirlər gorməzsə, dünyanın siyasi ağırlıq mərkəzi də bu regiona keçməyəcəkdir və ya ABŞ da daxil olmaqla YDD dövlətləri Orta Asiyadan və sonradan Qafqazlardan sıxışdırılıb***

***çıxarılmayacaqdır.*** Bunun üçün müəyyən zəmin olmaqla yanaşı, müəyyən addımlar da atılıbdır. Hər hansı ölkə hegemonluq iddiasına düşürsə, onun iqtisadi inkişafı yeni iqtisadi mənbələr də axtarmağa vadar edir. Bu cür axtarış, o ***cümlədən enerji mənbələri axtarışı Çinin Orta Asiya və Xəzər hövzəsi enerji mənbələrinə və deməli, bu region dövlətlərinə maraqını xeyli artırıb.*** Çin Orta Asiya postsovet məkanı ölkapərinə xüsysi iştahla baxır. 1996-cı ildə Çin, Rusiya, Qazaxıstan Qırğızıstan və Tacikistanın öz aralarında sərhədlər və təhlükəsizlik haqda müqavilə imzalaması, sonra isə Çin hökumət nümayəndələrinin Qazaxıstana rəsmi səfər zamanı verdiyi bəyanat ciddi siqnaldır. ***Çin rəhbərliyi bu vizıt zamanı bildirmişdir ki, Çin Qazaxıstanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qarantıdır. Bu bayanatı Çinin Orta Asiyadakı ayaq ləpiri kimi də qəbul etmək olar.*** Az qala bu ölkəni öz protektoratı sayan Çin göründüyü kimi, özünü çox inamlı aparır.

Düzdür, Çinin zəif tərəfləri də az deyildir. Aşağıdakı göstərilənləri Çinin ciddi problemləri sırasına aıd etmək olar:

Rusiya-Çin ərazi-etnik mübahisəsi;
Çin-Vyetnam sərhəd mübahisəsi;
Çin-Hindistan sərhəd mübahisəsi;
Çin-İndoneziya okean cərhəd xətti mübahisəsi;
Doğu Türküstan (Uyğurstan) məsələsi vəs.

***Doğu Türküstan məsələsi Çinin ən zəyif və ən ağrılı yeridir. Əvvəla ona görə ki, bu problemin yaranmasının səbəbkarı Çinin özüdür və onun tarixi ədalətsizliyidir. Bu bölgədə ədalətli Status-kvo pozulub və ədalətli Status-kvo bərpa olunmayınca burada köklü, uzunmüddətli sabitlik də mümkün deyildir. Doğu Türküstan ( Çin buranı Sintsyan adlandırır ) 1884-cü ildə Çin tərəfindən işğal olunub. Doğu Türküstan ərazisi bir milyon dörd yüz min kv.k.m-dir Əhalisi 26 milyondan artıqdır.*** Bu 26 milyon rəqəmi təkcə Türklərə aiddir. Əhalinin artım sürətinə görə Doğy Türküstan

qonşu bölgələri xeyli üstələdiyindən Çin rəhbərliyi bu ərazidə "Doğum kontrolu" tətbiq etdi. Əhalinin sürətlə artması Çini ən qəddar vasitələrdən belə çəkindirmədi. Çin 1950-ci illərdən 1990-cı illərə qədər Dogu Türküstanda on dörd nüvə silahı partlayışı sınağı keçirdi. Nəticədə, yüz minlərlə insan öldü, şikəst oldu, çatışmamazlıqlarla doğulan uşaqların sayı dəfələrlə artdı. ***Çinlə sərhəddə xeyli türk icmaları yaşasa da, Türk Dövlətləri mövcud olsa da, Dogu Türküstanın pozulmuş haqlarını ən çox müdafiə edən coğrafi cəhətdən digər türkdilli respublikalarına nisbətən bölgədən uzaqda yerləşən Azərbaycan oldy. Bu müdafiənin önündə Azərbaycan milli Azadlıq hərəkatının lideri, Azərbaycan Xalq Cəbhəsinin sədri, Azərbaycanın ilk demokratik seçilmiş Prezidenti Əbülfəz Elçibəy dayanırdı. Məsələnin mahiyyətini anlamayanlar bu müdafiyəni düzgün qiymətləndirə bilmirdilər. Əslində Doğu Türküstan türkünün haqqını müdafiə etmək təkcə bir millətçilik təzahürü deyildir. Əvvəla,*** insan haqqı və demokratiya heç bir dövlətin daxili işi olmadığından, özünü bu dəyərlərin daşıyıcısı, tərəfdarı sayan hər kəs belə hallarda səsini qaldırmalıdır. ***İkincisi,*** əzilən xalqlar və işğal olunmuş dövlətlər imperialist siyasətə və imperiyalara qarşı birgə mübarizə aparmalıdırlar. ***Üçüncüsü,*** Quzey Azərbaycanı işğal etmiş Rusiya da, Güney Azərbaycanı işğal etmiş İran da, Doğu Türküstanı işğal etmiş Çin də haqları pozulmuş türklərin birgə etirazını görməli və geri çəkilməlidir. Əlbəttə, Rusiyanın işğalı altından təzəcə çıxmış Orta Asiya türklərinin də, Rusiyanın cənub və cənub-şərqində hələ də zillət çəkən türkləri də buraya əlavə etsək, ƏA dövlətlərinin türklərə qarşı münasibəti aydın olar. ***Elə bu Türk faktory da Çinin dünyaya addımlayıb mübarizə meydanları axtardığı zaman imkan verir ki, mübarizə Çinin yaxın sərhədləri və içərilərinə transfer edilsin. İçərilərə-Doğu Türküstanın haqlı mübarizəsini dəstəkləməklə, yaxın sərhədlərə isə TAB vasitəsilə daxil olmaq mümkündür (bax:Xəritə9)***.




Хəритə 9

Əlbəttə, TAB -ın yaradılması və fəaliyyətinin tezləşdirilməsi Doğu Türküstan mübarizəsinin də güclənməsinə əsas zəminlərdən biridir. ***Üstəlik TAB bərqərar olduqdan sonra, TAB-a paralel olaraq Rusiyanın cənubu boyu və Çinin şimalı boyu ikinci Türk xəttinin fəallaşması, konsolidasiyası, təsir imkanlarının hesablaşılacaq səviyyəyə çatması reallaşacaqdır.*** Bunun əhəmiyyəti isə göz önündədir. ***Əvvəla,*** ƏA dəvlətləri bir-birindən sanitar xətlə ayrılır və həmin bufer xətt YDD siyasətinə xidmət edir. ***İkincisi,*** dünya hegemonluğu idaiasında olan ƏA dövlətləri

nəinki dünya, heç regional hegemonluğa belə iddialı vəziyyətdə olmurlar. Seçim qarşısında qalırlar - ya demokratik, konfederativ dövlətlərə çevrilir və ya təcrid olunurlar.

Çinin digər zəif tərəfi olan sərhəd və ərazi mübahisələri də onun arzuladığı regional durumu mümküisüz edir. ABŞ və YDD tərəfdarları bu cür mübahisəli məsələlordən regional siyasi balansı təmin etmək üçün bəhrələnirlər. Əslində ABŞ özü də Çinin tam çökməsində maraqlı deyil və Çinin müəyyən həddə qədər inkişafında maraqlıdır. Bu hədd Uzaq Şərqdəki iri dövlətlərarası balansa xidmət edir. Ona görə, həddini aşmamaq üçün Çinə qarşı xarici vasitələrdən başqa Çindaxili təzyiq siyasəti də tətbiq olunur. Bunu əsasən üç sahəyə ayırmaq olar; ***1) Maliyyə bazarına təsir; 2) Silahlanma yarışına çağırış; 3) Daxildə demokratikləşmə.***

1990-cı illərin sonlarında Çinin qaneedici olmayan inkişaf tempi birdən-birə maliyyə bohranı ilə əvəz olundu. Bu böhran Uzaq Şərqdə inkişafdan ayağının altını görə bilməyən ölkələri əməllicə silkələdi, necə deyərlər, hərəni öz yerinə qoydu. Bu təsadüfi böhran deyildi. Ümumiyyətlə, belə böhranın uzun zaman davam etməsi ölkənin sosial partlayışdan qaçmasına imkan verməz.

İkinci sahə silahlanma yarışına çağırışdır. Yuxarıda da qeyd etmişdik ki, 1995-ci il araşdırmalarına görə, həmin il ən çox silah Uzaq Şərq dövlətləri tərəfindən alınmışdır. Nəzərə alsaq ki, bölgədə üç atom silahına malik döalət var və bu dövlətlərdən savayı, nəhəng ordulara malik dövlətlər yerləşir, məsələnin nə qədər mürəkkəb olduğu görünür. ***Çin daxili milli gəlirin 20%-ni silahlanmaya sərf edir. Bu bir tərəfdən çox təhlükəlidir. Amma belə silahlanma yarışının acı sonucunu SSRİ yaşadı. By imperiyanın daqılmasının əsas səbəblərindən biri sürətlə silahlanma yarışına qatılma idi. Çin də belə bir yarışda sürpriz sonluğa çata bilər.*** Təkcə onu qeyd etmək kifayətdir ki, Çinin ucqarlarında 100 milyonlarla işsiz kəndli var və bu əyalətlər inkişaf üçün böyük vəsaitə

ehtiyaclıdır. Belə vəziyyətdə hərbi sahəyə astronomik maliyyə qoyuluşu risqsiz gediş sayıla bilməz. Sürətlə silahlanan, atom silahına malik dövlətlərlə müharibə aparmırlar. Belə seçim ağıllı sayıla bilməz. Bunu gözəl bilən ABŞ da Çini maliyyə bazarında, silahlanma yarışında rinqə çəkir və effektli zərbələr vurur. ***Bu taktikaları qüvvətləndirəcək ən ciddi amil TAB-ın Çin sərhədinə gəlməsi onu cinahlardan zərərsizləşdirməsi olacaq.***

Üçüncü sahə Çin daxilində ölkənin demokratikləşdirilməsi tələbi və bu istiqamətli təzyiqlərdir. ***ABŞ və Qərbin bu siyasətinə də müsbət stimul vermək üçün TAB-ın əvəzedilməz əhəmiyyəti var. Belə ki, əgər TAB Çin sərhədlərinə çatarsa, yuxarıda qeyd etdiyimiz kimi Doğu Türküstan milli haqları uğrunda mübarizəsini intensivləşdirəcəkdir. Bu isə ölkədaxili demokratik islahatların qaçılmazlığına və təhlükəli Çinin bəşəri dəyərlərə hörmət edən dovlətə çevrilməsinə təkan verəcəkdir.***

***Buradan belə nəticəyə gəlmək olar ki, özəyində Azərbaycan duran TAB-ın ayrıca bir blok kimi Çinin cinahında mövcudluğu Çinin gücünü bəşəriyyətə xidmətə yonəldəcəkdir.***

Vəziyyət isə hələlik belədir ki, Orta Asiyada vakuumdur, ABŞ Uzaq Şərqdə ƏA dövlətləri ilə rəqabəti Şərq cinahında aparır. ***Burada etiraf edək ki, ciddi tərəfdaşlara da malik deyil, üstəlik Şimali Koreya və Cənubi Koreya birləşmə ərəfəsində olduğundan və birləşləşmiş Koreya dovlətinin oriyentasiyası qaranlıq olduğundan ABŞ burada vaxt itirir və Yeni Dünya Düzəni prinsiplərinin regiona gəlişi qeyri-myəyyənliklə qarşılişır.***

***Qafqazlar və Orta Asiya regionu boyunca irəliləmə də özünün durqunluq dövrünü yaşayır. Üstəlik, Avropa Evinin başbilənləri YDD siyasətini həyata keçirmək üçün Avrasiya istiqamətində lənk bir proqram hazırlayıblar.*** Nəzərdə tutulur ki:

1) 2000-ci ildə Mərkəzi Avropa ölkələri NATO-ya qəbul ediləcək, həmin dövlətlərin Avropa İttifaqına qəbulu isə 2002-2003-cü illərə planlaşdırılır.

2) 2005-ci ilə qədər Avropa Birliyi Baltik respublikaları ilə danışıq aparacaq ki, onları üzvülüyə qəbul etsin. O cümlədən Rumıniya bu vaxta qədər birliyə və NATO-ya qəbyl edilə bilər.

3) 2005-2010-cu illər arası Ukrayna Avropa Birliyinə daxil ola bilər.

***Göründüyü kimi, çox lənk bir cədvəldir. hələlik Qafqazlar və Orta Asiya regionu 2010-cu ildən sonraya növbə gozləməlidir. Bu çox qeyri-ciddi yanaşmadır. Bu ləngimə ƏA-ın xeyirinə işləyən amildir.***

# Qərbin va ABŞ-ın itirdiklərini Rysiya tapır

Rusiya da bu ləngimədən yararlanmağa cəhd edir. Hələ 1993-cü ildə Rusiya rəsmilərindən Y.Ambarsumov rəsmi şəkildə iddia edirdi ki, ***keçmiş sovet məkanı Rusiyanın zəruri geosiyasi təsir dairəsidir. Burada Rusiyanın həyati mənafeləri vardır. Hətta Qərbpərəst kimi tanınan Rusiya Xarici İşlər Naziri Andrey Kozırev də çox iddialı bəyanatla çıxış etdi. Bəyanatda deyilirdi ki, Rusiya yüzillərlə onun təsir sferasında olan regionlarda hərbi mövcudiyyətini saxlamalıdır. Bu və oxşar bəyanatlar quruca soz deyildir. Doğrudan da, müstəqilliyini bəyan etmiş postsovet məkanlarında Rusiya 28 hərbi baza saxlaya bilmişdir.*** 1992-ci ildə Rusiya mütəxəssisləri daha ehtiyatlı ifadələrdən istifadə edirdilər. Onlar SSRİ çokdükdən sonra restavrasiya məqsədilə ***"Rusiya üçün strategiya" hazırladılar. Byrada əsas aparıcı xətt postsovet məkanını birgə iqtisadi məkana***

***çevirmək idi. Amma zahirən yumşaq olan doktrinada da "yaxın xaric"ə xüsusi yanaşma var idi. Sənəd geosiyasi məzmunda tamamilə imperiya kontekstində idi. İkili ıfadələrdə Rusiyanın Qərblə strateji əməkdaşlığına işarə olunsa da, şərt kimi Rusiyanın Şərqi Avropa, Orta Asiya və Uzaq Şərqdə vəziyyəti tənzimləyəcəyi göstərilirdi.*** Göründüyü kimi, 1992-ci ildə də hədəf itirilmiş mövqelərin yenidən qazanılması, imieriyanın restavrasiyası idi və subyektlər də aydın göstərilirdi. Amma sonrakı illərdə Rusiya SSRİ-nin dağılması şokundan çıxdıqca daha açıq və sərt movqedən çıxış etməyə başladı. ***1996-cı ildə Rusiya Dövlət Duması SSRİ-nin ləğv olunmasının hüquqi əsası olmadığını iddia etdi.*** Bunun ardınca Rusiya əvvəl Belarusla, sonra isə digərləri ilə “Birləşmiş Dövlətlər Birliyi" adlı qurum yaratmağa xidmət edən ikinci müqavilə imzaladı. Maraqlıdır ki, ikinci müqavilədə Belarusla yanaşı Qazaxıstan və Qırğızıstan da iştirak edirdi. Əlbəttə ki, güya "könüllü". ***Yəni Rusiya əslində Şərqi Avropada dekorativ dirəniş göstərir, amma cənub və cənub-şərqdəki boşluğu doğrudan-doğruya doldurmaq istəyir. Şərqi Avropadakı dirəniş Qərbin iri dövlətləri və ABŞ-la bir alver taktikası kimi nəzərdə tutulub. Bə tədricən Şərqi Avropadan ayağını çəkən Rusiyanın çəkmələrinin səsi Cənub Qafqaz və Orta Asiyadan gəlməliydi və gəldi. Etiraf edək ki, Qərb və ABŞ Rusiyanın nə Çeçenistanda, nə Azərbaycanın Qarabaq bölgəsində (Ermənistan adı ilə), nə Tacikistandakı özbaşınalıqlarına lazım olan səviyyədə sərt reaksiya vermədi.*** Söhbət bəyanatlardan getmir. Qərb və ABŞ-ın Qafqazları və Orta Asiyanı Rusiyaya "satması", bir vaxtlar Rusiyanın Alyaskanı satmasına oxşadıla bilər. Rusiya Bu bölgədə nəyin bahasına olur-olsun, udmağa çalışır. Çünki Avrasiyanın bu hissəsi rus etnosu üçün coğrafi mənada da tarixən əvəzedilməz olub və cilddən-cildə, sistemdən-sistemə, rejimdən-rejimə dəyişməsinə baxmayaraq, Rusiya siyasətinin bu istiqamətdəki planları heç dəyişməyib və Rusiyanın

özündən asılı səbəbdən də heç vaxt dəyişməyəcək. ***Rusiya şəraitə uyğun təzyiq formaları seçir və təzəcə müstəqilliyini qazanmış Qafqaz və Orta Asiya respyblikaları Rusiyanın şərtlərini qəbul etmək məcbyriyyətində qalırlar.*** Bu respublikaların ABŞ və Qərbin dəstəyi, ciddi himayəsi ilə birliyinə nail olunmasa, Rusiya onları tək-tək "yeyəcək". Rusiya Qazaxıstandakı təzyiq rıçaqlarını yüngülcə işə salmaqla bu ölkəni rus millətçisi ləhcəsində danışdırdı. Qazaxıstan prezidenti Nazarbayev Rusiyanın liderliyi ilə bir Avrasiya İttifaqı yaratmağı təklif etdi. Əlbəttə ya gərək Qazaxıstanın şimal hissəsi indikindən fərqli əhali ilə məskunlaşaydı, ya da Qazaxıstan nəhəng və köntöy bir dovlətlə meydanda tək qalmamalıydı. Əslində Qazaxıstan tək deyil, sadəcə, Rusiya "gölqurutma" üsulu ilə Cənub Qafqaz və Orta Asiya dövlətlərini ram edir və ya buna cəhd göstərir. ***Alternativ siyasət bu ölkələrin birlikdə müqavimətini ortaya qoya biləcək sistemin qurulması səylərinin birləşdirilməsidir. Belə olarsa, Rusiyanın arzyladığı hadisələr 180 dərəcə fərqli olacaqdır. Çox arzulanandır ki, ABŞ və YDD siyasətinin digər qurucuları Azərbaycanla bağlı 1993-cü ildə buraxdıqları səhvi yenidən Cənub Qafqaz və Orta Asiyada buraxmasınlar və sonradan da təəssüf və peşmançılıq keçirməsinlər.*** Regiona əhəmiyyətli təsir üçün Rusiya anlayır ki, əvvəl-əvvəl region zəif salınmalıdır. Bunun üçün Rusiya Avrasiya dəhlizinin boğazından tutub sıxaraq bölgənin nəfəsini kəsmək istəyir. Rusiyanın əli “boğazda" — Azərbaycanın Qarabağ bölgəsindədir. Sadəcə, bu əl protezdir — ermənidəndir və zəifdir. Amma bu əli "boğazdan" uzaqlaşdırmaq lazımdır.

## Rusiya Qarabağı YDD-nə badalaq kimi nəzərdə tutur.

Ermənistanın Azərbaycana qarşı işğal siyasəti yeridərək hücum etməsi və Azərbaycan Respublikası ərazisinin 20%-ni işğal etməsi dünya dövlətləri tərəfindən müxtəlif cür adlandırılır. Kimisi bu aksiyanı "Qarabağ problemi" adlandıraraq, burada ermənilərin milli özünütəyinetmə mübarizəsi apardığını, kimisi etnik qarşıdurma olduğunu, kimisi ermənilərin tarixi haqları uğrunda mübarizə apardıqlarını irəli sürür; həmçinin baş verənləri kimisi dini tolerantlıq olmamasından doğan etiraz, kimisi sosial-iqtisadi fərqlərdən doğan etiraz, kimisi Ermənistanın dəstəklədiyi lokal separatçılıq, kimisi Böyük Ermənistan proqramının tərkib hissəsi olan bir proses, kimisi Ermənistanın Azərbaycana ərazi iddialı müdaxiləsi, kimisi isə Rusiya siyasətinin tərkib hissəsi olan bir münaqişə kimi qiymətləndirir.

***Birinci yanaşma*** Qarabağ münaqişəsinin ermənilərin öz milli müqəddəratını təyinetmə mübarizəsi kimi qiymətləndirilməsidir. Ermənilər özlərinin milli dövlətlərini Ermənistanda qurublar. Özü də bu milli müqəddəratı təyinetmə ermənilərin tarixi vətənlərində deyil, tarixi Azərbaycan torpaqlarında baş verib. Azərbaycan Gülüstan və Türkmənçay müqavilələri ilə Rusiya və İran arasında bölündükdən sonra Quzey Azərbaycan ərazilərinə Rusiyanın Qafqaz canişinin göstərişi ilə ermənilər kütləvi şəkildə köçürüldülər. Quzey Azərbaycanın əsasən qərb əraziləri hesabına bir Ermənistan dövləti quruldu. Təbii ki, bu ərazilərə ermənilər sonradan gəlmə olduqlarından yerli Azərbaycan türkləri onlardan sayca qat-qat artıq idi. Rusiyanın məqsədli siyasəti ilə yerli Azərbaycan türkləri zaman-zaman doğma yurdlarından deportasiya olundu. Bolşevik Rusiyası 1920-ci ildə Azərbaycan Demokratik Respublikası süqut etdikdən sonra yeni-yeni əraziləri, o cümlədən Zəngəzurun bir hissəsini Ermənistana verdi. Beləliklə ermənilər qonaq kimi gəldikləri

Azərbaycan ərazilərinin bir hissəsində öz “milli müqəddəratını təyin etdilər”. Qarabağda 1988-ci ildən gedən müharibə əgər ermənilərin öz milli müqəddəratını təyin etmədisə, onda Gürcüstanın Axalkaki, Rusiyanın Stavropol vilayətlərində, ABŞ-ın bir çox ştatlarında, Fransada, Лivanda və s. yerlərdə də bu cür milli dövlətlərin yaranmasını salamlamalı olacayıq. Və əgər **"harda erməni varsa, ora Ermənistandır”** prinsipi qəbul olunursa, vəziyyət xeyli mürəkkəbləşir. Strabondan başlayaraq tarixçilər qeyd edir ki, ermənilər çox gəzəyən millətdir. (hər mənada) və bu hesabla, hər yer “Ermənistan” sayıla bilər. Demək istəyirəm ki, həmin prinsip cəfəngiyyatdan başqa bir şey deyil.

***İkinci yanaşma*** Qarabağ münaqişəsini etnik qaşıdurma kimi tanımaqdır. Bu iddiada olanlar bilməlidirlər ki, Azərbaycan Ermənistandan fərqli olaraq, monotərkibli respublika deyildir.  Azərbaycan xalqı özəyində türklər duran müxtəlif etnosların konsolidasiyasından formalaşıb və dünyada nümunə göstəriləcək səviyyədə etnik tolerantlığa malikdir. Hətda Ermənistan - Azərbaycan müharibəsinin bitmədiyi 1988-2000-ci illər arasında Azərbaycanın paytaxtı Bakı şəhərində iyirmi mindən artıq erməni yaşayır və digər Azərbaycan vətəndaşları kimi haqlara malikdirlər. Amma Ermənistanda bir nəfər belə Azərbaycan türkü qalmamışdır. Halbuki 20-ci əsrin əvvədində Ermənistan adlı döıətin paytaxtı İrəvanda əhalinin türk
hissəsi ermənilərdən əhəmiyyətli dərəcədə çox olmuşdur. Beləliklə, bu yanaşmanın da qeyri-ciddiliyi göz önündədir.

***Üçüncü yanaşma*** da yanlışdır. Belə ki, Qarabağda Azərbaycan türkü ermənilərə qarşı etnik dözümsüzlük göstərsəydi, buradan erməniləri sıxışdırıb çıxarardı. Qarabağda yaşayan ermənilər Qarabağda yaşayan Azərbaycan türklərindən qat-qat az olub. Onlar saylarını yerli əhalidən çox göstərmək üçün bütün mənbələrdə Qarabağın özünü belə Dağlıq və Aran Qarabağa bölürlər ki, belə inzibati ərazi bölgüsü dünyanın heç yerində rast gəlinməyib. Bir sözlə,

azlıqda olan ermənilər Qarabağdan qovmaq təkcə Qarabağdakı əhali üçün belə çətin məsələ deyildi. Amma fakt budur ki, buradan yerli türklər qovulub. Az bir gəlmə icma buna necə nail olub? Bu artıq başqa məsələdir və cavabını sonda verəcəyik. Hələliksə üçüncü yanaşmanın -Qarabağ məsələsinin bir etnik dözümsüzlük məsaləsi sayılmasının yanlışlığını bildiririk.

***Dördüncü yanaşma*** problemi dini dözümsüzlüklə bağlı yaranmıiş münaqişə kimi səciyyələndirmədir. Azərbyacan müsəlman dövləti olmasına baxmayaraq, burada bütün dinlərə qarşı hörmət bərqərardır. ***Dini tolerantlıq bəlkə də Azərbaycanda olduğu qədər heç yerdə yoxdyr. Azərbaycanda məscidlərlə yanaşı kilsələr, sinaqoqlar, başqa dini mərasim yerləri fəaliyyət göstərir.*** Və nəyinki fəaliyyət göstərir, hətta onlara dovlət səviyyəsində kömək də edirlər. Ermənistanda bütün məscidlər və müsəlman qəbiristanlıqları dağıdıldığı halda, Azərbaycanda erməni kilsəsi və qəbiristanlıqları toxunulmazdır.

***Beşinci yanaşma*** ermənilərin tarixi haqları uğrunda mübarizə aparması fikridir ki, bu məsələyə birinci yanaşmanı izah etdikdə də toxunmuşuq. Köçəri ermənilər əsasən Van gölü ətrafından və İrandan 1828-ci ildən sonra bir neчə mərhələdə Azərbaycanın müxtəlif yerlərinə, o cümlədən Qarabağ hissəsinə köçürülüblər. ***Tarixi haqq uğrunda mübarizə aparsalar, onda gərək ermənilər İran və Van ətrafına qayıdalar. Tarixin dərinliyinə baş vursalar, onda Qərbi Azərbaycandan (indiki Ermənistandan) və Qarabağ ərazilərindən yığışıb Orta Şərqə doğru köç edələr.***

***Altıncı yaiaşma*** sosial-iqtisadi fərqlərdən doğan etiraz hərəkatı fikridir. Ermənilər 1828 -ci ildən etibarən Azərbaycana köçürüldükdə ən yaxşı ərazilərdə məskunlaşdırılıb. Rusiya işğal etdiyi Azərbaycanda etibarlı dayaqlarını yaratmaq üçün ermənilərə hər cür üstünlük təmin etdi. Təhsil, hərbi xidmət, vergilər məsələsi, o cümlədən ərazi seçimi məsələsində ermənnlərə hər cür imtiyaz verildi.

İmperiya rənkini dəyişdikdən sonra da mahiyyətini, o cümlədən ermənilərə münasibətini dəyişmədi. SSRİ dövründə bölgənin ermənilər yaşayan ərazilərinə Azərbaycan türkləri yaşayan ərazilərdən fərqli olaraq yollar çəkildi, elektrikləşmə siyasəti aparıldı, həmin ərazilərdə sənaye müəsisələri tikildi, suvarma sistemləri quruldu. Bir sözlə, burada yaşayış şəraiti digər Azərbaycan bölgələrindən qat-qat üstün oldu. Deməli, altıncı yanaşma da arqumentsizdir.

***Yeddinci yanaşma*** problemi Ermənistanın dəstəklədiyi lokal separatçılıq kimi səciyyələndirir. Amma ermənilər Azərbaycandakı digər azlıqda qalan etnoslardan fərqli olaraq, yuxarıda da qeyd olunduğu kimi, müstəsna üstünlüklərə malik idilər. Sovetlər dönəmində oyuncaq Azərbaycan hökuməti tərəfindən verilən muxtariyyət hüquqları 1970-cİ illərdə vilayət statusu ilə daha da genişləndirildi. Sosial-iqtisadi inkişaf tempi Azərbaycanın digər böigələrindən sürətlə artdı. Buraya dəmir yolu çəkildi, Ermənı Universiteti açıldı, yer adları dəyişdirildi və s. Bununla yanaşı, muxtar vilayətin siyasi qurumları formalaşdı və faktiki olaraq bir erməni özünüidarəetmə sistemi yarandı. Ermənicə nəşrlər, məktəblər, televiziya və radio fəaliyyət göstərdi. Yəni lokal separatçılıq üçün əsas yox idi. Heç bir yerdə erməni icması bu qədər üstünlüklərə malik olmayıb. Deməli, bu yanaşma da obyektiv qiymətləndirməyə əsas verə bilməz.

***Səkkizinci yanaşma*** məsələni Böyük Ermənistan proqramının tərkib hissəsi kimi qiymətləndirir. Doğrudur , Ermənistan həmişə strateji məqsəd kimi Böyük Ermənistanı hədəf seçib. Amma Ermənistan bu hədəfə doğru həmişə "saman altdan su yeritmə" yolu ilə irəliləyib. Etiraf edək ki, çox ciddi nəticələr də əldə edib. Əvvəla, heçdən bir Ermənistan dövləti yaradıb, özü də tarixi əraziləri olmayan bir yerdə. İkincisi, bu dövlətinin ərazilərini daima müxtəlif üsullarla genişləndirməyə nail olyb. Həm də bu üsullarla Qarabağda daha ciddi nəticələr əldə edə bilərdi, nəinki hərbi yolla. Çünki Ermənistan çox yaxşı bilir ki, əldə etdiyi müvəqqəti hərbi

qələbələri mütləq siyasi qələbəyə çevirə bilməyəcək. Bu ondan irəli gəlir ki, həm Ermənistanın iqtisadiyyatı, əhali potensialı buna imkan vermir, həm də ədalətsiz bir işğal müharibəsi işğalçının zorla qurduğu Status-kvo-nu dayanaqlı edə bilməz. Ermənilər daha çox başqa üsulla mübarizə aparırlar. Məsələn, dünya ictimai rəyini hay-küy, təbliğatla atdatmaq, dünyanın iri dövlətlərinə lobbi ilə təsir və s. 2000-ci ildə ABŞ departamentində erməni lobbisi tərəfindən təqdim olunan "1915 - 1923-cü illər erməni soyqırımı" adlı sənədin müdafiə olynması da bu qəbil erməni mübarizəsi növlərindəndir. Bunun arxasında isə gələcəkdə təzminat davası açmaq və Türkiyədən ərazi iddiası etmək durur. ***Amma Qarabağdakı kimi açıq ərazi iddialı müharibəyə girmək yaxın hərbi qələbə olsa da, uzaq hərbi və siyasi məğlubiyyət perspektivindən başqa heç nə vəd etmir. Həm də bu qısa hərbi qələbənin arxasında Ermənistan gücü, silahlı qüvvəsi deyil, Rusiya gücü və silahlı qüvvəsi dayanırsa.*** Deməli, Ermənistan belə kobud taktika ilə əslində on illərlə Böyük Ermənistan hədəfi yolunda qazandıqlarını belə itirə bilər. Başqa sözlə, səkkizinci yanaşma da sualın tam cavabı deyiddir.

***Doqquzuncu yanaşma*** Ermənistanın Azərbaycana açıq ərazi iddialı müdaxiləsi müddəasıdır. Mürəkkəb tarixi şəraitdə Ermənistanın çətiri olan Rusiyanın zəiflədiyi, qeyri-müəyyənlik keçirdiyi bir zamanda cırtdan Ermənistanın belə iddia ilə açıq müharibəyə girməsi özxoşuna ola bilməz. Qeyd etdiyim kimi, regionda, o cümlədən dünyada qüvvələr nisbəti ciddi dəyişikliyə uğradığından və yeni tarazlıq sisteminin Ermənistanın "çətirinin" və özünün əleyhinə işlədiyi bir vaxtda Ermənistanın başını cəncələ salması nə qədər ağlabatandır? Qafqazlarda Azərbaycanın strateji müttəfiqi Türkiyənin təsir imkanlarının artması, Rusiyanın cənub bölgələrindəki münaqişələr nəticəsində təsir dairəsinin daraldığı, Gürcüstandan Rusiyanın tədricən getməyə hazırlaşdığı və həm Gürcüstan, həm Azərbaycanın Qərb

oriyentasiyasına rəğmən regional situasiyanın heç də Ermənistanın xeyrinə olmadığı bir zamanda bu ölkənin Azərbaycana öz xoşu ilə ərazi iddialı hücumu nə qədər ağlabatandır? Üstəlik yuxarıda qeyd etdik ki, ermənilərin epizodik (tarix üçün bir neçə illik qələbə də epizod sayıla bilər) hərbi qələbəsinin arxasında erməni hərbi gücü, Ermənistan hərbi iqtisadiyyatı, erməni əsgəri dayanmır. ***Azərbaycan hər mənada Ermənistandan güclüdür. Həm ədalətli tərəfdir, həm müttəfiqləri YDD tərəfdarları və ABŞ kimi dövlətdir, həm də özünün iqtisadi, hərbi, bəşəri potensialı Ermənistandan artıqdır. Və Azərbaycan təkbaşına öz potensialının bir hissəsini səfərbər etməklə vəziyyəti köklü şəkildə öz xeyrinə dəyişə bilər. Bu qalxınma isə Ermənistana чox baha başa gələ bilər, 20-ci əsrdə Azərbaycanın hesabına qazandıqlarını qısa müddətdə Azərbaycana qaytarmaq məcburiyyətində qalar.*** Ermənistan da bu perspektivi görür. Amma bu müharibəni edir. Niyə? Bu sualın cavabı, ikinci , yeddinci yanaşmanın sonundakı syalların cavabı onuncu yanaşmadadır — ***Qarabağ münaqişəsi Rusiya siyasətinin tərkib hissəsi olan süni bir münaqişədir.*** Çünki:

***Birincisi***, Rusiya hələlik regiondan və o cümlədən Azərbaycandan tamamilə çıxmaması yollarını arayır. Həm imperiya ambisiyasından əl çəkməyib, həm də ən azı imperiyanı bərpa edə bilməsə də, böyük dövlət kimi təsirini saxlamaq, artırmaq ümidindədir. Rusiyanı Qarabağda, dolayısı ilə regionda qalması Qarabağın kimdə qalmasından daha çox düşündürür. Rusiyaya forpost lazımdır. Qarabağda müharibənin ən qızğın çağlarında Rusiyanın davranışı da bunu sübut edir. Tərəflərdən birinə kömək edir, silah-sursat satır, hərbi texnikasını icarəyə verir, sonra qəfil olaraq köməyi dayandırır ki, artıq kimsə qalib ola bilər və məsələ bitər. Bu andan etibərən digər tərəfə kömək göstərilir və beləliklə balans saxlanılır. ***Bu balans münaqişənin bitməsi üçün yox, saxlanması üçün Rusiyaya lazımdır. Çünki münaqişə***

***qaldıqca Rusiya da burada qalacaqdır.*** Əlbəttə, belə balans Azərbaycanın siyasi oriyentasiyasının Qərbə doğru olduğunu qətiləşdirənə qədər oldu. Bundan sonra isə üstünlük şərtlə Ermənistana verildi. Şərt münaqişənin bitməməsidir. ***Hər hansı formada münaqişənin bitməsi Rusiyanın hər iki tərəfə təzyiq imkanlarını azaldır.*** Tutaq ki, münaqişə Ermənistanın xeyrinə bitir və Azərbaycan da, Türkiyə də, müttəfiqlər də kapitulyasiya aktı ilə namussuzcasına razılaşdılar. Hətta belə olan halda vəziyyət Rusiyanı tam qane etmir, Rusiyanın Azirbaycandan mütəmadi olaraq 1993-2000-ci illər arasında qopardığı güzəştlər Qarabağ konfliktinə söykənirdi. Həm Azərbaycanın MDB-yə daxil olması, həm kollektiv təhlükəsizlik müqaviləsinə qoşulması, "Lukoyl" neft şirkətinin neft müqavilələrində iştirak payı alması birbaşa Qarabağ münaqişəsinə bağlı məsələlər idi. Yəni Rusiya belə bir təzyiq vasitəsindən necə əl çəkər? Məsələ Ermənistanın xeyrinə bitdiyi variantda və hamı da bununla razılaşdıqda, Ermənistan siyasi oriyentasiyasını Qərbə çevirməzmi? Bu sual Rusiya üçün cavabsızdır. Bir neçə məqamda Ermənistanın Qərbə reverensi, bölgədəki qeyri-müəyyən durum Rusiyanın hər kəsin sürpriz davranışından sığortalanmasını tələb edir. Rusiya Qarabağın barış şərtlərində ordusunun burada sülhpərvər qüvvə kimi qalmasını bir neçə dəfə Minsk qrurunun vasitəçilərinə təklif edib. ***Harada rus ordusu varsa, orada Rusiya siyasəti dominantdır. Çünki Rysiyanın siyasəti həmişə кöntöy, kobud olyb və zora soykənib. Əgər ordy regionda qalacaqsa, geosiyasi təsir imkanları da qalacaqdır.*** Ordunun qalması isə həm hər iki tərəfin onunla hesablaşmasına, həm Qarabağın formal olaraq kimə məxsysluğundan asılı olmayaraq, əslində Rusiyanın əlində qalmasına , həm də istəniləi vaxt bu katalizatordan istifadə edib münaqişəni alovlandırmasına imkan verir. Rus hərbiyyəsinin burada qalması həm də Qarabağın bir hərbi baza kimi mövcudluğu olacaqdır. Rus ordusunu 1992-ci ildə Milli hökumət Azərbaycandan çıxardıqdan sonra SSRİ-nin

dağılması şokundan özünə gələn Rusiya Azərbaycanda hərbi mövcudluğnu bərpa etmək üçün çeşidli yollara əl atdı. 1993-cü ildə Rusiya Müdafiə Naziri Qraçov və Gəncədəki rus hərbi bazasının rəisi general Şerbakın köməkliyi ilə Milli hökumət devriləndə, prezident Elçibəyin və Milli hokumətin son səyləri ilə rus ordysynyn Azərbaycana qayıdışı və Rusiyanın başqa müdhiş plailarının qarşısı alındı. ***Düzdür, Milli hökumət uduzdu. Amma Milli hökumət Azərbaycan, yoxsa hökymət seçimində? tərəddüd etmədən Azərbaycanı seçdi və özüunu qurban verdi.*** Sonrakı illərdə Rusiya İran – Azərbaycan sərhədinin mühafizəsində iştirak, ümumiyyətlə, sərhədlərin birgə qorunması haqda təşəbbüslə çıxış etdi. Yəni Rusiya üçün Qarabağ hərbi platsdarm kimi çox qiymətli məkandır. Və burada nə qədər rus əsgərinin olması da əsas deyil,bu rəqəm dəyişkəndir.

***İkincisi***, vəziyyət elədir ki, Rusiya ordusunun həm Qarabağda, həm də Ermənistanda qalmasında Ermənistanın özü məcburi maraqlıdır. Əvvəldə qeyd etdik ki, Ermənistan müharibəyə öz xoşu ilə girməyibdir. Amma müharibəyə girib, bu gün nəticələr var, gələcəkdə də hər müharibənin sonunda olduğu kimi, nəticələr olacaqdır. Ermənistanın ən çox ehtiyat etdiyi məsələlərdən biri müharibənin genişlənməsi və bölgə dövlətlərinin məsələyə hərbi müdaxiləsidir. Əsasən Türkiyənin belə bir müdaxiləsindən ehtiyatlanan ermənilər, necə deyərlər, Rusiyanın arzuladığını ondan özləri xahiş etmək məcburiyyətində qalıblar. ***Ermənistan beynəlxalq cinayət edib və cəzalanacağından qorxaraq ərazisində Rusiya hərbi bazalarının yerləşməsini, mövcud bazaların daha da artırılmasını istəyir. Heç bir dövlət ərazisinin hərbi poliqona çevrilməsini istəməz. Ermənistan da belə "Fövqəladə vəziyyət rejimində" yaşamaq, özü də qeyri-müəyyən vəziyyətdə və qeyri-müəyyən dövrə qədər yaşamaq istəməzdi. İstəyərdi ki, qonşularla, əsasən zəngin təbii resursları, karbohidrogen ehtiyatları olan Azərbaycanla iqtisadi-ticari əlaqələrdə olsun, Avropaya***

***çıxışı üçün birbaşa quru sərhəddi olan Türkiyə ilə sərfəli əməkdaşlıq etsin və tədricən Avropaya inteqrasiya olunsun. Amma Rusiya ikiqat tələ qurub. Həm regionda, o cümlədən Türkiyə ilə sərhəddə hərbi bazalar yerləşdirib, həm də Ermənistanı hamı ilə düşmən edərək özündən asılı saxlayıb.*** Bununla da həm Ermənistanın hər ehtimala qarşı Qərbə üz tutmasını önləyib, həm də ermənilərin öz xahişləri ilə bölgədə hərbi mövcudluğunu təmin edib.

***Üçüncüsü,*** tələ elə qurulub ki, Ermənistanın daim müharibəyə hazırlaşmaqdan başqa çarəsi qalmır. Beləliklə, Rusiya silah bazarı əldə edir. Təkcə 1997-98-ci illərdə Ermənistan bir neçə milyard dollar dəyərində ən müasir silahlar almışdır. Rusiya buraya silah ixrac etməklə həm özünün xeyli kasıblaşmış büdcəsinə valyuta gəlməsini təmin edir, həm onsuz da hərbi bazalar saxladığı Ermənistana onun öz pulu ilə silah yerləşdirir, həm də Ermənistanın silahlanmasından ehtiyat edən dövlətlərə silah satmaq şansı qazanır. Məsələn, ermənilər kompakt yaşadıqları Gürcüstanın Axalkalaki ərazisini də qədim Ermənistan torpağı adlandırıblar və "Cavex" təşkilatı yaradaraq bu ərazini Ermənistana birləşdirməyi hədəf seçiblər. Belə olan halda Ermənistanın ərazi iddiası və silahlanması Gürcüstanı da silahlanmaya sövq edəcəkdir. Eyni fikri Azərbaycana da aid etmək olar. ***Amma çox məqsədəuyğundur ki, həm Azərbaycan, həm Gürcüstan zəryri hərbi potensialını NATO silahları hesabına qursun və nəticədə, hərbiyəsi Rusiyadan asılı durumda olmasın.***

***Dördüncüsü,*** silah bazarı əldə etmək məsələsində də, Qarabağ münaqişəsinin davam etməsi səbəbinə başqa faydalar götürməkdə də ən çox maraqlı olan qüvvələrdən biri Rusiya hərbi Sənaye Kompleksi (HSK) nomenklaturasaıdır. Sovetlər İmperiyası dağıldıqdan sonra, Rusiya siyasi elitasında hələ ki, Rusiyanın özünümüəyyənetmə məsələsi açıq qalıb. Bu məsələdə Rusiya HSK nomenklatyrası (HSKN) önə çıxmaq və hakimiyyəti ya ələ keçirmək, ya da nəzarətdə saxlamaq istəyir.

Ona görə, qlobat siyasətdə Rusnyanın mövqelərini möhkəmlətmək və bərpa etmək üçün ilkin olaraq Yaxın Xaricdə hərbi münaqişələr, bu münaqişələrə müdaxilə etməklə təsir imkanları qazanmaq istəyirlər. Bununla rusizm xətti tərəfdarlarının dəstəyini alaraq HSK-nı daha da inkişaf etdirmək, sosial baza qazanmaq və millətçi, "Rusiyanın taleyini həll edə bilən" qüvvə kimi hakimiyyətə gəlmək istəyirlər. Yaxın Xaricdə münaqnşələri alovlandırmaq və ya yenisini yaratmaqla HSKN hesab edir ki, Rusiyadaxili xaos və milli zəmində baş verən münaqişələri önləmək olar. Üstəlik yuxarıda qeyd etdiyimiz kimi, HSKN silah istehsalı və satışında ən maraqlı qüvvədir. Çünki bu kompleksdə rüşvətxorluq, korrupsiya sistemli şəkil alıb. Deməli bu mafiya bütün münaqişələr daxil olmaqla Qarabağ münaqişəsinin uzanmasında maraqlıdır.

***Beşincisi,*** Hərbi Sənaye Kompleksi nomenklaturası da daxil olmaqla Rusiya siyasi elitasında əhəmiyyətli bir hissə həm Qarabağ, həm də digər məsələlərdən istifadə edərək Türkiyəni toqquşmaya çəkmək istəyir. "Cəhənnəmə gedən özünə yoldaş axtarır" - deyiblər. Rusiyanın qarışıq vəziyyəti və qaranlıq gələcəyi rus millətçilərini axırıncı radikal addımlardan belə çəkindirmir. Rusiya tarixində, onun tənəzzülü, çökməsi məqamlarında inqilablar, müharibələr vasitəsilə vəziyyətdən çıxma praktikası var! NATO qüvvələri 1990-cı illərin axırında Kosovada serb özbaşınalığına qarşı mübarizə aparanda Rusiya birmənalı şəkildə Yuqoslaviyanı müdafiə etdi, könülülər, hərbi dəniz qüvvələri göndərdi, hədələr yağdırdı və s. Rusiya özünün hərbi doktrinasında dəyişiklik edərək imzaladığı beynəlxalq və dövlətlərarası müqavilələrə əhəmiyyət verməyib nüvə silahından birinci istifadə etmək hüququnu özündə saxladığını bəyan etdi. Ermənistan — Türkiyə sərhədində süni toqqyşmalar yaradan rus sərhədçiləri bəyan edir ki, guya Türkiyə Ordusu sərhədi pozaraq bir neçə kilometr Ermənistana irəliləyib və s. Qara dənmz bölgəsində Türkiyə — Ukrayna tandeminə uduzan,

Türkiyənin tədricən Cənub Qafqaz və Orta Asiyaya Azərbaycan vasitəsilə təsir imkanlarının artmasını görən Rusiya, məhz Azəbaycanın Qarabağı vasitəsilə Türkiyəni açıq qarşıdurmaya çəkmək istəyir.

***Altıncısı,*** bu cür davavranışla guya ki, Rusiya xristian Ermənistanı müsəlman – türk Azərbaycandan və Türkiyədən qoruyur. Bə həm də tək qalıb. Bununla bir xristian təəssübkeşliyi blefini həyata keçirmək, bəzi Qərb dövlətlərinin dəstəyini almaq, Avropada itirilmiş imic və mövqelərində restavrasiya işi aparmaq istəyir. Bu məsələdə erməni lobbisinin gücündən də istifadə etmək istəyir və məncə pis də alınmır. ***Rusiyanın bu davranışı çox vacib olan dinlərarası dialoqa da zərbədir. Dindən mənfi təzahürlü qarşıdurmanı dərinləşdirən siyasət naminə istifadə etmək olmaz.***

*Yeddincisi,* bu və oxşar gedişlərlə Rusiya məhz özünün yaratdığı münaqişədə həm də bir sülhpərvər imici qazanmaq istəyir. Rusiya siyasətinin mahiyyəti əslində hər kəsə aydındır. Belə bir aydınlığın olması da Rusiyanın özünə aydındır. Buna görə, Rusiya imicində dəyişiklik etmək üçün sülhyaradıcı qüvvələrini Qarabağda yerləşdirmək, münaqişəyə son qoymaq təşəbbüsləri ilə çıxış edir, dünya ictimai rəyində dəyişikliyə nail olmaq istəyir. Amma texniki tərəqqi və inkişafın yüksək mərhələsində yalançı prestij keçmir.

***Səkkizincisi,*** belə prestijlə həm də Cənubi Qafqazda, o cümlədən Çeçenistanda etdiyi ağlagəlməz vəhşilikləri Rusiya pərdələmək istəyir və ya hərəkətlərinə fərqli don geyindirməyə çalışır. Çeçenistanda milli-azadlıq hərəkatını boğaraq, öz qanlı cinayətlərini terrorizmə qarşı mübarizə adlandırması məhz bu qəbildəndir. Məsələnin əslini, mahiyyətini gizlətməyə cəhd etmək, yeridilən dağıdıcı, özbaşına, antihumanist, imperialist siyasəti qurucu barış siyasəti kimi təqdim etmək cəhdi, əlbəttə ki, mənasızdır.

***Doqquzuncusu,*** Qafqazlarda Qarabağ da daxil odmaqla Rusiyanın yaratdığı münaqişələr bir də Rusiya təbirincə, ona

görə davam etməlidir ki, Qafqaz xalqları daima bir-biri ilə düşmən olsun **Qafqaz Evi** kimi ideyalar baş tutmasın. ***Qafqaz xalqlarının konsolidasiyası, Qafqaz dövlətlərinin birliyi Rusiyanın regiondan birdəfəlik getməsi deməkdir.*** Ona görə də, Rusiya uzun illərdir Qafqazda yaşayan xalqlar arasında düşmənçilik toxumu səpib, süni inzibati-ərazı bölgüləri ilə ərazi mübahisələri yaradıb ki, hər zaman mübahisələri münaqişələrə çevirə bilsin. Bu klassik bölücü metod Qafqazların birliyinin qarşısını uğurla almaqdadır. Rusiya Qarabağ münaqişəsinin bitməməsi və bu təyinatda istifadəsində də maraqlıdır.

***Onuncusu,*** Rusiya regionda bu cür munaqişələri, o cümlədən Qarabaq münaqişəsini saxlamaqla regionun sabit olmadığını Avronanın nəzər diqqətinə çatdırır. Bununla Qərbə oriyentasiyalı Cənub Qafqaz ölkələrinin Avropa təsisatlarına qəbulunu Avropanın öz əli ilə əngəlləmək istəyir. Münaqişəli dövlətlərin Avropa təsisatlarına qəbulu çətin reallaşır. Avropanın iri dövlətlərinin rəsmilərn dəfələrlə Kipr məsələsinə görə Yunanıstanla münaqişali vəziyyətdə olan Türkiyənin Avropa təsisatlarına buraxılmasından təəssüf hissi keçirdiyini bildirmişlər. Doğrudur, Yunanıstanın bu qurumlarda olmasından təəssüfləndiklərini dillərinə gətirməmişlər. Bu diskriminasiyaya baxmayaraq, Rusiya münaqişəli dövlətlərin Avropa təsisatlarına qəbulunun problemli olduğunu bilir və buna görə də, Qarabağ münaqişəsinin həll olunmasını istəmir.

Avropanı tərəddüd içində qoyan Rusiya həm də bu sityasiyadan alver məqsədi ilə istifadə etmək istəyir.

***On birincisi,*** münaqişəni yaradıb açarı əlində saxlamaqla Rusiya bir neçə nailiyyət əldə edib. Rusiyanın ciddi sabitsizlik törətməməsi naminə Avropanın regiondakı iri iqtisadi layihələrində bu ölkənin də istirakına şərait yaradılıbdır. Azərbaycan özü də yuxarıda qeyd etdiyimiz kimi, xeyli güzəştlərə gedibdir. Əsasən, neft strategiyasına Rusiya müdaxiləsi Qarabağ münaqişəsi ilə sıx bağlıdır. Türkiyə çox

nəhəng bir qaz idxalatını nəzərdə tutan müqaviləni bağlamaqla əslində Rusiyanı sakitləşdirməyi hədəf götürüb. Yoxsa qaz idxalçısı olan Türkiyəni ƏA dövləti olan Rusiyadan enerji asılılığı heç də məntiqə sığmır. Qarabağ və oxşar münaqişələrdə dünyanın sivil ölkələrini narahat etməyi bacaran Rusiya öz iştirakı ilə böyük yeddiliyi, böyük səkkizliyə çevirdi. Rusiyanın inkişaf etmiş yeddiliyə qoşulmasına icazə verilməsi də bu olkəni sakitləşdirməyə xidmət edən taktika idi. Digər örnəklər də göstərmək mümkündür ki, bunlar Rusiyanın Qarabağ kimi münaqısələrin bitməsində maraqlı olmadığını sübut edir.

***On ikincisi,*** Rusiya Qarabağ münaqişəsini sönməyə qoymamaqla Azərbaycanın daxili durumuna təsir imkanlarını genişləndirir. 1988-ci ildən etibarən Azərbaycanda hakimiyyət dəyişikliklərinin kökündə Qarabağ amili dayanmışdır. Müharibə gedən ərazidən və Ermənistandan qovulan Azərbaycan türklərinin sayı milyondan artıqdır. Köçkün, ac-yalavac, ədalətsizliyə məruz qalan, hər şeyini itirən bu əhali təbii ki, ölkə sabitliyinin pozulması üçün ciddi amildir. Üstəlik Azərbaycan kimi aqrar sənaye ölkəsinin ərazisinin 20%-ni itirməsi təbii ki, kütləvi işsizliyə də səbəb olub və milyonlarla insan Azərbaycanı tərk edərək əsasən Rusiyada, Türkiyədə, İranda iş axtarmağa məcbur olublar. Bu miqrasiyalarda əsas ağırlıq Rusiyanın payına düşür. Bu o deməkdir ki, Rusiyada işləyən milyonlarla insan Azərbaycandakı ailəsini dolandırmaq üçün çalışıb pul göndərməlidir. Rusiya təkcə bu amildən istifadə edərək bir neçə dəfə Rusiya bazarlarından Azərbaycanlıları qovub, viza rejimi tətbiqi ilə hədələyib. Nəticə etibarilə bir yoxlama aparıb ki, Rusiyadakı Azərbaycanlı kontingenti Azərbaycana qarşı ciddi sabitsizlik amilinə çevrilibmi? Və bunun ardınca Azərbaycanda Rusiyapərəst qüvvələrin fəallaşması mərhələsi başlayıb. Yəni Rusiya Qarabağ münaqişələrindən həm də daxili duruma təsir etmək üçün istifadə edir və münaqnşənin uzanmasında maraqlıdır.

***On üçüncüsü***, təbii ki, münaqişə uzanddıqca və Azərbaycan ərazisinin 20%-i işğal altında qatdıqca, 8 milyonluq əhalisinin 1 milyonu qaçqın həyatı yaşamağa məcbur olduqca, Azərbaycan zəifləməkdə davam edəcək və təzyiqlərə daha az davamlı olacaq. Həm də SSRİ dağıldıqdan sonra Azərbaycan siyasi oriyentasiyasını Qərbə doğru birmənalı şəkildə çevirdiyindən, əhali daha çox Qərbin və ABŞ-ın köməyini görməyincə, öz doğma torpaqlarına qayıtmayınca həm Qərbə, həm də Qərb dəyərlərinə daha çox şübhə ilə, inamsızlıqla yanaşmağa başlayacaq. Bu isə Rusiyanın Azərbaycandakı panlarının, o cümlədən daxili durumla bağlı planlarının həyata keçməsi üçün çox münbit şərait yaradır. Deməli, həm də bu baxımdan Qarabağ münaqışəsinin həlli Rusiya üçün əlverişsizdir.

***Nəticə etibarilə ilkin fikirimizə qayıdırıq ki, Rusiya Avrasiya dəhlizinin boğazından tutub sıxaraq bölgənin nəfəsini kəsmək istəyir. Rysiyanın əli boğazda - Azərbaycanın Qarabağ bölgəsindədir. YDD qurucuları ABŞ və Qərbin super dövlətləri bu əli boğazdan çəkməlidirlər.*** Göründüyü kimi, "Qarabağ" təkcə Azərbaycanın problemi deyil. Bu problem ədalətli həll olynmalı, Avrasiya dəhlizi təhlükəsiz öz missiyasını yerinə yetirməlidir. Bu cür münaqişələr TAB dövlətlərinin bir çoxunda vardır və həll olynmalıdır. Onda TAB daha möhkəm bir platsdarm kimi digər region dövlətlərini də özünə cəlb edə bilər.

# TAB -ın genişlənmə imkanları

TAB Türkiyə, Azərbaycan, Türkmənistan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Tacikistan kimi dovlətlərdən təşkil olynsa da, onun missiyası, əhatə dairəsi, mənsub olduğu sivilizasiya oriyentasiyası və s. kimi amillər bu bloka əlavə dövlətlərnn qəbulunu mümkün edir. ***Həm də buraya digər***

***dövlətlərin qəbulu ona görə mümkündür ki, TAB bir etnosu təmsil edən klub deyildir və etnik millətçilik ideyasını yox, Yeni Dünya Düzəni ideyasını müdafiə edir. TAB, sadəcə, Avrasiyanın geniş bir hissəsini əhatə edən etnosun özəkdə olması ilə formalaşan bir blokun bu sivilizasiyanı digər sivilizsiyalarla dialoqa hazırlamaq təşəbbüsüdür.*** Formalaşma ardıcıllığında etnogenez də nəzərə alınıb. Yəni sivilizasiyaların formalaşmasında ailə, tayfa, icma, xalq, millət, kimi mərhələlər keçilməklə sivilizasiyalar konsolidasiya olunursa, dünya dövlətlərinin qurulmasında da etnogenez (etnosların formalaşması) yardımçı yanaşmadır və bütövləşmədə həm ardıcıllıq gözlənilir, həm də o ağrısız baş tütur. ***Sonrakı mərhələdə buraya digər etnoslara və dinlərə mənsub dövlətlərin qoşulması TAB-ın bir Türk – müsəlman qurupu olmadığını ortaya qoyacaqdır.***

***TAB- a qoşula biləcək dövlətlərdən biri Gürcüstandır.*** Bu transkontinental bloka daxil olmaq Gürcüstana həddən artıq əlverişlidir. Gürcüstan Qərb oriyentasiyalı siyasətə üstünlük verdiyindən müttəfiqləri ilə bir yerdə olmalıdır. Həm təhlükəsizliyini və inkişafını təmin etmək üçün, həm də YDD siyasətini müdafiə etmək və imkanlarını ortaya qoymaq üçün Gürcüstanın Avropa təhsisatlarında tam hüquqlu üzv kimi təmsil olunması uzun prossesdir. Biz Avropa təsisatlarına yeni dövlətlərin qəbulu cədvəlini təxmini göstərmişdik və oradan da görünürdü ki, Qafqaz və Orta Asiya respublikalarının növbəsi yaxın illərə təsadüf etmir. Amma SSRİ dağıldıqdan sonra dünyada, regionda, eləcə də Gürcüstanın daxilində gedən prosesslər konsolidasiya proseslərini sürətləndirməyi diqtə edir. Gürcüstan digər postsovet məkanı ölkələri kimi müstəqillik illərini təlatümlər içərisində keçirir. Hər yerdə, bütün postsovet məkanında olduğu kimi, burada da səbəbkar Rusiyadır. Gürcüstanda bir neçə etnik-ərazi münaqişələri mövcuddur. Həm Abxaziya, həm Osetnya, həm Acariya problemləri, həm də vüsət almaqda olan erməni azlığının "Cavaxetiya" problemi Gürcüstanın demək olar ki, nəfəsini

kəsib. Bundan başqa, siyasi baxışlar müstəvisindəki ziddiyyətlər, hakimiyyət uğrunda radikal mübarizə ölkəni çox halsızlaşdırıb. Gürcüstan həm də Qara dəniz hövzəsi ölkələrinin maraqlarının toqquşduğu poliqon kimi qarşıdurmalar meydanına çevrilib. Rusiya Ukraynanın imperyadan qopması, Türkiyənin xeyli güclənməsi müqabilində Qara dənizdə və regionda mövqelərini xeyli artırıbdır. Buna görə də Gürcüstanı hər vəchlə əldə saxlamağa çalışır.

Rusiya öz ordusunu mərhələlərlə Gürcüstandan çıxarmaq haqda müqavnlə imzalayır. Amma üstündən bir neçə müddət keçir və Gürcüstanı məcbur edir ki, yeni bir müqavilə imzalasınlar. Yeni müqavidə nəzərdə tutulur ki, Gürcüstandakı Rusiya hərbi bazası olan Qudsuqidən Rus ordusu çıxsa da, bura Rusiya ordusunun bərpa mərkəzi kimi fəaliyyət göstərəcəkdir. Yəni bu çıxmaq əslində elə çıxmamaq kimi bir şeydir. Abxaz-Gürcüstan münaqişə sərhəddində isə "sülhməramlı" Rusiya ordusu "toqquşmanın qarşısını alır" . Osetiya məsələsində Osetiyanı müdafiə edir, Acariya ilə xoş münasibətlər saxlayır. Axalkalakidəki hərbi bazasını "Cavex" erməni təşkilatının tələbi ilə "hələlik" Gürcüstanda saxlayır. Bu bazada hərbi koningentin əsas hissəsi ermənilərdən təşkil edilir. Bu Rusiyanıi separatçı hərəkətə klassik formada köməyidir. Qarabağda Rus ordusunun 366 saylı alayı da əsasən ermənilərdən komplektləşdirilmişdi və komandiri də erməni idi. Tarixdə analoqu olmayan "Xocalı soyqırımı" nı da məhz bu hərbi hissənin fəal iştirakı ilə ermənilər törətdilər. Cavaxetiyadakı bu hərbi hissənin də tərkibinin dəyişdirilməsi Gürcüstanı narahat etməlidir və məncə, edir. Çünki artıq yerli ermənilər açıq şəkildə buranın qədim erməni torpağı olmasını elan edib və müstəqillik , sonra isə Ermənistana birləşmək uğrunda mübarizə aparırlar. Əlbəttə, Rusiya bu prosesi dəstəkləyir və yardımını da əsirgəmir. ***Yəni faktiki olaraq Gürcüstan unitarlığını itirib. Nə bir federasiya, nə bir konfederasiyaya oxşamayan əcaib şəkil alıb.*** Bütün bunlar

bəs deyilmiş kimi Rusiya  Gürcüstana irad tutur ki, guya Gürcüstan birbaşa həm də vasitəçiliklə Çeçenistana hərbi yardım edir. Bu bahanə ilə rus avyasiyası bir neçə dəfə Gürcüstanın şimal sərhədlərindəki ərazilərini bombalamaqdan belə çəkinmədi. Gürcüstanın belə mürəkkəb vəziyyəti onun TAB-da iştirakını zəruri etməklə həyati mənafelərinə xidmət edir. Blokda Gürcüstan Türkiyənin vasitəçiliyi səbəbinə Acariya rəhbərliyi ilə münasibətləri yaxşılaşdira, o cümlədən müsəlman Abxaziya ilə anlaşmaya doğru addım ata bilər. Azərbaycan isə bir çox sahələrlə yanaşı Gürcüstandakı "Cavax" erməni separatizmini zəiflətməkdə ciddi portnyor ola bilər. Əvvəla, oxşar erməni separatizmi Azərbaycanın Qarabağ bölgəsində də baş verdiyindən səyləri birləşdirməkdə çətinlik yaranmaz. İkincisi, Abxaziya tarixən Axıska türklərinə mənsub olub və yerli Axıska türkləri buradan sovet rejimi dövründə Orta Asiyaya, əsasən Fərqanə bölgəsinə sürgün ediliblər. Məlum Fərqanə toqquşmalarından sonra Axıska türklərinin çoxu köçüb Azərbaycanda məskunlaşıb və tarixi vətənlərinə dönməkdə israrlıdılar. ***Gürcüstan hökuməti Azərbaycan hökuməti ilə birgə Axıska türklərinin vətənlərinə dönməsini təmin etsələr, Rusiyanin xeyir-dua verdiyi "Cavex" problemi əsasən həll olunar.*** Üstəlik, Gürcüstan iqtisadiyyatı demək olar ki, Azərbaycana bağlıdır. Həm enerji resurslarının istehlakçısı olan Gürcüstan öz tələbatını ödəmək, həm də Bakı neftinin Avrasiyaya nəqlində tranzit ölkə kimi azərbaycandan asılıdır. Türkiyə vasitəsi ilə Avropaya çıxmaqla da Gürcüstan öz təcrid vəziyyətinə son qoya bilər. bundan sonra TAB-da iştirak onun təhlükəsizliyinin də təminatçısı olacaq. Əlbətqə TAB-da birgə müdafiə, hərbi əməkdaşlıq strukturlaşmalıdır.  Biz bu məsələyə əvvəlki bölmələrdə toxunmuşduq. Gürcüstan TAB ölkələrinin əksəriyyəti ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq edir. Ona görə də, Gürcüstanin TAB-a qoşulmasında güclü çətinlik olmayacaqdır. Həm TAB-ın yaradılması, həm də Gürcüstan və bir çox digər dövlətlərin bu bloka qoşulması

prosesi sürətləndirilməlidir. Əks halda Rusiyanın proseslərə müdaxilə və təsir imkanları artmaqda davam edəcəkdir. Artıq 2000-ci ilin oktyabrında Rusiya ilə Gürcüstan həmin ilin dekabrında hərbi-siyasi və hərbi-texniki əməkdaşlıq haqda müqavilələr imzalamaq haqda razılığa gəldilər. Bu çox ciddi məsələdir. Ona görə vəziyyətin daha da mürəkkəbləşməməsi üçün konsolidasiya proseslərini gücləndirmək zəryrətdir.

***TAB-a qoşylmaqda digər əhəmiyyətli bir dövlət Pakistandır.*** Pakistan nəhəng Şərq dövləti kimi bu regionda, ümumiyyətlə, dünyada ciddi siyasi təsir imkanları olan bir dövlətdir. 580 000 (beş yüz səksən min) nəfərlik orduya malik bir ölkə, həm də atom silahına malik olmaqla dünyada hesablaşılan, regionda isə balansı saxlayan ən ciddi geosiyasi subyektdir. ***Uzaq Şərqdə YDD, yaxud ƏA dövlətlərinin vətyyətə nəzarət edəcəyi Pakistanın hansı mövqedə olacağından xeyli dərəcədə asılıdir.*** Pakistan ABŞ-ın burada ən yaxın müttəfiqi olmasına baxmayaraq bəzi məqamlarda onun açıq və ciddi Dəstəyini ala bilmir. Hindistanla Kəşmir bölgəsi uğrunda mübarizədə və eyni zamanda, Hindistanın atom silahı istehsalı, sınaqları məsələsində ABŞ açıq və birmənalı şəkidə Pakistanı - öz müttəfiqini müdafiə edə bilmir. Çünki ABŞ Hindistanla Çinə qarşı balans saxlayır, və buna görə, Hindistana qarşı açıq çıxa bilmir. ***Əgər TAB bu ölkələrə gəlib çıxar və Pakistanı da blokda təmsil olunarsa, ABŞ TAB timsalında həm də Pakistanı açıq olmayan formada müdafiə edə bilər və təbii ki, Pakistan da bundan razı qalar. Pakistanın nəhəig dövlət olmasına baxmayaraq, ciddi müttəfiqə ehtiyacı vardır. Çox mürəkkəb regionda Pakistanın daha inamlı olmasını TAB-ın bölgədəki ayaq səsləri təmin edəcəkdir.*** Pakistan müsəlman dövləti kimi TAB-da və digər müsəlman dövlətləri ilə müxtəlif təşkilatlarda əməkdaşlıq edir. Həm də müxtəlif dövlətlərlə ikitərəfli əməkdaşlıqlar yaradıb. O cümlədən Azərbaycanla da Pakistanın çox yüksək səviyyəli əlaqələri mövcuddur. Bundan başqa, Pakistanın Türkiyəyə çox müsbət münasibəti vardır.

Amma etiraf olunmalıdır ki, bu pərakəndə əməkdaşlıqlar arzuolunan effekti vermir. Üstəlik, bu əməkdaşlıqlarda dövlətlər təbii ki, özlərinin mənafelərini birbaşa önə çəkib, həm təhlükəsizlik, həm inkişafda qısa vaxtda qazanc əldə etmək istəyirlər. Necə deyərlər, ortada bir siyasi-idelolojі boşluq var. Amma blok əməkdaşlığı olacaq TAB bir siyasi-ideoloji hədəfə-dünyada Yeni Düzən gəlişdirməyə yönəldiyindən, buradakı dövlətlər də mənfəətlərini ümumi nəticə alınandan sonra, yəni YDD siyasəti dünyada hakim siyasət olandan sonra götürəcəklərini bildklərindən öz aralarında rəqabətlə daha çox məşğul olmayacaqlar. Necə deyərlər, siyasi sərmayə gələcəyə qoyulur. Əlbəttə, paralel olaraq blok devlətlərinin maraqları da mütləq nəzərə alınmaqla. Blokdakı hərbi, siyasi, iqtisadi əməkdaşlıq prinsipləri dövlətlərin maraqlarını tam təmin edəcəkdir. Pakistanın TAB-da təmsil olunması regionda, o cümlədən Uzaq Şərqdə qüvvələr nisbətinin ciddi dəyişikliyinə səbəb olacaqdır (bax:**Xəritə 10**). Çinin mövqelərnin əhəmiyyətli dərəcədə zəiflədiyini görən İndoneziya Malayziya kimi böyük müsəlman dövlötləri (əsasən) mövqrylərinə yenidən baxa bilərlər. Bu, ABŞ-ın Sakit okeanda "bir ayağı üstə" - Yaponiyada dayanmasına son qoyar və güclü söykənəcəklərə malik olar. Beləliklə, YDD qurucuları TAB-ın şəxsində təkcə Çının qərb cinahında deyil, həm də şərq və cənub-şərq cinahında möhkəm mövqeylərе əldə edər. Çinin Hindistanla, Yaponiya ilə, Vyetnamla ərazi mübahisələri, Tayvanla məlum münasibətləri onun bölgədəki etibarını onsuz da azaldıb. İndoneziya və Malayziya kimi ölkələrin də mövqeylərinə yenidən baxması Çin iddialarına birdəfəlik son qoyar. Əvvəldə bildirdiyimiz kimi, onda bəşəriyyətin təhlükəsizliyini və inkişafını düşünən hər kəsin arzusu həyata keçər. Bu nəhəng dövlət və digər ƏA dövlətləri də qarşıdurmanın əhəmiyyətsizliyi və mənasızlığını anlayaraq dinc əməkdaşlıq yolunu seçər və YDD-nin qurulmasında iştirak edərlər. Deməli, ***Pakistanın TAB-da təmsil olunması mühüm siyasi***

***hadisəyə çevrilə bilər. Bu dövlətin TAB-a konsolidasiyası Əfqanıstanı da bu bloka cəlb edəcəkdir.***




Хәритә 10

Əfqanıstanın regiondakı geosiyasi çəkisi məlum məsələdir. Yerləşdiyi coğrafi məkan, təbii ehtiyatları ölkənin önəmini artırır. Üstəlik, postsovet Orta Asiya respublikaları ilə münasibətləri, bu dölətlərə təsir imkanları diqqət mərkəzindədir. Regiondakı sabitlik, aydınlaşma, dövtətlərin siyasi oriyentasiyasının müəyyənləşməsi və çətinləşməsi həm

bu dövlətin daxili durumuna, həm də qonşu dövlətlərlə münasibətlər sisteminə xeyli dərəcədə bağlıdır. Əfqanıstan çətin dövrünü yaşasa da, burada baş verən mürəkkəb proseslərə baxmayaraq, bu dövlətinTAB-da iştirakı vacibdir və mümkündür. Bu olkə müsəlman dövləti olduğundan, əsasən, müsəlman respublikaları təmsil olunan TAB onunçün doğma və rahat görünər. Bir də ki, Əfqanıstan həddən artıq izolə edilmiş, ifrat dərəcədə təklənmiş bir vəziyyətdədir. Onun özünün də əməkdaşlığa ehtiyacı vardır. Postsovet ölkələrin blokda çoxluq təşkil etməsi, onların yaxın zamanlarda Rusiya imperİiyasından qopması amili də Əfqanıstanı bu ölkələrlə birlikdə Rusiya imperialist siyasətini önləməyə həvəsləndirər. Əvvəla , bu blokun formalaşması ən azı Əfqanıstana ona görə lazımdır ki, Rusiya ilə Əfqanıstan arasında bir təhlükəsizlik zonası – bufer zona yaranır. Üstəlik, mənəvi mənbə də vardır. Rusiya 80-ci illərdə Əfqanıstana hücum edib, elə bir dağıntı və sabitsizlik miras qoyub ki, Əfqanıstan rusiyanı heç vaxt bağışlaya bilməz və onun zəif olmasında, dünyada və regionda təsir imkanlarının azalmasında son dərəcə maraqlıdır. Əfqanıstanın Rusiya - Çeçenistan müharibəsində çeçenlərə yardımı təkcə dini təəssübkeşlik yox, həm də məhz bu amillə sıx bağlıdır. Doğrudur, din amili də var və bu amil Əfqanıstanın daxili birliyinə xidmət etdiyi üçün lazım olduğundan çox qabardılır. ***Əfqanıstan xalqı müxtəlif etnosların konsolidasiyasından formalaşan xalqdır. Bu etnogenez prosesi millətləşmə mərhələsinə çatmadığından demək olar ki, Əfqanıstan bir etnik federasiya təsiri bağışlayır.*** Ona görə, burada din bir nömrəli birləşdirici amildir. Aralarında amansız mübarizə aparan bu etnoslar 80-ci illərdə Rusiyanın hücumuna qarşı bir cihadla dini çağırışla dayandılar və Rusiyanı diz üstə qoydular. Yəni Əfqanıstanlılar bu ölkədə dinin hansı yeri tutduğunu gözəl anlayırlar. Lakin bu amil və Əfqanıstanın dünya birliyi tərəfindən təklənməsi İranın həm bu ölkəyə, həm də regiona təsir imkanlarını artırır. Əfqanıstan TAB-ın müsəlman ölkələri ilə blokda əməkdaşlığa başlasa,

İrana ehtiyacı qalmayacaq. Əvvəla, bu dövlətin necə deyərlər, mənəvi tələbatı ödənəcək, ikincisi, bütün sahələrdə əməkdaşlıq imkanları yarandığından, özünə ögey münasibət hiss etmədiyindən YDD prinsiplərinin gerçəkləşməyinə kömək edəcəkdir. ***Əfqanıstanın TAB-a qoşylması bir də ona görə xeyli asandır ki, TAB özəyi ölkələri müsəlman-türk ölkələridir. Əfqanıstan müsəlman ölkəsi olmaqla bərabər, həm də əhalisinin boyük bir hissəsi türklərdir. Türklər, əsasən, Əfqanıstanın şimlında yerləşir. Bu amil də inteqrasiyanı xeyli asanlaşdırır. Ümumiyyətlə, Əfqanıstan TAB-a daxil olması həm bu ölkənin özü üçün, həm də Qərb və ABŞ üçün və YDD üçün, regional təhlükəsizlik, region dövlətlərinin əməkdaşlığı üçün də çox əhəmiyyətlidir.***

***Birincisi,*** bununla Orta Asiyada sabitlik daha da dayanıqlı olacaqdır. Orta Asiya resppublikalarındakı rejimlərə qarşı mübarizə aparan quruplar dəstəyini Əfqanıstandan alır və orada bazalaşıb. Doğrudur, bu respublikalarda avtoritar rejimlər mövcud olduğundan onlara qadşı mübarizə zəruriləşib. Buna baxmayaraq, bu ölkələrdə silahlı mübarizə alqışlana bilməz. Demokratik, qanuni metodlarla mübarizə məqsədəuyğundur. Silahlı qarşıdurma nəinki bu ölkələrin özünü, bütün regionu ciddi sabitsizliyə sürükləyə bilər. Ona görə, Əfqanıstanı TAB vasitəsilə Avropaya, ABŞ-a doğmalaşdırmaqla, buraya yeni dəyərləri ötürməklə bu ölkənin Orta Asiya respublikalarında proseslərin normal məcraya düşməsini təmin etməyə sövq etmək olar.

***İkincisi***, Əfqanıstan TAB-a daxil olmaqla həm özü siyasi oriyentasiyasını qətiləşdirər, həm də Orta Asiya respublikaları daha Əfqanıstandan təhlükə deyil, dostluq münasibəti gördüklərindən siyasi mövqelərində inamlı olarlar.

***Üçüncüsü,*** Əfqanıstan və Pakistanın qoşulduğu blok üzvülərinə, o cümlədən Orta Asiya respyblikalarına Rusiya təzyiqlərini davam etdirməyə cəsarət edə bilməz.

***Dördüncüsü,*** TAB "körpüsü" vasitəsilə Qərb Əfqanıstan adlı zəngin bir bazar əldə edəcəkdir. Zəngin təbii resursları

olan bu ölkə dünyaya açılmaqla özü də inkişaf edəcək, onillərlə ölkədə gedən müharibənin dağıntılarını aradan qaldıracaqdır. Ölkə inkişaf etdikcə başqa mühümm bir məsələ də çözüləcəkdir. Bu ölkədə kasıbçılıq baş alıb getdiyindən, xaos və idarəolunmazlıq hakim kəsildiyindən narkotika istehsalı və ixracatı fantastik rəqəmlərlə ifadə olunur. Narkobiznes heç bir dövlətin daxili işi olmayıb, bəşəri problemdir. Deməli bu ölkədə sabitlik, inkişaf olduqca narkobiznesin də qarşısı alınacaqdır. Bu bütün dünya dövlətləri üçün əhəmiyyətli irəliləyiş ola bilər.

***Beşincisi,*** Əfqanıstanın şimal əraziləri türk etnosundan ibarətdir və tezliklə TAB ölkələri ilə inteqrasiya olunmaqla geridə qalmış bu ərazilər mədəni, iqtisadi, sosial inkişaf yoluna qədəm qoyacaqlar. Bu amil isə Əfqanıstanın daxili durumunda sabitlik yaranmasında mühüm rol oynayır.

***Altıncısı,*** TAB dövlətləri və Qərb dövlətləri Əfqanıstan-Pakistan yolu ilə Ərəb dənizinə, Kəngər körfəzinə yeni qısa təhlükəsiz çıxış əldə edirlər. Bu çıxış həm də körfəzdə qüvvələr nisbətinin kəskin dəyişməsinə səbəb olar.

***Yeddincisi,*** Əks Alyans dövləti olan Hindistan şimal-qərb və qərb cinahından təhlükəsizləşdirilər.

***Ümumiyyətlə, YDD yaratmaq istəyən hər kəs bilməlidir ki, bütün bir ölkənin xalqlarının inancına, inamına, dini baxışlarına müxtəlif ad qoyub, onları "islam fundamentalisti", "islam terroristi" və s. adlandırmaqla ölkələri əzmək və ya "islah" etmək olmaz. Doğru yol - ancaq dinlər və sivilizasiyalararası dialoq, hər mənada əməkdaşlıq, qarşılıqlı kömək və ədalət, birlik, bərabərlik içərisində yaşamaqdır.*** Əfqan xalqının da buna haqqı və ehtiyacı vardır. Bu ehtiyacın böyük hissəsi təklif etdiyim TAB-da Əfqanıstanın təmsilçiliyi ilə ödənilə bilər.

# TAB-ın Yaxın Şərqə təsir imkanları

Yaxın Şərq geostrateji bir region olmaqla yanaşı, olduqca həssas və qarışıq bir bölgədir. Həm coğrafi mənada yerləşdiyi yerin əhəmiyyəti, həm zəngin korbohidrogen ehtiyatları burada super dövlətlərin maraqlarının toqquşmasına və ciddi rəqabətə səbəb olub. ***Bölgədə demokratik dəyərlərin üstün mövqedə olamaması diktatura rejimli dövlətlərin çoxluğuna gətirib çıxarır. Belə rejimlər xalqın iradəsi ilə formalaşmadığından təbii ki, zora söykənir, qeyri-legitim mövcudluqlarını zorla uzadırlar.*** Onlar üçün təhlükə törədən demokratik təsisatlar və ölkələr, ayrı-ayrı müxtəlif insanlar hər cür basqıya, o cümlədən terrora məruz qalırlar. Heç təsadüfi deyil ki, terrorist dövlətlər kimi tanınan dövlətlərin əksəriyyəti bu regionda yerləşir. Bu ölkələrdəki diktatura, həm də həmin ölkələrin zənginliyi başqa bir təhlükəni otaya çıxarır. Ölkələrin maliyyə vəsaitinin əsas hissəsi silahlanmaya sərf edilir. Son onilliklərdə Uzaq Şərq ölkələrindən sonra ən çox silahlanan bölgə məhz Yaxın Şərq ölkələri olmuşdur. Həm də bu ölkələr adi silahlarla deyil, ən müasir silahlarla silahlanmaya üstünlük vermiş, raket istehsalına qədər hərbi sənaye komplekslərini modernləşdirmişlər. İran uzaqmənzilli yer-yer tipli raketlər istehsal etmiş, 2000-ci ildə öz istehsalı olan ilk sualtı qayığı istifadəyə vermişdir. Bundan başqa, Buşəhrdə nüvə reaktoru qurmuşdur. Rusiyadan, Çindən nüvə silahı istehsalı üçün komponentlər almışdır. Rusiyadan aldığı texnologiya kompleksi müqabilində müasir tanklar istehsal edən zavod artıq İranda ilk məhsullarını buraxmışdır.

İraq İrandan xeyli əvvəl sürətlə silahlanma kursu götürmüş, hətta Küveytə hücum edərək buranı işğal da etmişdir. Sonradan ABŞ və Qərbin fəal hərbi-siyasi müdaxiləsi ilə bu proses məcraya salındı və İraq öz sərhədləri daxilinə

çəkildi. Bu müharibə zamanı İraqın artıq nüvə silahı istehsalı üçün hazır olan reaktorları dağıdıldı, yoxlamalar zamanı məlum oldu ki, bu ölkə külli miqdarda kimyəvi və bioloji silaha malikdir. Hətta bu müharibədən xeyli müddət keçdikdən sonra ABŞ-ın bölgədə döyüşmüş əsgərləri arasında qəribə xəstəliklər yayılmağa başladı. Bu o deмək idi ki, döyüşlərdə ən müasir bioloji silahlardan istifadə olunub. Bu cür sürətli silahlanma həm də arsenala kimyəvi, bioloji silahların daxil edilməsi, nüvə silahı əldə etməyə cəhd göstərmək təkcə region üçün təhlükə otmayıb, bütün dünya üçün təhlükədir. Bu zəngin diktatyra dövlətləri ölkə vəsaitini silahlanmaya və şəxsi varlanmağa yönəltdiklərindən, sözsüz, əhali son dərəcə kasıb duruma düşür ki, bu da sosial partlayışların səbəbi ola bilər. Demokratik dəyərlərin belə dövlətlərin yerləişdiyi regiona gəlişi ölkədaxili demokratikləşməyə, bu isə avtoritarizmə, diktaturaya son qoyulmasına səbəb ola bilər. Ona görə, bu dövlətlər regional qeyri-sabitlikdə maraqlıdırlar. Onların bu cəhəti silahsatan dövlətlərin də nəzərindən qaçmır. Rusiya super silah istehsalçısı və ixracatçısı kimi belə dövlətlərdən regional münaqişə yaratmaq üçün katalizator kimi istifadə edir. Nəticədə, silah bazarı əldə edir, regional təsir imkanları qazanır. Yaxın Şərq münaqişələrinin hamısında Rusiya külli miqdarda silah satışına nail oldu. Bu münaqişələrin hamısının yaranmasında, ən azı bitməməsində Rusiyanın xüsysi xidmətləri var. Təsadüfi deyil ki, İsrail-Fələstin münaqişəsinin yenidən alovlandığı  2000-ci iln sonlarında bir çox vasitəçilik missiyaları, Şarmaş-Şeyx sammiti nəticə vermədi. Yenidən xeyli ərəb və yəhudi toqquşmalarda xəsarət aldı, həlak oldu. Fələstin Azadlıq Təşkilatının İcraiyyə Komitəsinin üzvü Mahmud Abbas Rusiya Xarici İşlər Naziri ilə görüşüb xahiş etdi ki, Rusiya münaqişənin həllində vasitəçiliyi öz üzərinə götürsün. Bu həm Fələstin ərəblərinin anladığına işarədir ki, münaqişənin qızışmasında Rusiya barmağı var, həm də ABŞ-a təzyiqdir. ABŞ üçün regionda siyasi diskomfort yarandı. Ərəb

Dövlətləri Liqasının təcili iclas keçirərək ABŞ-ın İsraili dəstəkləməsi bəyan etməsi və pisləməsi ciddi siqnaldır. Bunun ardınca Liqanın Fələstini, müqəddəs yerləri müdafiə edəcəkləri bəyanatları ilə çıxış etməsi ciddi neqativ sonluğa səbəb ola bilər. Məsələnin mürəkkəbliyini nəzərə alan Avropa dövlətləri də prosesə müdaxilə etməyə başladı. Almaniya konsleri Şrayder münaqişə bölgəsinə gedib, ərəb dövlətləri liderləri ilə görüşərək sülh yaratmağa və qorumağa cəhd etdi. Buradan bir neçə qənaət hasil olur:

***Birincisi,*** əvvəlki bölümlərdə qeyd etdiyimiz kimi, istənilən alyans, blok, müttəfiqlik münasibətləri formalaşdırdıqda eninə-uzununa yox, dərinliyə üstünlük verilməlidir. Konsolidasiyanın dezinteqrasiya ilə nəticələnməsi üçün mənəvi boşluq olmamalıdır. ABŞ-ın və Qərbin super dövlətlərinin region dövlətləri ilə əməkdaşlığında komponentlərin yoxluğu, Yaxın Şərq prosesinə arzuolunan təsir göstərməyə imkan vermədi.

***İkincisi,*** birinci qənaətdən çıxış edərək bildirmək istəyirəm ki, TAB-ın formalaşdırılması din, dil, sivilizasiya birliyinə söykəndiyindən dərin konsolidasiya yekunu ola bilər və bu blok tezliklə yaradılmalıdır. Bu bir zərurətdir.

***Üçüncüsü,*** TAB formalaşana qədər Yaxın Şərq sülhünü yaratmaq üçün vasitəçilik missiyası Almaniya timsalında Qərb dövlətlərinə və ya Rusiyaya həvalə edilməməli, münaqişə iştirakçılarına mənəvi cəhətdən yaxın olan, bu dövlətlərin etibar edə biləcəyi dövlətlər həmin misiyasını öz üzərinə götürməlidir. Hələlik bu missiyanı Azərbaycan -Türkiyə tandemi öz üzərinə götürə bilər. Türkiyə müsəlman dövləti kimi Fələstinin etimadını və etibarını qazanar, İsraillə isə Avropa dəyərlərinə sadiq olan, həm də ikitərəfli strateji əməkdaşlığa malik ölkə kimi anlaşıb vasitəçilik edir. Çünki Türkiyə-İsrail münasibətləri çox dərindir. Və bu əməkdaşlıq hərbi-texniki səviyyəyə qədər yüksəlib. 1990-cı illərdə Türkiyə öz hava məkanında İsrail hərbi aviasiyasının təlimlərinə belə şərait yaratdı. İsrail Türkiyənin köhnə hərbi

təyyarələrini belə modernləşdirdi. Başqa sahələrdə də bu ölkələr arasında sıx münasibətlər vardır.

Azərbaycan da bu missiyada üstün imkanlara malikdir. Müsəlman dövləti kimi Fələstinə birbaşa və ya təmsil olunduğu müsəlman dövlətləri birlikləri ilə təsir edə bilər. Əlbəttə, ədalət amilinin prioriteti ilə. İsraillə də normal münasibətləri vardır. Bu münasibətləri ən yüksək balla qiymətləndirmək olar. İsrail dövləti yarandıqdan sonra Azərbaycandan da xeyli yəhudi orada məskunlaşıb və onlar Azərbaycana çox bağlıdırlar, sıx təmaslar saxlayır, imkanları daxilində Azərbaycanı həmişə müdafiə edirlər. Yəhudilər Azərbaycanda indi də Bakıda, Qubada kompakt halda yaşayır və ən yaxşı münasibətlər görürlər. Ona görə, barış missiyasında Azərbaycanın İsrailə də təsiri əhəmiyyətli dərəcədə ola bilər.

***Dördüncüsü,*** TAB-da təmsil olunacaq dövlətlərin regionda və dünyanın çeşidli bölgələrində təsir imkanları üzə çıxdı. Türkiyənin timsalında bu təsir imkaatarı qiymətləndirildi. ABŞ prezidenti Klintonun 2000-ci ilin oktyabrında ABŞ Konqresinə məktubundakı tezislər ciddi etirafdır. Erməniprəst konqresmenlərin "erməni soyqırımı"na aid qətnaməni ABŞ Konqresinin nümayəndələr palatasında səs verməyə çıxartmaq cəhdi təkcə Türkiyədə, Azərbaycanda deyil, o cümlədən ABŞ administrasiyasında da narazılıqla qarşılandı. Türkiyə ordusunun Baş qərərgah rəisinin ABŞ-a rəsmi dəvəti rədd etməsindən bir neçə kəskin bəyanatından sonra ABŞ prezidenti Bill Klinton Konqresə məktubla müraciət etdi. Oktyabrın 19-da bu qətnamə son anda iclasın gündəliyinə daxil edildi. Qətnamə nümayəndələr palatasına qədər bütün instansiyaları keçmişdi. Spiker Dennis Hastert Klintonun məktubunu aldıqdan sonra palata çoxluğunun başçısı – Texasdan olan respublikaçı konqresmen Tom Dileyə müraciət etdi. Səsvermə keçirilmədi. 180 dərəcəli dəyişikliyə səbəb Klintonun məktubu idi. Məktubda bildirilirdi ki, Birləşmiş Ştatların milli təhlükəsizlik maraqları ciddi

təhlükə altındadır və bu qətnamə qəbul olunacağı halda, Yaxın Şərqdəki vəziyyət də gərginləşə bilər. Bundan əlavə, İraq amilini də unutmamaq tövsiyyə olunurdu. Prezident Klinton Orta Asiyadakı hadisələri, Balkanlardakı sabitləşməni, regiondakı Yeni enerji mənbələrinin işlənməsini nəzərə aparaq konqresmenləri bu qətnaməni müzakirə etməməyə çağırıbdır. "Prezidentin xahişinə hər bir vətənpərvər Amerikalı diqqətlə yanaşmalıdır"-deyən spiker "erməni soyqırımı" qətnaməsi ətrafında gedən müzakirələrə xitam verdi. Bu münasibət həm Türkiyənin, həm də TAB ölkələrinin geosiyasi rəqabətdə ciddi roluna işarədir. ***Və bütün bunlar bir daha qənaətimizi təsdiq edir ki, Yeni Dünya Düzəni siyasətinin dönməz xarakter alması üçün üçüncü platsdarm formalaşdırılmalıdır. Bu platsdarmın yaranması həm də Yaxın Şərq münaqişələrinin həllinə və regionda sabitliyə yardımçı ola bilər. YDD Alyansı öz ideyaları ilə bura gəlməzsə, Rusiya bölgəyə gələcək.*** FAT İcrayyə Komitəsinin üzvü Mahmud Abbasın Rusiyaya təklifi göydəndüşmədir. Rusiya bölgəyə gəlməklə qlobal siyasi oyunu sərhədlərindən xeyli uzağa Yaxın Şərqə keçirir. Burada Yeni dayaqlar axtarmağa çalışan Rusiya kiçik bir nəticəyə belə nail olsa, əliboş qayıtmayacaq. Hər halda burada Rusiyanın Sudan, İraq, İran kimi dostları var. ***Təkliflərim reallaşmasa, Rusiya özü nailiyyətlər əldə etməklə yanaşı, dostlarını da dirçəldəclkdir.*** Bu "dostların" xortlaması isə onlarla bağlı qismən həll olunmuş, yaxud yeni problemlərin xortlaması olacaqdır. Bu isə onillərlə ağır zəhmət bahasına ortaya qoyulmuş sabitliyin, digər nailiyyətlərin üzərindən xətt çəkilməsi deməkdir.

***Beşincisi,*** Fələstin-İsrail münaqişəsinin yenidən qızışması onu göstərdi ki, problemin üstünü qapamaq və ya onu yarımçıq həll etmək məqbul deyil. ***Bütöv Azərbaycan məsələsinin üstünü qapamaq da regiona bomba qoymaq və gözləməyə bərabərdir. İstənilən məsələnin tam həlli ədalətli status-kvoya bağlıdır. Bir daha o məsələyə***

***qayıdırıq ki, ABŞ ikinci dünya müharibəsindən sonra Almaniyaya göstərdiyi münasibəti Azərbaycana göstərməlidir. Azərbaycan TAB olkəsi kimi həm də bütövləşərsə, onda regionda və Yaxın Şərqdə siyasi vəziİətin yaxşılaşmasına, uzunmüddətli sabitliyin yaranmasına səbəb olar.*** Azərbaycanın bütövləşmə yolları və formalarına əvvəlki bölümlərdə toxunmuşduq. Hansn formada olursa-olsun, indiki xatalı və hər an regionun sabitliyini poza biləcək və ya daxili sabitliyi pozula biləcək İranın yerində demokratik YDD oriyentasiyalı dövlətlər olacaq. ***Ən azından 130 milyonluq Azərbaycan-Türkiyə tandemi regional sabitliyin qarantı və Yaxın Şərqin siyasi oriyentasiyası üçün dartıcı qüvvə, burada yeni platsdarmın yaradılmasına qədər YDD üçün miniplatsdarm olacaq.*** Türkiyə-Bütöv Azərbaycan arasındakı İraq pozuculuq əməllərini davam etdirə bilməyəcək. İraqdakı Kərkük türkləri mədəni və ya siyasi muxtariyyət qazanarsa, İraqın şimal ərazilərinin faktiki olaraq kürdlərin nəzarətində olduğunu nəzərə alsaq, regionda yeni siyasi sityasiya formamaşa bilər. İraq demokratik bir konfederasiyaya çevrilə bilər. Bu həm də Rusiyanın Bakı-Ceyhan əsas neft kəmərinə maneçilik məsələlərini də aradan qaldırar. Rusiyanın xarici siyasət idarəsi Türkiyənin PKK probleminə rəğmən qeyri-sabit ölkə olduğunu vurğulayır və eyni vaxtda, PKK yetkililəri kəmərin bu ərazilərdən keçməsinə mane olacaqları haqda bəyanat verirdilər. Təsadüfi saymaq olmaz ki, Bakı-Ceyhan xəttinin yekun sənədləri 2000-ci ilin oktyabırında imzalanan kimi yaxın Şərqdə Fələsti-İsrail münaqişəsi yenidən qızışdı və FAT İcrayyə Komitəsinin sədri dərhal Moskvaya vasitəçilik etməsini xahiş etməyi nəzərdə tutan səfər yapdı. Bakı-Ceyhan ƏNK nə vaxt gündəmə gəlirsə, Rusiya hansısa qarışıqlıq salır. Baxın 1993-cü ildə Milli Hökumət Qərb şirkətləri ilə əsrin müqaviləsini imzalamağa hazırlaşır. Bakıda çevriliş olur. 1994-cü ilin oktyabrında əsrin müqaviləsi məqamı və çevriliş cəhdi. 2000-ci ildə ƏNK-nə aid yekun sənəd imzalanır. Yenə

qarışıqlıq. Rusiya qarışıqlıqları əlindəki rıçaqlarla salır. ***Əgər İraqın şimalında bir kürd muxtariyyəti yaranarsa, İraq üç subyektli-ərəblərin-kürdlərin, Kərkük türklərinin formalaşdırdığı demokratik konfederasiyaya çevrilərsə, Türkiyə sakitliklə PKK məsələsinə son verər, Bakı-Ceyhan kəmərinə Rusiyanın təhdidlərindən biri də aradan qalxar.*** Və ümumiyyətlə, Rusiya Yaxın Şərqdən birdəfəlik gedər. ƏA dövlətləri olan İran və İraqın yerində demokratik yeni dövlətlər olar. Bölgə uzunmüddətli sabitliyə qovuşar. Regionun zəngin maddi ehtiyatları, xüsusən karbohidrogen ehtiyatları bəşəriyyətin inkişafı, rifahının yaxşılaşması, o cümlədən yerli əhalinin yaşayış tərzinin yaxşılaşmasına sərf olunar. Mənasız müharibələrə, qan axıdılmasına son qoyular. ***Byndan sonra YDD dəyərləri asanlıqla Afrika qitəsinə irəliləyəcək və burada bərqərar olacaqdır. Bütün bunlar utopik geostrategiya deyil, yaxın gələcəyin gerçəkliyidir.*** Bəşəriyyətin mövcudluğu, təhlükəsizliyi, bir ailə kimi yaşaması və inkişafı buna bağlıdır.

## Azərbaycan YDD siyasətinin iştirakçısıdır.

Əksər dünya dövlətləri, o cümlədən Azərbaycan Yeni Dünya Düzəni siyasətinə onsuz da cəlb olunublar. Təklifim Azərbaycanın da, bölgə dövlətlərinin də imkanlarından tam istifadə etmək, pərakəndəliyə son qoymaq, siyasi, iqtisadi, mədəni təmərküzləşməni dərin inteqrasiyalı platsdarm üzərində həyata keçirməkdir. Amma bu o demək deyildir ki, müxtəlif ölkələrin, ölkədaxili həyatın lokal sahələrinin yeni prinsiplərə uyğunlaşdırılması dayandırılmalıdır. Bu proses bütün ölkələrdə o cümlədən Azərbaycanda gedir. Azərbaycan beynəlxalq təşkilatların üzvü kimi vahid dünya ailəsi şəklində

yaşam tərzinə adaptasiya olunur. Əslində bu prosesin bütün dünya ölkələrində getməsi onları tədricən Yeni Dünya Düzəninə hazırlamaq xarakteri daşıyır. Bu yanaşma tədricən Avropanın sərhədlərini aşır. 2000-ci il oktyabrın sonlarında ABŞ senatının nümayəndələri Bakı səfərində elan etdilər ki, ABŞ senatının region və Azərbaycan haqda düşüncələri üç kateqoriyaya bölünür:

1) Senat Azərbaycanı, bu bölgədə olan dövlətləri də Rusiyanın təsiri altında qalmağa məcbur olmuş ölkələr kateqoriyasına salır. Əvvəllər ABŞ-da belə bir məfhum yalnız Şərqi Avropa ölkələrinə aid edilirdisə, indi senat hesab edir ki, Azərbaycan kimi dövlətlər də uzun illər milli qürura malik olan, bu hissi daşıyıb yaratmış xalqlardandır ki, onların Rusiyadan qurtulmasına kömək etmək lazımdır.

2) Azərbaycana baxışlarda təhlükəsizlik məsələsi önə çəkilir. Hesab olunur ki, Azərbaycanın təhlükəsizliyi bütün regionun təhlükəsizliyi üçün olduqca əhəmiyyətlidir. Bu, Azərbaycanda, regionda olan enerji ehtiyatlarının dünya bazarlarına çatdırılması üçün ölkənin sabit və təhlükəsiz yaşamasının təmin olunmasına yardım etmək deməkdir.

3) Azərbaycanda demokratiyanın inkişafını bütün regiona demokratiyanın yayılması kimi görür. Hesab olunur ki, gələcək təhlükəsizliyin təmin olunmasının əsasını da məhz Azərbaycanda demokratiyanın kök atması, əsl demokratik, inkişaf edən dövlətə çevrilməsi təşkil edir.

***Göründüyü kimi, ABŞ senatıda artıq Şərqi Avropada ləngimənin fərqindədir və TAB yerləşməsi nəzərdə tutulan regiona, o cümlədən Azərbaycana önəm verməyi və əməli himayəin zəruriliyini anlayır.*** Yəni, prinsipcə bu kimi zərurətlər super dövlətlərin, beynəlxalq təsisatların Azərbaycanla da bağlı müəyyən addımlar atmasına səbəb olur. Azərbaycan da qarşılıqlı olaraq addımlar atır və dünya ailəsinə qovuşma cəhdləri edir. Azərbaycanın coğrafi mövqeyi,

təbii resursları iqtisadi inteqrasiyasını sürətləndirir. Qlobal iqtisadi layihələrdə iştirak sıradan birisi kimi deyil, əsas aparıcı dövlətlərdən birisi kimi Azərbaycana da aid edilə bilər. Əsasən regionun karbohidrogen ehtiyatlarının işlənməsinə aid qlobal layihələr, əlbəttə, Azərbaycansız təsəvvür edilə bilməz. Azərbaycanın əvəzolunmazlığı təkcə istehsalçı olduğuna bağlı deyildir. Bu həm də tranzit ölkə kimi öz məhsullarını, və Orta Asiya respublikalarının məhsullarını Avropaya çıxaran enerji, ticarət dəhlizi olmasına bağlıdır. "İpək yolu"nun modernləşmiş formada istifadəsi də Azərbaycansız təsəvvür edilə bilməz. Bunu Qərb dövlətləri də anlayır. Qərbin yardımı ilə Azərbaycan hava Yolları Dövlət Konsernində hava ipək yolunun yaradılması üçün layihə həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan hava hərəkətinin idarəetmə sistemi (AzATS) uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə "Bakı" beynəlxalq hava limanında Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən müəyyənləşdirilən hava hərəkətinin idarəetmə (HHİ) sisteminin modernizasiyası layihəsi üzrə avadanlıqların quraşdırılması və istismara verilməsn işləri görülüb. Yeni avadanlıq və proqram HHİ sistemini Beynəlxalq Mülki Aviasiya təşkilatının normalarına, YSAO normalarına uyğun surətdə imzalanmış mülki aviasiya sahəsinə aid beynəlxalq sazişlər çərçivəsində hava şirkətinin təhlükəsizliyinin təmin edilməsinə dair standartlar səviyyəsində həyata keçirməyə imkan yaradacaq. Avropa Yenidənqurma və İnkişvf Bankı başqa layihələrin də Azərbaycanda reallaşmasını təmin edib. Bundan savayı, Azərbaycan Dünya Bankında və Bsynəlxalq Valyuta Fondunda İsveçrənin başçılıq etdiyi səsvermə qrupuna daxildir. Bu təşkilat da Azərbaycanla səmərəli əməkdaşlıq qurub. Belə töşkilatlar maliyyə vəsaitləri ayırmaqla iqtisadi-sosial dirçəlişin əsasını qoyur, ölkənin iqtisadi sisteminin müasir dünya iqtisadi sisteminə uyğunlaşmasını da təmin edirlər.

Azərbaycanla əməkdaşlıq edən belə təsisatlardan biri də Avrasiya Fondudur. Bu təşkilatın Azərbaycana ayırdığı

qrantlar aqrobiznes və peşəkar xidmətlər sahəsi üzrə özəl sektorun, həmçinin seçkilərin müstəqil monitorinqi və jurnalistlərin peşəkar təcrübələrini artırmaları üçün treyninq proqramını dəstəkləməkdən ötrü yerli qeyri-hökumət təşkilatlarına təqdim edilmişdir. Avrasiya Fondunun 2001-ci il üçün Azərbaycan üzrə qrant proqramları xərcləri 1,25 mln. (bir tam yüzdə iyirmi beş milyon) ABŞ dollarından artıq nəzərdə tutulmuşdur. Bundan başqa, Avrasiya Fondu Azərbaycan, ABŞ və dünya birliyi arasındakı gələcək konstruktiv mübadilə üçün Vaşinqton ofisindən əlavə qrant vəsaitləri ayırmağı davam etdirməyi vəd etmişdir. Avrasiya Fondunun Azərbaycan proqramları bütövlükdə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi

(USAYD) tərəfindən bir neçə il müddətinə maliyyələşdirilir. Fond 1993-cü ildə keçmiş Sovet İttifaqının 12 yeni müstəqil dövlətində-postsovet məkanında demokratik və bazar iqtisadiyyatı yönümlü təşkilatlara yardım etmək üçün yaradılmışdır. Göründüyü kimi, ABŞ beynəlxalq təşkilatların formalaşması, onların YDD prinsiplərini yayması və müdaxiləsində təqdirolunacaq dərəcədə fəaldır. USAYD tərəfindən maliyyələşən kiçik və orta müəssisələr üçün iki illik məşğələ və konsaltinq proqramını həyata keçirən SYTYZEN Demokrasy Corps" (SDS) təşkilatı Bakıda "Beynəlxalq Biznes praktikası" adlı seminar keçirir və bununla beynəlxalq təcrübəni, yeni idarəetməni aşılayır. Belə vasitələrlə yerli sahibkarlara Qərb şirkətləri ilə uğurlu biznesin aparılmasına dair məlumatlar verilir, Məhsulları beynəlxalq şirkətlərə satmaq üçün hansı marketinq metodlarından istifadə etməyi, müqavilələrin bağlanması sahəsində təcrübəni öyrədir. Bu zahirən əhəmiyyətsiz sahə kimi də görünə bilər. Amma Azərbaycanın özü üçün də qeyri-neft sektorlarının inkişafı və investisiya alması, eyni adlı beynəlxalq iqtisadiyyata inteqrasiyası çox önəmlidir. Azərbaycan aqrar-sənaye ölkəsi olduğundan aqrar sahənin inkişafı və bu sahənin məhsuluna bazar tapması ölkə mənafeyinə uyğundur. Belə bazarlarda

rəqabətə tablaşmaq üçün əlbəttə, beynəlxalq təcrübə gərəkdir. Azərbaycanın beynəlxalq təşkilat olan Yeni Bitki Sortlarının Mühafizəsi üzrə Beynəlxalq Birliyin (UPOV) üzvü olması da lazımdır. Bu təşkilat bitkilərin yeni sortlarının, hibridlərin və digər seleksiya nailiyyətlərinin bütün dünyada mühafizəsinə məhsuldur. Bu və oxşar qurumların üzvü olmaq dünya ticarət təşkilatına daxil olmaq yolunda addımlardan sayıla bilər.

35 üzvü olan Asiya ölkələri audit təşkilatlarını birləşdirən ASOSAL audit təşkilatları arasında daha sıx əlaqələrin yaradılması, auditə dair birgə normativ hüquqi sənədlərin, peşəkar auditor kadrlarının hazırlanması və müntəzəm təcrübə mübadiləsi kimi mühüm məsələlər, Asiya İnkişaf Bankının və dövlət audit təşkilatlarının beynəlxalq qurumu olan JNTOSAL-la əlaqəli fəaliyyət göstərməsini nəzərdə tutur. Azərbaycan 1999-cu ildən bu qurumun üzvüdür.

***Müharibəyə düçar olmuş bütün ölkələr, o cümlədən Azərbaycan miqrasiya problemi ilə üz-üzə qalır.*** Azərbaycana əzəli torpaqlarımız olan Ermənistandan milyonlarla insanların deportasiya olunması müharibə ərazilərindən məcburi köçkünlük prosesini daha da aktuallaşdırır. Amma YDD prinsipi heç bir ölkəni yaşadığı problemlərlə üz-üzə, təkbətək qoymamağı, ona kömək etməyi nəzərdə tutur. Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycanla münasibətləri də bu məqama rəğmən qurulub. Beynəlxalq Miqrasiya Təşkilatı əlaqə saxladığı ölkələrdə miqrasiya problemlərinin həllinə əməli yardım göstərməyi; mütəşəkkil miqrasiyanı tənzimləməyi; miqrasiya vasitəsi ilə sosial və iqtisadi inkişafa kömək göstərməyi; müxtəlif layihələri həyata keçirməyi nəzərdə tutur. BMT Azərbaycanla bağlı konkret layihələrlə çıxış edib. Miqrasiya idarəetmesi sahəsində hazırlanan layihənin məqsədi Azərbaycan Respublikasında miqrasiya proseslərini idarə etmək üçün vahid sistemin yaradılmasında və onun əməli fəaliyyət göstərən bir sistemə çevrilməsində Azərbaycan hökumətinə əhəmiyyətli dərəcədə

yardım göstərməkdən ibarətdİr. Miqrasiya siyasətinin formalaşdırılması və inkişaf etdirlmesi miqrasiya proseslərini tənzimləmək üçün güclü qanunvericilik bazasının təmin edilməsi, sərhəd idarəetməsi də daxil olmaqla, müasir idarəetmə strukturlarının yaradılmasıdır. Bu çoxillik proqrama yuxarıda sadalananlardan başqa, kiçik biznesin inkişaf etdirilməsi üçün mikrokreditlərin verilməsi , qaçqın və köçkünlərə yardım göstərilməsi, Dağlıq Qarabağ münaqişəsi başa çatdıqdan sonra bərpa işlərini əhatə edən layihələr də daxildir. Həm də qeyri-hökumət təşkilatlarının inkişafına da əməli kömək göstəriləcək. Məqsəd miqrasiya sahəsində çalışan qeyri-hökumət təşkilatlarının fəaliyyətini əlaqələndirməkdir. Mühüm nəqliyyat dəhlizi olan Azərbaycanın BMT-nin üzvü olması tezləşdirilməlidir. İnsan həyatının mühüm sahəsi olan miqrasiya da göründüyü kimi, ayrı-ayrı ölkələrin problemi olmaqdan çıxarılıb, bəşəri bir problem kimi YDD formalaşdırmaqda lokal fəaliyyət göstərən Beynölxalq Təşkilatların öhdəsinə verilib. Və Azərbaycan da buraya cəlb olunub.

***Yeni Dünya Düzəni planetin bir ailə-bir dövlət kimi formalaşmasıdırsa, hər şeydən əvvəl, mədəniyyətlərin gəlişməsi və bütövləşməsi vacibdir. Etnosların mədəniyyətləri assimilyasiya olmadan, itmədən inkişaf etdirilməli, dünya vahid mədəniyyət sisteminin tərkib hissəsinə çevrilməlidir. İnteqrasiyaların quru və dayanıqsız olması mədəniyyətlərin qovuşmasına bağlıdır. Bu prosesin getməsi isə Vahid İnformasiya Sisteminin (VİS) yaradılmasından xeyli asılıdır.*** Bu məqsədlə də Açıq Cəmiyyət İnstitutu (ACİ) Yardım Fondunun təşəbbüsü ilə layihə həyata keçirilib. ACİ şəbəkəsi kitabxana, internet və elektron nəşriyyatları proqramları çərçivəsində EBSKO nəşriyyatının EJFL Dirast elektron mənbələrindən istifadə etmə imkanlarını nümayiş etdirmək məqsədilə təlim keçir. Bu, birbaşa elektron məlumat deməkdir. Proqramda iştirak etmək üçün ACİ şəbəkəsinin 39 ölkədən ibarət konsorsiumu

yaradılmışdır. Konsorsiumda iştirak edən hər bir ölkə üçün müəyyən illik qiymətlər qoyulub. ACİ dünyanın ən böyük məlumat konsorsiumu kimi dünyanın vahid mədəniyyətinin formalaşması yolunda mühüm çalışmalardandır. Əslində uzun zamandır YUNESKO Vahid Dünya mədəniyyətinə gedən yolda ciddi fəaliyyət göstərir. Əlbəttə ki, dünya mədəniyyət xəzinəsinə töhfələr vermiş Azərbaycan bu təşkilatın nəzərindən kənarda qalmayıb və ölkəmizlə bağlı bu təşkilatın dəyərli tədbirləri olmuşdur. Yuxarıda da qeyd etdik ki, siyasi-iqtisadi inteqrasiyalar mədəni konsoİidasiyalarla müşayiət olunmadıqda bu inteqrasiyalar dərin olmur. 2000-ci ildə Danimarkada baş verən bir hadisə ciddi örnək ola bilər. Oktyabrın əvvəllərində Danimarkada keçirilən ümumxalq rsferendumunda ümumi Avropa valyutası olan avronun ölkədə tətbiqinə münasibət bildirildi. Səsvermədə əhalinin 53%-i öz milli valyutalarının saxlanmasını istədi. Səsvermədən əvvl avronun tətbiq edilməsinin tərəfdarları Danimarkalalıları ilk növbədə iqtisadi mənfəətlə şirnikləndirməyə cəhd etdilər. Danimarkanın aparıcı partiyaları, ticarət ittifaqları, tanınmış biznes adamları və nüfuzlu KİV-lər ölkə əhalisini “hə” deməyə səsləyirdilər. Onların əsas arqumentləri ondan ibarət idi ki, avro iqtisadiyyatı böhranlardan qoruyacaq, milli valyutanı enib-qalxma təsirindən xilas edəcək və Avropa Birliyində Danimarkanın təsirini artıracaq. Amma xalq avronu seçmədi. Doğrudur, səbəblərdən birisi kimi 1999-cu ildən referendumadək avronyn 30% ucuzlaşması da göstörilə bilər. Amma belə hallar keçici xarakterli olduğundan Danimarkanın Xarici İşlər Nazirinin verdiyi qiymət daha obyektiv görünür. Nils helveq Peterson deyir: "Səsvermənin nəticələrini iqtisadi yox, psixoloji baxımdan nəzərdən keçirmək lazımdır." Göründüyü kimi, dərinə inteqrasiyaları, o cümlədən inteqrasiya proseslərində mədəniyyətin rolunu azaltmaq olmaz. ***Bəzən mənəvi amillər nəzərə alınmayanda siyasi, iqtisadi dividentlər itirilir. Yeni Dünya Düzəni siyasətində***

***bu tezis heç vaxt unudulmamalıdır.*** Əslində bu kimi prinsiplərin sistemləşdirilməsi mexanizmlərinin, hazırlanması üçün BMT bir az çevik fəaliyyət göstərməlidir. Amma etiraf olunmalıdır ki, BMT missiyasına uyğun fəallığa malik deyil. Hər bir müstəqil dövlət BMT-yə üzv olandan dünya ailəsinin üzvü sayılır. ***Dövlətlərüstü təşkilat olan BMT nizamnamə və proqramına uyğun çevik fəaliyyət göstərsə və qəbul etdiyi qərarların kağız üzərində qalmayıb, həyata keçməsini təmin etsə, dünya ailəsinin sözükeçən başçısı imici qazanar.***

Azərbaycan da 1991-ci ildən BMT-nin üzvüdür. Bu təşkilat üzvlüyə qəbyl etdiyi ölkənin ilk növbədə ərazi bütövlüyünün pozulmaması qarantı olmalıdır. Təəssüflər olsun ki, Ermənistan Azərbaycana qarşı müharibəyə başladığı andan 2000-ci ilə qədər 20% Azərbaycan ərazisini işğal altında saxlayır. BMT 1993-cü ildə təcavüz faktını özündə ehtiva edən bir neçə qətnamə qəbyl etsə də və bu sənədlərdə Ermənistanın Azərbaycan torpaqlarını şərtsiz azad etməsini tələb etsə də, Ermənistan Bu sənədlərə məhəl qoymadan işğalı davam etdirir. Bu çox zərərli presedentə səbəb ola bilər. ***Əvvəla,*** BMT sözü keçməyən bir təşkilat kimi nüfuzuna xələl gətirir. ***İkincisi,*** BMT təcavüzlərə formal münasibət bildirib, nəticəsiz fəaliyyət göstərdiyindən hər bir dövlət özünümüdafiə üçün silahlanma yolunu seçər. ***Üçüncüsü,*** güclü dövlətlər özbaşınalıq və cəzasızlıqdan ruhlanıb ərazi genişləndirmək iddiasına düşə bilərlər. ***Dördüncüsü,*** birgə yaşayış qaydalarının əsası olan birlik və bərabərlik, zora söykənməyən anlaşma kimi amillərə şübhə ilə yanaşılar, bərqərar olmağa başlayan YDD prinsipləri yeni ayaq tutmağa başlayan andan aşılanmağa üz tutar. ***Ona görə, BMT hələlik mövcud olan ən ali dövlətlərüstü qurum olduğundan bu təşkilatın qərarlarına saymazyana yanaşan dövlətlər cəzalanmalıdırlar. BMT-nin belə rıçaqları olmasa da, üzv dövlətlər saymaz dövlətlərə qarşı iqtisadi, siyasi sanksiyalar tətbiq etməli, onları birgəyaşayış qaydalarına***

***əməl etməyə məcbur etməlidirlər.*** Bu məsələdə super dövlətlər öndə olmalıdır. Təəssüflərki, bəzən bunun əksi müşahidə olunur. YDD-nin ideoloqu, mühəndisi ABŞ belə situasiyalarda səhv etməmalidir. ABŞ qlobal siyasətdə hakim olduğundan buna haqqı yoxdur. ABŞ Konqresi 2000-ci ildə xarici ölkələrə maliyyə yardımı göstərilməsi haqda qanun layihəsini qəbul etdi. Əsasən, postsovet ölkələrinə veriləcək yardımın ümumi məbləği 810 milyon dollar həcmində müəyyən olunmuşdur. Bu maliyyə yardımı, əsasən, yerli özünüidarəetmənin, kiçik sahibkarlığın, təhsil proqramlarının və s. dəstəklənməsinə yönəldilir. ***Bu missiya təqdirəlayiqdir və YDD siyasətinə ABŞ-ın əməli köməyidir. Amma vəsaitin ünvanlandığı ölkələr sırasında təcavüzə məruz qalan Azərbaycanın olmaması, işğalçı Ermənistanın isə olması ən azı təəssüf doğuran haldır.*** Doğrudanmı Azərbaycanın 20% ərazisini işğal edən, bir milyon insanı məcburi köçkün edən, Rusiyanın forpostu olan Ermənistan 90 (doxsan) milyon dollarla mükafatlandırılmalı idi? Azərbaycan isə ABŞ üçün strateji əməkdaşlığa hazır olan Əks Alyans dövlətlərinə qarşıAvrasiya dəhlizində mücadilə apardığı halda, kənarda saxlanmalı idi? Doğrudur, Azərbaycan çatışmazlıqlardan xali deyil və lobbiçilik fəaliyyətində də Ermənistandan geri qalır, amma bu, Azərbaycana qarşı diskriminasiyaya əsas vermir. ***Əvvəlki bölmələrdə də qeyd etmişdik ki, Azərbaycana vurulan zərbə YDD-nə vurulan zərbə kimi dəyərləndirilməlidir. Bu incə məqamlar ABŞ rəsmiləri tərəfindən unudulmamalıdır.*** Əvvəldə də qeyd etdim ki, prinsipcə ABŞ-ın maliyyə ayırması təqdirəlayiqdir. Gürcüstana 92 (doxsan iki) milyon dollar; Ukraynaya 170 milyon dollar; Baltikyanı dəvlətlərə 676 milyon dollar; kasıb dövlətlərin borclarının silinməsi üçün 435 milyon dollar; Afrika dövlətlərində baş vermiş təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasına 135 milyon dollar ayrılacaq. Bundan əlavə, İsrailə hərbi kömək 60 milyon dollar artırılaraq 1,9 milyard dollara çatdırılacaq. Amma İsrailə iqtisadi kömək

göstərilməsi 120 milyon dollar azaldıldı. Misir yeni maliyyə ilində 1,3 milyard dollar, İordaniya 150 milyon dollar, Rusiya 150-170 milyon dollar alacaqdır. Yuqoslaviyanın yeni hökumətinə 100 milyon dollar ayrılması nəzərdə tutulsa da, şərt qoyulub. Bu şərtə görə, Yuqoslaviya Beynəlxalq Cinayət Tribunası ilə əməkdaşlıq etməlidir. ***Yuqoslaviyadan daha pıs "siyasi davranış" nümayiş etdirən Ermənistana belə şərt qoyulması və ya oxşar şərt qoyulması daha məqsədəuyğun olardı.*** Oxşar şərt dedikdə, Ermənistanın BMT qətnamələrini yerinə yetirməməsini nəzərdə tuturam. Belə olsa idi, BMT-nin nüfuzuna da müsbət təsir olar, Bu təşkilat ciddiyə alınardı. Bütün bunlara rəğmən, BMT YDD quruculuğu dövründə Dünya Dövlətinin Parlamenti kimi qəbul oluna bilər və unutmayaq ki, Azərbaycan da müstəqil dövlət olaraq burada səsə malikdir.

***Yeni Dünya Düzənində bir başqa mühüm sahəni də ümumbəşəri problem kimi ortaya qoyan və həllinə demək olar ki, bütün dünya dovlətlərini cəlb edən təşkilat Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatıdır.*** Bu hərəkatın əsasını Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) qoymuşdur. Bu hərəkata Beyiəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasyonu; Milli Qızıl Xaç və Qızıl Aypara cəmiyyətləri daxildir. Bu cəmiyyətlərin sayı 1989-cu ilin məlymatına görə, 149, üzvülərinin sayı 250 milyondan çoxdur. Bu təşkilat neytratdır. Müharibə, vətəndaş müharibəsi, daxili ictimai ziddiyyətlər və toqquşmalar zamanı BQXK qarşı duran tərəflərin yanında işləyir, onlar arasında tamamilə neytral bir vasitəçi rolunu oynayır və istər mülki, istərsə də hərbi qurbanları belə vəziyyətlərdə qorumağa, onlara yardım etməyə çalışır. Vasitəçi rolunu oynayan tam neytral və müstəqil təşkilat olduğu üçün BQXK istədiyi kimi humanitar yardım göstərir, təşəbbüslə çıxış edir. Bu təşkilat siyasi, ideoloji, dini baxımdan neytraldır. Onun beynəlxalq xarakteri Cenevrə sazişlərində öz əksini tapan vəzifələrdən irəli gəlir. ***Bu təşkilat yeddi vsas prinsipə söykənir - insanpərvərlik,***

***qərəzsizlik, neytrallıq, müstəqillik, könüllüllük, birlik, universallıq.*** BQXK-nı yaradanların ən böyük xidməti dövlətlər tərəfindən tanınan və tətbiq edilən, daima vahid bir beynəlxalq hüququn zəryriliyini dərk etmələri olmuşdur. Hazırda dörd saziş və iki protokolla təşkilat işini tənzimləyir. Demək olar ki, dünyanın bütün dövlətləri ya bu sazişlərə qoşulub, ya da ki, onları təsdiq ediblər. Sazişlərə qoşulan dövlətlər - dost və ya düşmən olmasından asılı olmayaraq, hamısı eyni tərzdə müalicə etməyi, insana, onun ləyaqətinə, ailənin hüquqlarına, dini inanclara, uşaqların xüsusi tərzdə qorunmasına hörmətlə yanaşmağı, insanlığa yaraşmaz rəftarı, girov götürməyi, qətlləri, işgənceni, kütləvi qırğını, sürgün etməyi, qarəti, şəxsi əmlakı heç bir əsas olmadan dağıtmağı qadağan etməyi, BQXK nümayəndələrinə əsirlərə, müvəqqəti saxlanılmış mülki əhaliyə baş çəkməyə və məhbuslarla şahidsiz görüşməyə icazə verməyi öz öhdələrinə götürürlər. Bu və əlavə sazişlərdə göstərilən hüquqlar dünya dövlətlərinin BQXK-yə verdiyi mandatı əmələ gətirir. Azərbaycan da bu sazişlərə qoşulub. ***Mən 2000-ci ildə qapalı həbsxanada həbsdə olduğum müddətdə bu təşkilatın üzvüləri ilə görüşə bildim. Belə missiyanı insan öz üzərindəı yaşayanda "Dünya vahid bir ailə kimi yaşamağa məhkumdur" devizinə ürəkdən inanır.*** Təsəvvür edin ki, bu təşkilat 1945-ci ildən 2000-ci ilə qədər 95 ölkədə yarım milyondan artıq siyasi dustağa baş çəkib. 1980-85-ci illər arası BQXK nümayəndələri 600-dən artıq dustad saxlanan yerdə 12250 görüş keçirib və bu kateqoriyaya daxil olan 151000 dustaqla şahidsiz söhbət etmiş və ya onları qeydə almışdır. Müharibənin ayrı saldığı yüz minlərlə ailəni qovuşdurmuşdur. Münaqişə qurbanlarına təxminən iki milyard İsveçrə frankı məbləqində yardım göstərmişdir. ***BQXK-nı dünya dövlətinin "təcili yardım" xidməti kimi də qəbul etmək olar, səhiyyə təşkilatı kimi də.*** Amma Ümumdünya Səhiyyə Təşkilatları, Sərhədsiz həkimlər kimi bir çox beynəlxalq təşkilatlar mövcuddur ki, onlar siyasətçilərdən fərqli olaraq dövlətlərarası sərhədləri çoxdan

"sökmüşlər". Azərbaycana bu təşkilatlar xeyli maliyyə vəsaiti ayırmış, peyvənd materialları və preparatları , tibbi avadanlıqlar vermişdir. Dəyəri 10 milyonlarla ABŞ dolları ilə hesablanan müalicə, müayinə müəssisələri tikmişlər. Talasimiyalı, şəkərli, vərəmli xəstələrə əvəzsiz dərman maddələri göndərmişlər və s. Azərbaycan müstəqilliyini qazandıqdan sonra, əlbəttə, Moskvasız, birbaşa bu təşkilatlarla əməkdaşlıq etməsi sayəsində əhaninin sağlamlığını və müalicə səviyyəsini dünya standartlarına uyğunlaşdırmağa başlamışdır. Əlbəttə, bu inteqrasiya prosesi uzun zaman öncə başlasa idi, yəqin ki, Sumqayıtda uşaq qəbiristanlıqları, Qəbələdə, Oğuzda şikəst doğulan, uşaqların çoxluğu çağın reallığı olmazdı. Təbii ki, burada ekologiya məsələləri də vardır və bu sahələr-ekologiya ilə səhiyyə ayrı-ayrılıqda təsəvvür edilə bilməz. Həm də nə səhiyyə problemi, nə də ekologiya problemi heç bir dövlətin daxili işi və problemi deyildir. Buna görə də, onlarla beynəlxalq səhiyyə və ekologiya təşkilatları yaranıb və sərhəd bilmədən fəaliyyət göstərir. 2000-ci ilin sonlarında ABŞ Konqresi dünyada AİDS (SPİD)-lə mübarizə məqsədilə növbəti il üçün 300 milyon dollar vəsait ayırdı. Bu təqdirəlayiq addım həm humanizmin göstəricisi, həm ABŞ-ın YDD  prinsiplərində dönməzliyi, həm də bu kimi problemlərin ümumbəşəri problem olmasını təsdiqləyir. Bütün postsovet məkanları kimi, Azərbaycanda da SSRİ işğalında olduğu müddətdə insan amili də, təbiət amili də nəzərə alınmamış və ölkənin həm təbiətinə, həm insanlarına ağır zərbələr dəymişdir. Rusiya ancaq istismar haqda, qazanc götürmək haqda fikirləşmişdir. Sumqayıtda fəaliyyət göstərən zavodlarda istehsalı, istifadəsi qadağan olunmuş kimyəvi maddələr istehsal edilmiş, bu səbəbdən uşaq ölümü hamiləlik pozulması fantastik həddə çatmış, yuxarıda dediyimiz uşaq qəbiristanlıqları yaranmışdır. Ola bilər ki, bu fakt lokal təsirli kimi qiymətləndirilsin, amma bu zavodların dünyamız üzərindəki ozon qatının məhv olmasında, ozon dəliyinin yaranmasındakı "xidməti" lokal sayıla bilməz. Ona görə də,

ekoloji məsələlərin bəşəriyyətin ümumi problemi kimi qəbul olynması və beynəlxalq ekoloji təşkilatların yaradılması, fəaliyyəti təqdirəlayiqdir. Bu o deməkdir ki, daha bir sektor Dünya Dövlətinin nəzarətinə verilir.

Azərbaycanın beynəlxalq ekoloji təşkilatlarla əməkdaşlığına çox böyük zəryrət var. Rus ordusu Azərbaycanı Milli hökumətin təkidi ilə tərk etdikdən sonra olduğu hər yerdə özündən sonra problemlər qoyub gedib. Hələ də onların yerləşmiş olduğu Azərbaycan ərazilərindən müxtalif radioaktiv tullantı konteynerləri üzə çıxır. ***Hələ də Qəbələdə qurduqları Radiolokasiya Stansiyası ətraf mühitə sağalmaz yaralar vurur. Ermənistan rus ordusunun fəal yardımı ilə işğal etdiyi Azərbaycan ərazilərində nüvə tullantıları basdırır. Bu və oxşar beynəlxalq cinayətlərin qarşısını almaq üçün təbii ki, beynəlxalq təşkilatlar səylərini birləşdirməli, Azərbaycan da bu təşkilatlarla sıx təmasda olmalı, onların fəaliyyətinə həm öz ərazisində şərait yaratmalı, həm də bu təşkilatların dünyanın istənilən yerindəki fəaliyyətlərinə yardımçı olmalıdır. Ölkə kimi biz ancaq kömək almaq yox, kömək etməyi də bacarmalıyıq.*** Bu hər sahəyə aiddir, eləcə də iqtisadi sahəyə. Doğrudur, indi Azərbaycan təzəcə müstəqilliyi qazanmış olduğundan dirçəliş dövrünü yaşayır və beynəlxalq investisiyalara, kreditlərə ehtiyacı vardır. Mən Azərbaycan iqtisadiyyatının inkişafının da, maliyyə bazarının tənzimlənməsinin də daxili imkanlar hesabına olmasının tərəfdarıyam. Dünya Bankı, müxtəlif beynəlxalq maliyyə qurumlarının ayırmaları, investisiyalar səmərəli istifadə olunmalıdır. Həm də yatırımlar təkcə neft sektoruna qoyulmamalıdır. Azərbaycan müxtəlif təmayüllü aqrar-sənaye ölkəsi olduğundan neft sahəsi ilə yanaşı, başqa sahələrin də inkişafı dünya iqtisadiyyatına inteqrasiyanı çoxşaxəli edər. Həm də dünya bazarı ilə əməkdaşlıq təkcə idxal üzərində qurulmaz, eyni zamanda, çeşidli malların ixracatı hesabına da olar. İnteqrasiyalarda milli maraqlar YDD prinsipləri ilə

harmoniya təşkil etməlidir. Azərbaycan YDD-də önəmli olan dünyanın enerji probleminin həllində olduqca əhəmiyyətli kömək göstərir. Burada prinsip enerji resurslarının işlənməsi, paylanmasının vahid sistemə daxil edilməsidir. Karbohidrogen ehtiyatları ilə zəngin olan Azərbaycan həm öz məhsullarının, həm zəngin Orta Asiya karbohidrogen ehtiyatlarının işlənməsi və daşınmasında əvəzsiz rol oynayır. ***Yəni Azərbaycan imkanı olanı ortaya qoyur, YDD-də fəal iştirak edir. Onda həm də haqqı var ki, ehtiyacı olduğunu alsın. Bu nədir? İlk növbədə təhlykəsizlik təminatı.*** Doğrudur, bəşəriyyətin təhlükəsizliyi üçün sistemlər formalaşdırılıb və səylər birləşdirilir. NATO belə qurumlardan sayıla bilər. Və özbaşınalıq edən dövlətlərə qarşı istənilən vaxt effektli təsir edə bilər. Əvvəlki bölümlərdə təklif etmişdim ki, Azərbaycan öz ayağı üstə durana qədər ABŞ-ın, Qərbin fəal himayəsi hiss edilməlidir. Paralel olaraq TAB-ın formalaşmasına da yardım edilməlidir. Birgəyaşayış qaydalarında birgə təhlükəsizlik təminatı da nəzərdə tuqulur. Doğrudur, Azərbaycan bu sektorda da dünya ailəsinin üzvü кimi iştirakçıdır. Azərbaycan NATO üzvü olmasa da, Sülh naminə tərəfdaşlıq müqaviləsinin (SNT) üzvüdür. Amma etiraf edək ki, bu, Azərbaycanın təhlükəsizliyi üçün kifayət deyildir. Bu çərçivədəki əməkdaşlığın səviyyəsi təcavüzə məruz qalan Azərbaycan üçün qaneedici sayıla bilməz. ***Azərbaycan YDD üçün də, ABŞ və Qərb üçün dəstrateji baxımdan heç də İsraildən önəmsiz deyil. Amma 2000-ci ilin sonunda ABŞ konqresi İsrailə hərbi kömək üçün 1,9 milyard dollar ayırdığı halda, hətta Azərbaycana hərbi təcavüz edib ərazisinin 20%-ni işğal edən Ermənistana 60 milyon dollar yardım göstərdiyi halda, Azərbaycana heç bir yardım ayırmadı.***

***Rusiya isə öz müttəfiqi Ermənistana milyard dollarla hərbi yardım etməkdən çəkinmir. ABŞ bu regionda onun, Qərbin, YDD-nin maraqlarını qoruyan Azərbaycana yardım etməkdən çəkinir. Mənə elə gəlir ki, bu. qədər ehtiyatlılıq, ermənilərin ABŞ-dakı diasporasının rəyini***

***nəzər almaq ifrat həddir. Qlobal rəqabət dekorativ yanaşmanı sevmir. Azərbaycan əməli təhlükəsizlik qayğısı görməlidir.*** Doğrudur, NATO və SNT çərçivəsində müəyyən əməkdaşlıqlar mövcuddur. NATO təlimlərində Azərbaycan ordu hissələrinin iştirakı, hazırlıq kurslarının keçilməsi, zabit heyətinin hazırlanması, Azərbaycan hərbi bölməsinin NATO sülhməramlı missiyasında iştirakı və s. kimi tədbirlər əməkdaşlıq formalarıdır. Bütün tənqidi fikirlərimiz yerində qalmaqla o da etiraf olunmalıdır ki, bəşəri təhlükəsizlik missiyasına Azərbaycan da calb olunub. Bir daha qeyd ediröm ki, bu kifayət deyil.

***YDD prinsiplərindən biri də silahsızlaşdırmadır*** Avropada adi silahların məhdudlaşdırılması haqda müqavilə hər dövlətə silah kvotası müəyyən edib. Azərbaycan buna ciddi riayət edir. Həm də nəzərə alsaq ki, Azərbaycan müharibəyə düçar olyb və belə bir vəziyyəqdə də YDD prinsiplərini pozmur, amma Ermənistan müəyyənləşmiş kvotadan əlavə milyard dollarla ölçülən silah-syrsat alır. Rusiya İstanbulda Gürcüstanla imzaladığı müqaviləyə əsasən bu ölkə ərazisindən çıxarılan silahları, döyüş texnikasını Ermənistan ərazisində yerləşdirir. ***YDD qurtq istəyən super dövlətlər, o cümlədən ABŞ Rusiya və Ermənistana yardım ayırmaq əvəzinə, müxtəlif sanksiyalar tətbiq etməlidir. Bu prinsiplərə sadiq olan riayət edən ölkə kimi Azərbaycan isə layiq olduğu münasibəti görməlidir.***

***YDD prinsiplərindən biri də nüvə silahı və onun komponentlərinin yayılmamasıdır.*** Azərbaycan bu konvensiyaya da qoşulub və əməl edir. Rusiya 1998-ci ildə Azərbaycan ərazisindən İrana belə texnologiya materialları göndərəndə məhz Azərbaycan onun qarşısını almış qaçaqmalı həbs etmişdir. Bunu konvensiyaya sadiqlik əlaməti də saymaq olar. Təkcə nüvə silahının yayılması deyil, həmçinin narkotik maddələrin istehsalı və yayılması da ümumdünya problemi kimi yanaşma tələb edir. Azərbaycan yenicə formapaşan dövlət kimi müasir texnoloji avadanlığa malik olmasa da, hər

halda dünya birliyi ilə səylərini birləşdirməyə çalışır. Azərbaycanın coğrafi mövqeyi narkoqaçaqmalçıları bir tranzit kimi ölkəmizdən istifadə etməyə sövq edir. Həm də Türkiyədə PKK terrorçu kürd təşkilatı maliyyə vəsaitlərinin əhəmiyyətli hissəsini narkotika ticarətindən götürdüyü üçün Azərbaycanın üzərinə əlavə fəaliyyət göstərmək düşür. Ermənistan Azərbaycan ərazisinin 20%-ni işğal etmiş və bu ərazilərda narkotik bitkiləri plantasiyalar şəklində becərir. Təəsüf ki, bu fakt problemlə maraqlanan bütün dövlətlərə məlum olduğu halda, heç bir əməli tədbir görülmür. Azərbaycan isə müdaxilə imkanlarına malik deyil. Burada iki. standartların tətbiqi də göz onündədir. Belə ki. Dünyanın heç bir yerində terror və narkobiznes özəyi məlum olduqda belə biganə münasibət bildirilmir. Bütün bunlara baxmayaraq, bəşəriyyət üçün zərərli olan narkotik vasitələrin hazırlaiması və yayılmasına qarşı mübarizədə Azərbaycan da dünya birliyi sırasına qoşulub. Bunu dünyanın birgəyaşayış və idarəolunması yolunda addım kimi dəyərləndirmək olar.

***Başqa bir narahatedici sahə terrorizmdir.*** Bu üsulla mübarizə aparan ayrı-ayrı insanlar, təşkilatlar, hətta dövlətlər mövcud olduğundan problem ayrı-ayrı dövlətlərin deyil, bəşəriyyətin problemi sayılır. Bəşəriyyətə qarşı ağır cinayət olan terror bəzi dövlətlərin fəaliyyət proqramları kimi həyata keçirilir. Ermənistan silahlı qüvvələri Rusiyanın 366-cı alayının köməyilə Azerbaycanın Xocalı şəhərində məhz belə bir planlı və kütləvi terror aktına əl atmış, dəhşətli bir soyqırım törətmişlər. Şəhərin bütün əhalisi - uşaqlar, qocalar, qadınlar, xəstələr öldürülmüşdür. Ermənilərin "Asala" terrorçu təşkilatı dünyanın müxtəlif ölkələrində türk diplomatlarına qarşı terrorlar törətmişdi Rusiya tərəfindən xeyir-dua , maddi və mənəvi dəstək alan "Sadval' terrorist təşkilatı Bakı şəhərində metro qatarlarında partlayışlar törətmişlər. Bu və oxşar hadisələr heç bir dövlətin terrordan sığortalanmadığını və problemə qarşı ümumi mübarizənin vacibliyini göstərir. Azərbaycan müvafiq beynəlxapq təşkilatlarla əməkdaşlıq

etməklə, terrora qarşı mübarizədə iştirak etməklə həm özünün eyni adlı problemlərini həll etmiş olur, həm də YDD -nin sahmana salınmasına xidmət edir.

***Yeni Dünya Düzəniiin əsas prinsiplərindən biri demokratik dəyərlərin dünyada yayılması və hakim olmasına çalışmaqdır.*** Bunu reaıaşdırmaq üçün göstərilən səylərdən biri də demokratik təsisatları formalaşdırmaqdır. Bu təsisatlar, əsasən, iki cür formalaşdırılır. Ayrı-ayrı ölkələrdə təşəbbüslərlə formalaşan təsisatlar sonradan baş təşkilatları yaradırlar. Başqa forma isə belə təsisatların yuxarıdan aşağıya formapaşdırılmasıdır. Belə təşkilatlar xeylidir və əksərində Azəəbaycan da təmsil olunur. Əlavə olaraq dövlətlər arasında xartiyaların, sazişlərin, razılaşmaların əsasında da demokratik dəyərlər müdafiə olunur, yayılır. Ən ümdəsi odur ki, dövlətlər belə təsisatların fikri ilə razılaşır, hörmət edir, fəaliyyətlərində mütləq nəzərə alırlar.

Əlbəttə, söhbət normal, sivil dövlətlərdən gedir. ***Demokratiya YDD-nin özəyidir. Bütün dövlətlər və deməli, bütün dünya demokratikləşməyə məhkumdur.***

Gəldiyimiz ümumi nəticə ondan ibarədir ki, Azərbaycan YDD siyasətinin həyata keçməsi üçün həm öz imkanlarını ortaya qoyur, həm də onun bu siyasətin reallaşmasında iştirakını beynəlxalq təşkilatlar təmin edirlər. Hər bir dövlət YDD siyasətinin həyata keçməsinə cəlb olunacaq. Kimisi təzyiq və ictimai qınaq, təcrid, "kötəklə", kimisi könüllü, fəal iştirakla, səy və potensialını ortaya qoymaqla , quruculuq, idarəetmə ilə. Ümid edirəm ki, Azərbaycan ikinci qrup dövlətlərdən olacaqdır.

# NƏTİCƏ

Dünya yeni qaydalarla idarə olunmağa hamilədir. Çünki bəşəriyyətin inkişaf və təhlükəsizliyi aktuallığını saxlayır və günü-gündən də artırır. Dünyanın tərəqqisi bəşəriyyətin rifah halını yüksəltməklə yanaşı, yeni problemlər və mövcud problemlərin mürəkkəbləşməsini də meydana çıxarır. Problemlərin yeniləşməsi isə onların həlli qaydalarının yeniləşməsi və yanaşmalarda dəyişikliyi zəruriləşdirir. Müxtəlif təmayüllü qlobal problemlərin harada mövcud olmasından asılı olmayaraq inkişaf etmiş, həssas çağdaş dünyanın hər yerində təsiri hiss olunur. ***Atom çağında, AİDS (SPİD) və miqrasiyalarla zəngin əsrdə dünya vahid sistemlə nizamlı idarə olynmazsa, hər an pozula biləcək sabitlik, bəşəriyyətin təhlükəsizliyi sual altına düşə bilər. Belə qlobal problemlərin həlli ayrı-ayrı dövlətlərin imkanı xaricindədir. Ona görə, dünyanın idarə olunmasında bir sistemli yanaşma tələb olunur.*** Dünyanın bir ailə formasında yaşaması, sivilizasiyalararası dialoqun baş tutması bu sistemli yanaşmaya bağlıdır. ***Dünya xalqlarının konsolidasiyasının baş tutması üçün bütün xalqların mədəniyyətlərinin çulğalaşması, sonunda Vahid Dünya Mədəniyyətinin yaranması zəruridir. Bununla bərabər, ümumi siyasi strategiyanın hazırlanması, ümumi siyasi hədəfin müəyyənləşməsi, də mütləq şərtdir. Bu Yeni Dünya Düzəni ( YDD ) proqramı dövlətlərüstü səciyyə daşımalı, bütün dövlətlər öz proqramlarını YDD proqramına uyğunlaşdırmalıdırlar.*** Demək olar ki, belə bir proqram ABŞ-ın təşəbbüs və mühəndisliyi, eyni zamanda Avropanın super dövlətlərinin fəal iştirakı ilə həyata keçirilməyə başlayıb. Bu siyasətin həyata keçirilməsi üçün dünyanın siyasi-iqtisadi güc mərkəzi olan Avropa və elə o dərəcədə əhəmiyyətli Asiya YDD prinsipləri yönündə strukturlaşmalıdır. Bu strukturlaşma prosesi Avropada tamamlanmaq üzrədir və yeni dəyərləri

ixrac etməyə Avropa bir platsdarm kimi hazırdır.

***Amerikanı YDD-nin birinci platsdarmı, Avropanı YDD-nin ikinci platsdarmı saysaq, onda Qafqazları, Orta Asiya və Uzaq Şərqi əhatə edəcək üçüncü platsdarma da ehtiyac var. Göstərilən region Avropadan fərqli bir sivilizasiyadır. Bu bölgənin ölkələri ayrı-ayrılıqda Avropa təsisatlarına inteqrasiya oluna bilsə, dərin konsolidasiyaya nail olunmayacaq. Din, dil, mədəniyyət birliyi olmayan birliklərdə bir mənəvi boşluq yaranır ki, bu da dezinteqrasiyaların ən başlıca səbəblərindəndir.*** Həm bu mənəvi boşluq amilini, həm Qafqaz və Orta Asiya ölkalərinin coğrafi mənada uzaqlığı , onların Avropa təsisatlalarına qəbulunun ləng cədvəllə tənzimlənməsini, inkişaf səviyyəsinə və başqa fərqlərəı görə Avropaya uzun zamanlı və ağıllı konsolidasiyası mümkünlüyünü nəzərə alıb, ***təklif edirəm ki, bu regionda üçüncü plastdarm – Transkontinental "Turan" Avrasiya Bloku (TAB) yaransın. Blokun ilkin özəyinin Türkiyə, Azərbaycan, Türkmənistan, Qırğızstan, Özbəkistan, Qazaxıstan, Tacikstandan ibarət olacağı nəzərdə tutulur. Sonradan bu bloka Gürcüstan, Əfqanıstan və Pakistanın da qoşulması istisna edilmir. Siyasi mənada Avropa Birliyi bir xristian kulubu olmadığı kimi, TAB da bir müsəlman və türk kulubu sayılmamalıdır.*** Amma Avropa Birliyinin əsasında xristian və Qərb dəyərləri dayandığı kimi, bu blokun-TAB-In da əsasında türk-islam dəyərləri dayanacaqdır. TAB yaratmaqda məqsəd YDD-nin bərqərar tempini artırmaqdır. Qafqaz və Orta Asiya dövlətlərinin Avropa təsisatlarına qəbul ləngliyi və çətinliyini nəzərə alaraq bu koisolidasiyanı iki mərhələli etmək nəzərdə tutulur. ***Birinci mərhələdə*** eyni sivilizasiya təmsilçiləri olan ölkələr TAB formalaşdırır. TAB YDD-nin üçüncü platsdarmı olaraq, birinci və ikinci platsdarmlardan heç nə ilə fərqlənmir və eyni prinsipləri müdafiə edir.

***İkinci mərhələdə*** Avropa Birliyi adlı platsdarmla bütövləşir: Avropa Birliyi (AB)+ABŞ+TAB. Avropaya hər

mənada ən yaxın olan TAB ölkəsi kimi nəzərdə tutulan Türkiyə çox çətinliklə Avropa təsisatlarında təmsil olunursa, bütün göstəricilərinə görə Türkiyədən geri qalan digər TAB ölkələri Avropa təsisatlarına daha da çətin, ağrılı inteqrasiya olunar. Ona görə, çox dinamik bir siyasi dövr yaşayan dünyamızda zamanı itirməmək üçün əvvəl Qafqaz, Orta Asiya ölkələri yerləşən regionda ağrısız formalaşması mümkün olan bir TAB yaratmaq və sonradan bu bütövün Avropa ilə konsolidasiyasına nail olmaq daha əlverişlidir. ***Bu region ölkələrinin Avropa təsisatlarına nisbətən TAB-da konsolidasiyasını asanlaşdıran digər əsas səbəblər din, dil, mədəniyyət birliyidir. TAB-ın əhatə etdiyi region Naertland "dünyanın qəlbi" deyilən ərazinin boyük bir hissəsini əhatə etdiyindən bu ərazi "qara boşluyq"dan YDD platsdarmına çevrilərsə, onda YDD hakim olacaqdır.*** Çünki dünya siyasətində "kim "dünyanın qəlbi" deyilən əraziyə nəzarət edəcəksə, o da dünyaya nəzarət edəcəkdir" fikri təzə olmadığı kimi, köhnəlməyib də. Bu fikir indi də dünya siyasətində aparıcı koordinatdır. ***Bu bölgədən hegemonluq iddiası üçün deyil, bəşəriyyətin sabit inkişafı və təhlükəsizliyi naminə istifadə olunmalıdır.*** Ona görə, region dövlətlərinin siyasi oriyentasiyası müsbət istiqamətdə müəyyənləşdirilməli, səylər birləsdirilməli və blok – TAB formalaşdırılmalıdır. ***Təklikdə bu dövlətlər nə ölkə mənafelərini, nə də YDD prinsiplərini müdafiə edə bilməyəcəklər.*** İlkin mərhələdə bloklaşma əsasən üç sahəni əhatə edə bilər: 1) Regional kollektiv təhlükəsizlik sisteminin yaradılması; 2) Xarici siyasətin koordinasiya olunması; 3) Regional iqtisadi əməkdaşlıq.

Sonradan mədəni konsolidasiyanın sürətləndirilməsi, ekoloji, səhiyyə, sosial və s. məsələlərin həlli üçün koordinator təşkilatlar yaradılması da mümkündür. ***TAB ozəyi formalaşdıqdan sonra buraya Əfqanıstan, Gürcüstan, Pakistan kimi dövlətlər, hətta demokratikləşmiş konfederativ İran da qoşula bilər. Biz nəinki İranın, bütün***

***Əks Alyans (ƏA) dovlətlərinin, o cümlədən Çin, Hindistan, Rusiya kimi dövlətlərin də YDD quruculuğunda iştirakında, dinc əməkdaşlığında maraqlıyıq.*** Amma etiraf olunmalıdır ki; ƏA dövlətləri əvvəlki bölümlərdə göstərdiyimiz kimi, daim yeni dünya qaydalarını pozmağa, imperialist siyasət yeritməyə cəhd edirlər. Buna görə, TAB da daxil olmaqla YDD plastdarmaları, ümumiyyətlə, YDD siyasəti və tərəfdarları o dərəcədə güclü olmalıdırlar ki, ƏA dövlətləri qarşıdurmanın mənasızlığını və perespektivsizliyini görüb, dinc əməkdaşlığa üstünlük versinlər.

***TAB-ın yaranmasının digər mühüm əhəmiyyətlərindən biri də birbaşa ABŞ-a aiddir.*** Hər kəsə aydındır ki, YDD plastdarmlarının fəaliyyəti ABŞ tərəfindən koordinasiya olunur. Və bir neçə platsdarımın olması ABŞ-ın manevr imkanlarını artırır. ***Çünki Rusiya təhlükəsi aradan qalxdıqdan sonra Avropanın super dövlətləri ABŞ-ın Avropada varlığını artıq hesab edir və yeni siyasətdəki mövqe və əhəmiyyətlərindən sui-istıfadə hallarına yol verirlər. TAB-ın formalaşması belə dövlətlərin "əvəzolunmazlıq simitomunu" xeyli yumşaldacaqdır.***

***İkincisi, Avropada ABŞ-ın mövcudluğunun zəruriliyi şübhə doğurduğu bir zamanda TAB kimi formalaşaraq region ƏA dövlətlərinin təsir dairəsinə keçsə, ABŞ üçün ciddi siyasi diskomfort yaranacaqdır. Ona görə, TAB-ın formalaşması həm də birbaşa ABŞ-ın həyati mənafelərinə uyğundur.***

TAB eyni sivilizasiyanı təmsil edən, din, mədəniyyət, dil birliyi olan dövlətlərdən yaranacaq blok olduğundan burada mənəvi boşluq yoxdur. Üstəlik, bu blok Əfqanıstan, Pakistan kimi nəhəng döövlətləri də özündə birləşdirəndən sonra sivilizasiyalararası dialoq üçün legitim mandatlı olacaqdır. Həm də dinlərarası və etnoslar, ümumiyyətlə sivilizasiyalararası dialoqlar iki səlahiyyətli subyekt - AB və TAB tərəfindən ABŞ-ın iştirakı ilə aparılacaqdır. Beləliklə, din faktorundan ayrı-ayrı dövlətlər pozucu siyasət naminə istifadə

edə bilməyəcəklər. ***Dinlərarası dialoqun uğuru isə YDD siyasətinin uğuru sayıla bilər.***

İslam amilinin YDD siyasətində önə çəkilməsi ciddi məsələdir. Əvvəla, ən son və mükəmməl din kimi islam dini barışıq, ədatət, elm , inkişaf kimi əsas istşamətləri özündə ehtiva edir və deməli, YDD siyasətinin bəşəriyyətin inkişaf və təhlükəsizliyi hədəfi ilə həmahəngdir. Yəni müsəlmanlar bu prinsiplərin dünyada hakim olmasını təkcə siyasət yox, həm də bir mənəvi məsələ kimi əxz ediblər. Üstəlik, islam faktoru Orta Asiya respublikaları arasında da birləşdirici amil kimi mühüm rola matikdir. Çünki bütün postsovet məkanlarında olduğu kimi, burada da Rusiya süni şəkildə etnik və ərazi mübahisələri yarada bilib. Din amili xeyli dərəcədə bu mübahisələri kölgədə qoya bilər. ***Həm də islam dininə tapınan sivlizasiyanın YDD siyasətini müdafiə etməsi ƏA dövlətlərini xeyli geri çəkilməyə məcbur edə bilər.*** Nəhəng ƏA dövləti olan Rusiya əhalisinin 13%-ni müsəlmanlar təşkil edirsə, Çində təkcə Uyğurustanda 26 milyon türk-müsəlman yaşayırsa, İranda 30 milyondan çox Azərbaycan türkü yaşayırsa, Hindistanın şimalında milyonlarla müsəlman yaşayırsa, onda TAB vasitəsilə müsəlmanların YDD quruculuğu missiyasına önəm verməyin zəruriliyi özlüyündə aydındır. Əlbəttə, Qərbin bəzi dövlət adamlarının, hətta dövlətlərinin islam dini haqda ehtiyatsız, ölçüsüz fikirlərinə son qoyulması şərtdir. İslam fəlsəfəsni anlamayan və ya anlayıb da qərəzli mövqedən çıxış edərək islam fundamentalizmi, islam ekstrsmizmi kimi cəfəngiyyatlar irəli sürənlər bölücülüyə xidmət edir. ***Dini və bəzən başqa amilləri də qərəzli qiymətləndirən müəyyən Qərb dövlət adamları və analitikləri TAB və oxşar blokların formalaşmasından ehtiyat edirlər. Düşünürlər ki, hansısa məqamda bu blok potensial rəqibə çevrilə bilər. Ancaq bu inamsızlığın və ehtiyatlılığın əsassız olduğunu yeddi bəndlə əvvəlki bölümlərdə izah etdik:***

1. ABŞ və Qərb Avropadan bir neçə istiqamətdə yeni

dəyərləri periferiyalara ötürürlər. Yəni alternativsizlik deyil.

2. Təkliflər paketini YDD mühəndisləri verir, burada isə birvariantlılıq deyil.
3. Hakim və koordinator ABŞ-dır.
4. Blok yaradan dovlətlər orta və aşağı dərəcəli dövlətlərdir, super iddia mümkün deyil.
5. Blok dövlətləri himayəyə ehtiyaclıdırlar.
6. ABŞ və Qərbin iri dövlətləri TAB dölətlərinin daxili durumuna ciddi təsir imkanlarıia malikdirlər.
7. Blok dövlətləri dinamikliyinə və oriyentasiyasına görə çeşidlənibləər.

Bütün bu amillər TAB dövlətlərinin istəsələr belə, hegemonluq iddiasını istisna edir, Qərb dövlətlərinin isə yersiz ehtiyyatlılığının lüzumsuzluğuna əsas verir.

TAB-ın təşəkkül tapması təklif olunan region güc boşluğudur. Bu boşluq əvəzsiz ərazilərə təsir imkanlarına malikdir. Uzaq Şərq, Yaxın Şərq, Kəngər Körfəzi, Hind Okeanı, Sibirlər, Qafqazlar belə ərazilər sayıla bilər. Bu boşluq doldurulmalıdır. ***TAB bu boşluğu doldurarsa, regionun YDD prinsiplərini həyata keçirməkdə rolu əvəzsiz olacaqdır.***

Bu regionun başqa bir əhəmiyyəti onun zəngin təbii resurslara, karbohidrogen ehtiyatlarına, qiymətli metallara malik olmasıdır. Burada kəsişən, buradan keçən transport şəbəkələri zəngin bazarlara açardır. Dünyanın, o cümlədən inkişaf etməkdə olan Uzaq Şərq ölkələrinin enerjiyə tələbatının artdığı bir vaxtda regionun həm də iqtisadi əhəmiyyəti əvəzsizdir.

Bundan əlavə, TAB həm də Uzaq Şərqdə YDD-nin təşəkkül tapması üçün dayaq məntəqəsi olacaqdır. Bu platsdarm əhatə etdiyi ərazilərdən savayı, Uzaq Şərqi də xoşməramlı xidmətə sövq və məcbur edəcəkdir. ***ABŞ-ın Uzaq Şərqə yeni prinsipləri Yaponiya və Cənubi Koreyaya prioritet verərək şərqdən gətirməyə çalışması dayanıqlı, ciddi nəticə verəcək seçim deyil.*** ABŞ Yaponiyanın militarist siyasətindən ehtiyat

edir. Yaponiyanın gözlədiyi saat çatdıqda necə davranacağı da məlum deyil. Hələlik isə Yaponiya güvənilləsi gücdə deyil.

İkinci köməkçi faktor Cənubi Koreyadır ki, bu amil də Şimali və Cənubi Koreyaların birləşmə zamanını yaşadığını nəzərə alsaq, qeyri-müəyəndir. Hələ məlum deyil ki, Birləşmiş Koreyanın siyasi oriyentasiyası hara istiqamətlənəcək.

Əks Alyans (ƏA) isə burada qüvvətlənməkdədir. Xüsusən, Çin özünü regionda olduqca inamlı hiss edir. ***Bu olkə ABŞ-ı və onun timsalıida YDD siyasətini regioida məğlub edib, dünya hegemonluğuna doğru addılmlamq, ƏA-nın prinsinlərini dünya qaydalarına çevirmək istəyir.*** Çinin buradan uğurlu start götürməsi üçün münbit şərait mövcuddur. Çin, Hindistan və digər ƏA dövləti Rusiya ciddi silaIanmışlar, həm də son illər əsasən, 1990-ci illərdə uzaq şərq ölkələri ən çox idxal edən ölkə olmuşdur. Regionun, həmçinin Çinin iqtisadi inkişaf tempi vüsət almış, faktiki olaraq Uzaq Şərq dünyanın iqtisadi güc mərkəzinə çevrilmişdir. Bu inkişaf həm də yeni ambisiyaların ortaya çıxmasına rəvac verən amilə çevrilibdir. Çinin özü isə Uzaq Şərqdə ciddi bir rəqib görmədiyindən, Qərbə doğru addımlamağı nəzərdə tutub. Səbəb SSRİ dağıldıqdan sonra regionda Rusiyanın zəyif düşməsi və Orta Asiyada bir boşluq yaranmasını müşahidə etməsidir. ***ABŞ və Qərbin TAB nəzərdə tutulan zolağa gəlişinə itirdiyi vaxtı Çin qazanır.*** Əvvəlki bölümlərdə ona da toxunduq ki, Uzaq Şərqdə Çin start üçün platsdarm hazırlayıbdır. ***YDD alyansı ilə ƏA ilkin hazırlıqlardan sonra təxminən eyni səviyyədədir, üstünlüyü TAB yerləşməsi nəzərdə tutulan bölgəyə nəzarət edən qazanacaqdır. Əgər ƏA bölgəni nəzarətə götürəcəksə, dünyanın iqtisadi güc mərkəzinə çevrilən Asiyanın YDD-yə əks olan prinsipləri ixrac edəcəyi, dünyanın siyasi güc mərkəzinə çevriləcəyi də mümkündür.*** Üstalik, Rusiya da Orta Asiyada çox dinamik siyasət yeridir. 1996-cı ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistan aralarında sərhədlər və təhlükəsizik haqda müqavilə imzaladı. Bunun

ardınca, 2000-ci ilin oktyabr ayında Qazaxıstanın paytaxtı Astana şəhərində Rusiya, Qazaxıstan. Belarus, Qırğızıstan və Tacikistan Avrasya İqtisadi birliyini (AİB) təsis etdilər. Birliyin mərkəzi orqanı, qərargah mənzili Moskvada və Almaatada yerləşəcək inteqrasiya komitəsi olacaq. Bundan başqa, AİB-in parlamentlərarası assambleyası və məhkəməsi də yaradılacaq. İşlər rus dilində aparılacaq. AİB təsisçiləri beş ölkənin ərazisində vahid iqtisadi məkanın yaradılmasını başlıca məqsəd hesab edirlər və bəyan ediblər ki, təşkilatın əsas vəzifələri iqtisadi struktur islahatlarının razılaşdırılmasından, vahid nəqliyyat strukturunun və vahid bazarının yaradılmasından, vahid gömrük tariflərinin tətbiq olunmasından, beynəlxalq iqtisadi təşkilatlara münasibətdə ümumi siyasi kursun müəyyənləşdirilməsindən ibarət olacaqdır. MDB-dən fərqli olaraq, bu qurumda Moskvanın təsiri real olacaqdır. Dövlətlərarası strukturların maliyyələşdirilməsində hər ölkənin payı və buna uyğun səslərin bölüşdürülməsi nəzərdə tutulub; Rusiya 40%, Qazaxstan və Belarus hərəyə 20%, Qırğızstan və Tacikstan hərəyə 10%. Bu birliyə Rusiya Özbəkistan və Türkmənistanın da qatılmasını planlaşdırır. Göründüyü kimi, regionda gedən oyunda seytnot vəziyyətdir. Qərb inamsız oynayır. Mən bu kitabı həbsxanada yazdım və yuxarıda qeyd etdiyim AİB haqda məlümatı da burada aldım. Onun da ardınca aşağıdakı informasiyanı aldım. 25 oktyabr 2000-ci ildə Azərbaycan Respublikası prezidenti sərəncam verdi. Sərəncamda göstərilirdi : "2000-ci il iyunun 20-də Moskva şəhərində MDB hökumət başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən imzalanmış sənədlər təsdiq edilsin: 1) MDB xarici iqtisadi fəaliyyətinin vahid əmtəə nomenklaturu haqqında 1995-ci il 3 noyabr tarixli sazişə dair protokol; 2) 2000-ci il iyunun 20-də Moskva şəhərində MDB-nin Xarici İşlər Nazirləri Şurasının iclasında Azərbaycan Respyblikası tərəfindən imzalanmış "Birliyin nizamnamə və digər orqanlarında birliyin iştirakçısı olan dövdətlərin Daimi

Səlahiyyətli Nümayəndələri Şurası haqqında sənəd"

***Təkcə bir gündə TAB dövlətlərinin Rusiya təzyiqi qarşısında belə ciddi geri çəkilmələri onu sübut edir ki, TAB nəzərdə tutulan region uğrunda ciddi mübarizə gedir və gecikmək əldə olunan regional və qlobal naaliyyətlərin hamısını sual altına qoya bilər. Bunları qeyd etməklə pessimiz aşılamırıq. Sadəcə olaraq, Rusiya, Çin, digər ƏA dövlətləri bütün imkanlarını istifadəyə verərək məsələyə ciddi yanaşır və fəal siyasət yeridirlər.*** Amma YDD alyansı nəhəng potensialına rəğmən çox ləng siyasət yeridilir. Bu özünə arxayınlıq aradan qaldırılmalıdır. Əvvəlki bölümlərdə də ətraflı göstərmişdik ki, ƏA dövlətlərinin, o cümlədən Çinin özünün xeyli zəif tərəfləri vardır və bunlar nəzərə alınmaqla qələbəyə zəmanətli siyasət yürütmək imkanları mövcuddur. Çinin ciddi sayıla biləcək problemlərinə: Rusiya Çin ərazi mübahisəsi, Çin Vetnam sərhəd mübahisəsi, Çin Hindistan sərhəd mübahisəsi, Çin İndoneziya okean sərhəd xətti mübahisəsi, Döğu Türküstan (Sintsiyan) məsələısini və s. aid etmək olar. Axırıncıdan Doğu Türküstan məsələsindən başlayaq.

Əvvəlki bölümlərdə də qeyd etmişdik ki, TAB formalaşdıqdan sonra 26 milyonluq Doğu Türküstan tarixi haqları və insan haqları uğrunda mübarizədə daha da inamlı, arxalı olacaq, bu intensiv mübarizə Çini dünyanın üzərinə getməkdən saxlayıb, dönüb daxilinə nəzər salmağa məcbur edəcək. TAB formalaşmaqla güc boşluğu ƏA-ın, o cümlədən Çinin iştahla baxdığı təsir dairəsi kimi yox, YDD Alyansının Çin, Rusiya, İran arasına vurduğu "təhlükəsizlik pazı" kimi olacaqdır. TAB-a Əfqanıstan və Pakistanın qoşulmasından sonra isə bu "paz" həm də Hindistanın şimal-qərbindən cənuba doğru uzanacaq. Üstəlik, Əfqanıstan, ələlxüsus Pakistan TAB-a qoşulduqdan sonra Çinlə ərazi mübahisələrində olan dövtətlər də Çinlə indiki kimi müticəsinə hesablaşmayacaqlar. İndoneziya isə müsəlman dövlət və Çinlə ərazi-sərhəd mübahisəsində olan dövlət kimi

YDD Alyansına yaxınlaşma kursu götürə bilər. Üstəlik, TAB-ın formalaşması Rusiyanın cənub-qərbindən cənub sərhədləri boyunca Rusiyanın Uzaq Şərq sərhədlərinə qədər uzanan bir Türk Zolağının (TZ) fəallaşmasına, inkişafına, TAB-la tədricən inteqrasiyasına da səbəb olar. Bu zolaq təhlükəsizlik xətti kimi, həm də ƏA dövlətləri Rusiya və Çin arası təcrid xətti kimi meydana çıxa bilər. Belə bir bəziyyətdə Çin və digər ƏA dövlətlərininin bir yolu qalacaq - qarşıdurmanın perespektivsizliyini görüb, dinc əməkdaşlığa getmək. Bu isə bəşəriyyət üçün son dərəcə əhəmiyyətli bir nəticədir -atom silahına, nəhəng hərbiyyəyə malik dövlətlər silahsız yolla qarşı duran tərəfdən, dinc əməkdaşliq edən dövlətə çevrilir.

Rusiyanın bölgədə fəallaşdığını qeyd etdik. SSRİ dağıldıqdan sonra Rusiya şokdan çıxdıqca daha açıq şəkildə imperiyanın itirdiyi mövqelərini geri qaytarmağa çalışır. ***Rusiya TAB nəzərdə tutulan bölgədənəyin bahasına olursa olsun uymağa çalışır.*** Avrasiyanın bu hissəsi rus etnosu üçün coğrafi mənada da əvəzedilməz olub. Rus etnosunun formalaşması, rus etnogenezi buraya canlı şəkildə bağlı olub. Ona görə, Rusiyada quruluşlar dəyişsə də, bölgəyə münasibət dəyişməyib. Rusiyanın Şərqi Avropadan geri çəkilməsi müqabilində, Qərb və ABŞ bu ölkənin Qafqazlarda və Orta Asiyada "çəkmələrini" möhkəmcə yerə vurmasına loyal yanaşdı. Bu yanlışlıq etiraf olunmalıdır. ***Rusiya ilə münasibətlərdə nəzərə almaq lazımdır ki, bu ölkə zəifləyərək halsız vəziyyətə düşsə də, geostrateji baxımdan fəal dövlət olaraq qalır, ambisiyalarını gerçəkləşdirmək üçün situasiyalara uyğun davranır və əlverişli məqam gözləyir, həm də bu məqamı imkanlarına uyğun olaraq hazırlayır. Şərqi Avropada Rusiyanın mövqe itirməsi dönməz xarakter aldığından, əsas prioriteti Qafqazlar və Orta Asiyaya qoyan Rusiya ilkin olaraq regiona ABŞ və Qərbin öz dəyərləri ilə gəlməsini önləmək üçün maneələr sistemi hazırlamaq haqda düşünür. Bu maneələrdən birisi coğrafi baryerdir. Rusiya hər şeydən öncə, Azərbaycanı***

***ram edib yenidən öz təsirinə salmaqla, bu ölkəni Avrasiya dəhlizinə "tıxac" etmək istəyir.*** Rusiya ümid edir ki, byndan sonra Orta Asiyada və Uzaq Şərq regionunda ƏA dövlətləri Çin, İran, Hindistanla öz istədikləri yeni qaydaları quracaq, YDD prinsiplori və dəyərlərinin gəlişini önləyib, buradan Avropaya doğru revanş gotürəcəkdir. Rusiya siyasətində əsas istiqamət budur. Rusiya regiona qayıtmaq üçün süni şəkildə həm Qafqazlarda, həm Orta Asiyada yaratdığı etnik-ərazi münaqişələrindən faydalanır və "sülhməramlı" missiya ilə bölgədə hərbi mövcudluğunu bərpa edir. Rusiya iqtisadi cəhətdən özünə gəldikcə isə bölgədə iqtisadi rıчaqları da bərpa edir. Yuxarıda bu məsələyə toxunduq. Avrasiya İqtisadi Birdiyİ (AİB) yaradılması məhz bunun təzahürüdür. ***Rusiyanın SSRİ dağıldıqdan sonrakı davranışı Avropa və ABŞ-ın Rusiyaya yönəlik siyasətinin fiaskoya uğradığını göstərdi. ABŞ və Avropa hesab edirdi ki, Rusiyaya demokratik təsisatların yaradılması və iqtisadiyyatının bərpası üçün yardım etmək olar. Amma bu yardım Rusiyanı Avrasiya imperiyasına çevirmədən, Avroatlantik sistemdəki dovlətlərin geostrateji maraqlarına mane olmadan mövcud olmalıdır. Bu sadəlövh proqramın fiaskosunu ancaq TAB-ı formalaşdırmaqla aradan qaldırmaq mümkündür.*** Qərb TAB regionunu əldə etməklə Rusiyanın birdəfəlik bölgədən getməsini təmin edər. Yəni imperiya məqsədli gəlişini önləyər. İkincisi, Rusiyanın cənub-qərbindən cənub sərhədləri boyu şərq sərhədlərinə qədər uzanan Türk zolağının (TZ) inkişafına səbəb olar. Bu, ABŞ strateqlərinin səsləndirdiyi üç subyektli Rusiya konfederasiyasının təşəkkül tapmasını tezləşdirər. Yuxarıda qeyd etdik ki, TAB ƏA dövlətləri arasında təhlükəsizlik xətti kimi bufer və ayırıcı olar. TAB-ın strukturlaşması və möhkəmlənməsindən sonra Rusiya da Fransa-Almaniya-Polşa-Ukrayna-Türkiyə-Azərbaycan-Türkmənistan-Qırğızıstan-Özbəkistan-Tacikistan-Qazaxıstan təhlükəsizlik həlqəsi içərisində qarşıdurmaya getməyin mənasızlığını və Rusiya

üçün ağır nəticəli olacağını anlayıb dinc əməkdaşlığa qərar verər. Əlbəttə, həmin təhlükəsizlik həlqəsi Avropanın digər dovlətləri, Gürcüstan, Əfqanıstan, Pakistanla da möhkəmlənirsə, bu yenilməz güc YDD-ni asanlıqla quracaqdır. ***Bütün bunlar blokun özəyi olan «Turan"m tezliklə yaradılmasına bağlıdır. "Turan"ın həyata vəsiqə alması isə Azərbaycana bağlıdır. Azərbaycan regiona nüfuz etmək istəyən dövlətlərin təsir istiqamətlərinin kəsişdiyi ölkədir.*** Əvvəlki bölümdə Azərbaycansız bu ölkələrin regionu nüfuzları altına almasının qeyri-mümküilüyünü gördük. ***Rusiyanın geosiyasi təsir oxu Azərbaycandan keçərək Orta Asiyaya və Qazaxısitdan keçərək cənub-şərqə istiqamətlənib, həm də aydın oldu ki, Azərbaycandan keçən geosiyasi ox missiyasını yerinə yetirə bilməzsə cənub-şərq oxunun əhəmiyyəti olmayacaqdır.***

***İkincisi, Tükiyənin bölgəyə geosiyasi təsir xəttidir ki, bu da ancaq Azərbaycandan keçər.***

***Üçüncüsü, İranın regiona iki yöndə istiqamətlənən geosiyasi təsir xəttidir:*** şimali-şərqi istiqamətində olan Türkmənistan, Tacikistan, Əfqanıstana yönələn xətt və digəri şimala istiqamətlənib Azərbaycandan keçərək Rusiyanın cənubuna yönələn xətt.

Təhlillərdən qənaətimiz belə hasil oldu ki, Azərbaycandan keçən şimal təsir oxunun uğursuzluğu digər istiqamətdə də İran təsirinin fiaskosu deməkdir. Göründüyü kimi, hər üç dövlət bölgədə təsirini saxlamaq və ya təsir imkanı qazanmaq üçün Azərbaycan adlı qapıdan keçməlidirlər. ***Qərbdən Şərqə, Şərqdən-Qərbə qapı olan Azərbaycan YDD Alyansı ilə birlikdə olacaqsa, Avropa platsdarmasından yeni dəyərlər Orta Asiya və Uzaq Şərqə transformasiya olunacaqdır. Azərbaycan hansı səbəblərdənsə ƏA dovlətləri təsirində olacaqsa, bu blokun təsiri və idarəetmə qaydaları regionu əhatə edəcək, Avropaya addımlayacaq.***

ƏA dövlətlərindən Azərbaycana ən çox təsir edə biləcək

dövlət Rusiyadır. Ümumiyyətlə, bütün postsoveq ölkələrinə Rusiyanın təsir imkanları digər dövlətlərə nisbətən artıqdır. Səbəbi uzun müddət bu ölkələrin imperiya tərkibində qalması. Rusiyanın xeyli rıçaqlarının bölgə dövlətlərində mövcudluğu, coğrofi yaxınlıq, bu respublikaların son dərəcə zəif olmaları və s. İlə bağlıdır. Tam olmayan bu səbəblər kompleksi də Rusiyanın təsir imkanlarını artıran amildir. ***YDD siyasətinin Örta Asiya və Uzaq Şərqə gedişini əngəlləmək üçün Avrasiya dəhlizində Azərbaycanı "tıxac" kimi istifadə etmək üçün Rusiya üc variantdan yararlana bilər.*** 1) Azərbaycanın Qərbin, ABŞ-ın təsir dairəsinə düşməsinə Qərb oriyentasiyalı siyasət yeritməsinə imkan vermir; 2) Azərbaycanı zorla öz təsiri altına salır; 3) Azərbaycan könüllü olaraq Rusiyanın protektoratına çevrilir. ***Əvvəlki bölümlərdə izah etdik ki, üçüncü variant ağlabatan deyil, qalan iki variantın qarşısının alınması isə təkcə Azərbaycandan asılı deyil. Azərbaycan ABŞ-ın və Qərbin güclü himayəsini görməlidir. Bu himayə ikinci dünya müharibəsindən sonra Almaniyanın aldığı himayə şəklində, kobud desək, bu gücdə olmalıdır.*** Çünki Azərbaycanın üçüncü YDD plastdarmasında (həm yaranmasında, həm fəaliyyətində) oynayacağı rol, Almaniya və Fransanın Avropa plastdarmasında oynadığı rol qədər əhəmiyyət kəsb etməyə qadirdir. ***Azərbaycanın möhkəmlənməsi və TAB-ın formalaşdırılması həm də Türkiyə-Ukrayna tandeminin Qara dəniz bölgəsində SSRİ dağıldıqdan sonra əldə etdiyi üstünlüyü inamlı şəkildə saxlaması deməkdir. Əks halda Azərbaycan Rusiyanın təsiri altına düşərsə, qısa vaxtdan sonra Gürcüstan da Rusiyanın ağuşuna düşəcək. Bu isə Rysiyanın Qara dənizdə itirdiyi mövqeləri yenidən qaytarması ilə nəticələnər. Ukrayianın təhlükəyə düşməsi isə Fransa-Almaniya-Polşa-Ukrayna (FAPU) zolağının qırılmasına səbəb olar. Ukraynanın da Rusiyanın təsir dairəsinə keçməsi SSRİ-nin bərpası deməkdir. Bu isə Avropa kataklizmlərinin başlanğıcı olar.*** Əlbəttə, məqsədim

nə Rusomizm və Rusofobiya yaratmaq, nə də utopik ssenarilər qurmaq deyil. Amma yüzillərlə dövlətçilik və imperiya təctübəsi olan Rusiya ambisiyalarından əl çəkməyibsə, yanaşmalar ölçülü-biçili olmalıdır. 0 cümlədən Azərbaycan kimi geosiyasi əhəmiyyətli dövlətdə taleyin hökmünə buraxılmamalıdır. Təkcə mümkün olan onlarla ssenarilərdən birini çözməklə Azərbaycana vurulan zərbələrin dolayısı ilə Qərbə, ABŞ-ə, YDD siyasətinə vurulan zərbə olduğunu xatırlatmaq istədim.

Yuxarıda göstərildiyi kimi, Azərbaycanın güclənməsi və yeni blokun təşəkkülü Ukraynanın timsalında bütün Avropanın cinah təhlükəsizliyi deməkdir. Həm də Ukrayna da daxil olmaqla Avropa dövlətlərinin enerji istehlakçısı olması onlara yeni enerji bazarı verir. Ukrayna Rusiyadan iqqisadi asılılığına son qoyur, Avropa ölkələri zəngin karbohidrogen yataqları olan Xəzər hövzəsi, Orta Asiyaya çıxış əldə edirlər. Nəzərə alsaq ki, bölgə təkcə neft və qazla deyil, çeşidli resurslarla da çox zəngindir, onda ***Azərbaycan adlı "Qızıl Avrasiya körpüsünün"*** əhəmiyyəti ortada olar. Bu iqtisadi inteqrasiya Ukraynanın asılılığını aradan qa!dırmaqla yanaşı, 230 milyonluq əhalisi olan FAPU zolağı ilə 138 milyonluq TAB zolağının Yeni Naertland "dünyanın yeni qəlbi"ni yaradacaqdır. Bu isə YDD prinsiplərinin dönməzliyi deməkdir və Gürcüstan, Əfqanıstan, Pakistanın da buraya qoşulması Dünyanın Yeni Qəlbinin (DYQ) daha da nəhəng və dayanıqlı olmasını təmin edəcəkdir. ***Ümumiyyətlə isə, FAPU+TAB təhlükəsizlik və inkiişf zolaqının təkcə mövcudluğu belə siyasi mənada həm də AB+ABŞ+TAB düsturu deməkdir.*** Bu düsturun varlığı və fəaliyyəti isə Əks Alyans (ƏA) dövlətlərinin də demokratik beynəlxalq təsisatlara konsolidasiyası və sosial modernləşməsinə səbəb olacaqdır. Bu da YDD siyasətinin baş tutması deməkdir.

Avrasiya dəhlizi həm də enerji dəhlizidir. Bu isə Azərbaycansız heç təsəvvür belə oluna bilməz. Təxmini proqnozlara görə Xəzərin Azərbaycan sektorunda çıxarılası

8,7 milyard ton neft, 4 trilyon kub metr qaz ehtiyatı vardır. Bu proqnozlara əsasən, Azərbaycanda neft ehtiyatları hətta Küveytdəki ehtiyatlardan 20-25% çoxdur. Şərq-Qərb enerji dəhlizinin yaradılması üçün 2000-ci ilin oktyabr ayında ARDNŞ; BP; Yunokal; Statoyl; Türk Petrolları Anonim Ortaqları; İtoçu; Remko; Delta hess qrupu; Gürcüstan neft korporasiyası ilə kommersiya-texniki saziş imzatadı. 40 il üçün nəzərdə tutulan "Host Goverment Aqrneement" adlı sazişdə Azərbaycan istehsalçı və tranzit ölkədir. Bu Azərbaycanın Avrasiya enerji dəhlizindəki rolunun göstəricisidir.

***Azərbaycanın bölgədə güclü və fəal olması digər postsovet müsəlman resnublikaları ilə konsolidasiyası bölgədə İranın din ammilindən sui-istifadəsnə son qoyacaqdır.*** İran imperiyasının ərazisinin boyük hissəsi Güney Azərbaycan, əhalisinin əsas hissəsi Azərbaycan türkləri olduğundan Quzey Azərbaycanın qlobalizm proqramında fəal mövqedə iştirakı İranın ƏA dövləti kimi fəallığını azaldacaq. İranın daxilində demokratikləşmə prosesləri güclənəcək. Prosesin sonunda demokratik konfederativ İran yaranarsa, hətta bu ölkə TAB-da iştirak edə bilər. Əlbəttə, Azərbaycan üçün ədalətli statys-kvo tarixi vətəndə vahid millət-dövlət şəklində mövcuddur. ***Biz demokratik üsullarla xalqın iradəsi və təkamül sintezini nəzərə alıb, mərhələlərdən birinin konfederativ İran olmasını təklif edirik.*** Ola bilsin ki, bu konfederasiya hər cür haqları, o cümlədən milli müqəddəratını təyinetmə haqqı olan Güney Azərbaycan türklərini qane etsin və onlar referendumla Quzey Azərbaycanla birləşmədən İran konfederasiyasında qalsınlar. Və yaxyd Güney və Quzey Azərbaycan birləşdikdən sonra Fars əyalətlərinə muxtariyyət verilsin, başqa bir variantda Fars əyalətləri konfederasiya halında Azərbaycanla birlikdə olur və s. ***Siyasi improvizə variantları çoxdur. Amma bütün hallarda İran demokratikləşməli və buradakı xalqlar tarixi və insani haqlarına sahib olmalıdır. Bu mütləq olacaq,***

***sadəcə, biz prosesin sivil həllini arzulayırıq. Azərbaycanın hər hansı formada bütövləşməsi Yaxın Şərqdə də sabitliyə səbəb olar.*** Həm TAB, həm də Türkiyə-Azorbaycan tandemi Yaxın Şərq sülh prosesinin nizamlanmasında hər iki tərəfin inandığı vasitəçi ola bilər. İsrail-Fələstin münaqişəsində Şarm-aş-Şeyx sammitinin nəticə verməməsi və ümumiyyətlə, vastəçiliklərin fiaskoya uğraması regiondakı konsolidasiyanın dayazlığı və mənəvi boşluğa malik olma kimi qiymətləndirilə bilər. Əvvəlki bölümlərdə də qeyd etmişdik ki, mənəvi boşluq dezinteqrasiyaların başlıca səbəblərindəndir. Amma Türkiyə-Azərbaycan tandemi və TAB-ın Yaxın Şərq proseslərinə müdaxiləsi uğur verə bilər. Burada əvvəlki vasitəçiliklərdən fərqli üstünlük sivilizasiya yaxınlığı və din amili olacaq. Bu iki amil Fələstinin etibarını qazanmağa, TAB-ın, o cümlədən Azərbaycan-Türkiyə tandeminin siyasi oriyentasiyası isə İsrailin etibarını qazanmağa imkan verir. ***Mən belə və oxşar halları nəzərə alıb, mənəvi boşluğu olmayan TAB formalaşdırmağı, sonra Avropa Birliyi+ABŞ+TAB formasında konsolidasiyasının, tək-tək region dövlətlərinin Avropaya konsolidasiyasından üstünlüyünü iddia edirəm.***

Bütöv Azərbaycanın formalaşması İraqa da təsir göstərəcəkdir. Burada kompakt yaşayan Kərkük türklərinin mövcudluğu mühüm şərtlərdəndir.

***Bütöv Azərbaycan Avropanın Kəngər korfəzinə yeni, yaxın, təhlükəsiz çıxışıdır. Bu halda zəngin bazar meydana çıxacaq, regiondakı əksər qarşıdurmalar aradan qalxacaq.***

АВШ burada-körfəzdə ifrat hərbi qüvvə saxlamayacaq.

Xəzər karbohidrogen ehtiyatları və Orta Asiya karbohidrogen ehtiyatları ucuz və qısa yolla bir tranzit ölkə -Azərbaycan ərazisindən Kəngər körfəzinə çıxarıla bilər.

Azərbaycan bütöv olmadığı halda belə Qafqaz ölkələri və xalqları tərəfindən lider kimi qəbul olunur. Regiondakı dövlətlər və xalqlar milli müqəddəratlarının Azərbaycanın durumuna bağlı olduğunu anlayır və qəbul edirlər.

Azərbaycanın əhəmiyyətini ƏA dövlətləri də bilir və ona təzyiqlərini bir an da olsa, dayandırmırlar. Ona görə, Azərbaycan, o cümlədən digər TAB dövlətləri Qərbin və ABŞ-ın dekorativ olmayan köməyini almalıdırlar. Həm də ABŞ ikinci dünya müharibəsindən sonra ziddiyyət və düşmənçiliklərə məruz qalan Avropadakı barışdırıcı, himayəedici missiyasını potensial üçüncü platsdarmda davam etdirməlidir. Orta Asiyaya keçid üçün mini-platsdarm kimi Azərbaycana xüsusi önəm verilməlidir. Qərbin və ABŞ-ın Aərbaycana köməyi onu protektorata çevirmədən himayə etməsidir. Yenicə müstəqillik qazanmış Azərbaycanın sakitcə özünə gəlməsi və iqtisadi dirçəlişi təmin olunarsa, onda Azərbaycan bir neçə istiqamətdə siyasətini qura bilər: 1) iqtisadi dirçəliş; 2) beynəlxalq konfliktlərə qoşulmadan yüngül silahlanma (təhlükəsizliyi təmin olunmayan ölkənin, cəmiyyətin demokratikləşməsi mümkün deyil.) 3) hərbi müdafiəni Qərb təsisatlarından və ABŞ-dan almaq, TAB təhlükəsizlik sisteminin yaranmasında iştirak etmək; 4) Azərbaycan diplomatiyasınınYDD siyasətinə uyğunlaşdırılması.

***Azərbaycanın, o cümlədən Orta Asiya respublikalarının öz ayağı üstə durması üçün ABŞ və Qərb köməyini əsirgəməməlidir. Əks halda, bu ölkələrdə YDD-nə, demokratik dəyərlərə, bu prinsipi müdafiə edən, yayan dövlətlərə inamsızlıq yaranar, mənəvi sınıqlıq baş verər, ortaya atılan ideyaların dekorativ pərdə olduğu düşünülər. Bu olkələrə Qərbin və ABŞ-ın köməyi keçici xarakterli olmayıb, Avrasiya strategiyasının komponenti xarakteri daşımalıdır.***

Bu baxımdan, Rusiyanın forpostu Ermənistanın Azərbaycana təcavüzü ədalətli surətdə aradan qaldırılmalıdır. ***Çünki "Qarabağ münaqişəsi" Rusiya siyasətinin tərkib hissəsidir.*** Qarabağda baş verənlər milli müqəddəratı təyinetmə ola bilməz. Çünki ermənilər müqəddəratlarını Ermənistan adlı dövlətlə təyin ediblər. Həm də tarixi Azərbaycan ərazilərində bu münaqişə etnik qarşıdurma da

deyil, əks halda Azərbaycanın paytaxtaxtında 20 min erməni millətinə məxsus Azərbaycanlı yaşaya bilməzdi. Ümumiyyətlə, Azərbaycan monomillətli olmamaqla etnik telerantlığa malik olduğunu sübut edib. Prosesin dini dözümsüzlüklə əlaqələndirilməsinin də doğru olmadığı aydındır. Azərbaycanda dini tolerantlıq mövcuddur. İstənilən qədər dini sektorlar belə fəaliyyət göstərir. Münaqişənin sosial-iqtisadi səbəblərinin olmadığını əvvəlki bölümdə izah etdik. Başqa yanaşma-ermənilərin tarixi haqqı uğrunda mübarizə aparması da tam əsasızdır və Azərbaycana ermənilərin nə vaxt, haradan, hansı səbəbdən gəlməsi də izah olundu. ***Təhlillərdən qənaətə gəldim ki, Qarabağ münaqişəsi Rusiya siyasətinin tərkib hissəsi olan süni bir münaqişədir.*** Səbəblər isə bunlardır: 1) Rusiya hələlik regiondan və o cümlədən Azərbaycandan tamamilə çıxmaması yollarını arayır; 2) Ermənistanın Azərbaycana hücumu "bumeranq" təsiri verdiyindən Ermənistan özü də Rusiya ordusunun Qarabağda və Ermənistanda qalmasında maraqlıdır; 3) Ermənistan elə bir tələyə düşüb ki, daim silahlanmaya məhkumdur və bu istək ancaq Rusiya vasitəsilə reallaşa bilər; 4) Qarabağ münaqişəsi Rusiya hərbi Sənaye kompleksi üçün də lazımdır. Münaqişə olan bölgə silah bazarı deməkdir. 5) Rusiya Hərbi Sənaye Kompleksi (HSK) nomenklaturası və Rusiya siyasi elitasının əhəmiyyətli bir hissəsi Qarabağ və bu kimi məsələlərdən istifadə edərək Türkiyəni hərbi toqquşmaya çəkmək istəyir. 6) Ermənistanı münaqişə tərəfi kimi müdafiə etməklə xristian təəssübkeşi imici qazanmaq istəyir və beləliklə, bəzi Qərb dövlətlərinin himayəsinə göz dikir. 7) Yaratdığı münaqişənin əsas açarı əlində olduğundan "sülhpərvər" missiya ilə bölgədə qalmaq istəyir. Həm də minnətlə. 8) "Sülhpərvər" prestiji ilə Qafqazda və digər bölgələrdə etdiyi vəhşilikləri pərdələmək istəyir. 9) "Qafqaz Evi" ideyasına mane olyr. 10) Postsovet ölkələrində qeyri-sabitliyi saxlamaqla onların Avropa, o cümlədən digər demokratik təsisatlara qəbul olunmasını əngəlləmək istəyir.

11) Rusiya özündən asılı olan münaqişələrin davam etməsindən qlobal iqtisadi layihələrdə iştirakı üçün alver predmeti kimi istifadə edir; 12) Rusiya Qarabağ münaqişəsini sönməyə qoymamaqla Azərbaycanın daxili işlərinə qarışmaq və daxili durumuna təsir etmək imkanlarını saxlayır; 13) Münaqişəni uzatmaqla Azərbaycanı zəiflədir və hər cür təzyiqlərə qarşı davamsız edir; 14) Qarabağ problemi həll olunmadıqca, Qərb oriyentasiyalı Azərbaycan əhalisində Qərb dövlətlərinə şübhə formalaşacaq.

Ümumiyyətlə, Rusiyanın məqsədi Azərbaycanı öz təsir dairəsinə salıb, qlobal mübarizədə ABŞ və Qərbin, onların missiyasının və dəyərlərinin TAB regionuna keçməsini önləməkdir. Avrasiya enerji, transport, ticarət, siyasət dəhlizinə "Azərbaycan tıxacı" sancmaqdır. Göründüyü kimi, "Qarabağ" problemi təkcə Azərbaycan problemi deyildir. ***Qarabağ Avrasiyanın boğazıdır və Rusiya buranı sıxmaqla Qafqazların, Orta Asiyanın nəfəsini kəsmək istəyir. YDD qurmaq istəyənlərin hamısı bu əli Avrasiyanın boğazından çəkməyə çalışmalıdır.***

Ümumi nəticə budur ki, mənim təklifim qarşıdurmaya, silahlı toqquşmaya, hansısa dövləti çökdürməyə, məhv etməyə getmədən, sadəcə "xeyirə xidmət edən" YDD siyasətini həyata keçirmək istəyənləri gücləndirməklə "şərə xidmət edən" ƏA dövlətlərini xeyirə, əməkdaşlığa cəlb etməyi, bəşəriyyətin təhlükəsizliyini və inkişafını təmin etməyi nəzərdə tutur.

# İ Ç İ N D Ə K İ L Ə R

GİRİŞ. Yeni Dünya Düzəni....................................................................3
Azərbaycanın siyasi oriyentasiyasının YDD-də əhəmiyyəti......5
Transkontinental "Turan" Avrasiya Bloku-TAB............................14
Konfederativ İran, yoxsa Bütöv Azərbaycan.................................18
Azərbaycan və digər TAB ölkələri himayə olunmalıdır............24
Yeni platsdarm-TAB.............................................................................39
TAB sivilizasiyalararası dialoq vasitəsi kimi.................................43
TAB YDD qurucularına rəqib ola bilməz........................................48
Maraqların toqquşduğu ölkə-Azərbaycan.....................................57
YDD-nin Uzaq Şərqdə bərqərar olması TAB-a bağlıdır.............74
Qərbin və ABŞ-ın itirdiklərini Rusiya tapır...................................83
Rusiya Qarabağı YDD-nə badalaq kimi nəzərdə tutur...............86
TAB-ın genişlənmə imkanları..........................................................100
TAB-ın Yaxın Şərqə təsir imkanları...............................................110
Azərbaycan YDD siyasətinin iştirakçısıdır.................................116
NƏTİCƏ.....................................................................................134